# ZƏFƏRİN MÜBARƏK, AZƏRBAYCAN!


Xalqın qəzeti!

Xalq qəzeti

№ 245 (30361) 8 noyabr 2023-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az





## Zəfər mesajı: Xalq – Prezident həmrəyliyi və informasiya müharibəsinin ideoloji motivləri

### Qırx dörd günün təcrübəsi və bitməyən savaşın növbəti uğur təminatları

**Qırx dörd günlük Vətən müharibəsi ilə ərazi bütövlüyümüzə qovuşmaq iradəmizi ortaya qoyanda bizə qarşı çıxanlar indi də suverenliyimizin tam bərpasından qeyzlənib hərəkətə keçiblər. Döyüş meydanında olduğu kimi, diplomatik müstəvidə də iflasa uğramış Ermənistan yeni reallıqlar formalaşdırmağa cəhd göstərir, bunun üçün ən müxtəlif üsul və vasitələrə əl atır. Bu "fəaliyyətin" ayrı-ayrı elementlərinin təhlili göstərir ki, İrəvan üç il əvvəl olduğu kimi, yenə informasiya müstəvisində manipulyasiyalara baş vurur, Azərbaycan cəmiyyətinə hesablanmış müəyyən qıcıqlandırıcı gedişlər edir. Deməli, informasiya savaşı aktuallığını qoruyur. Bəli, hazırda baş verən proseslərə diqqət yetirəndə, ölkəmizə qarşı ünvanlanmış hədyanları görəndə, Vətən müharibəsindəki Zəfərin informasiya təminatının necə böyük anlam daşıdığına bir daha əminlik yaranır.**

***

Vətən müharibəsi günlərində Azərbaycan dünya siyasətinin mərkəzində idi. Mərkəzdə dayanmaq isə asan olmadığından, ölkəmizə qarşı çeşidli beynəlxalq təzyiqlər labüd idi. O zaman durum belə idi: sanki, müharibəni başlayan da bizik, işğalçılıq niyyətini güdən də. Həqiqətən, dəhşətli mənzərə yaşanırdı. İnsan belə namünasib vəziyyətlərdə nə edəcəyini bilmir. Etiraz əlaməti olaraq hayqırmaq, həqiqətləri anlatmaq istəyir. Zəfərimizin informasiya təminatı bu hayqırtını çatdırmaq əzmimizin məhsulu kimi meydana çıxdı. Reallığı ən uca səslə anladan isə O idi – Azərbaycan Prezidenti İlham Əliyev. Qətiyyətlə deyə bilərik ki, 44 günlük müharibədəki Zəfərimizin – həm döyüş, həm də informasiya cəbhəsindəki qələbələrimizin memarı da dövlətimizin başçısıdır.

Azərbaycan Prezidenti dünyanın müxtəlif nüfuzlu media orqanlarına verdiyi otuzdan çox müsahibə ilə beynəlxalq aləmdə getdikcə güclənən anti-Azərbaycan mahiyyətli "informasiya seli"nin qarşısına çıxdı. Nəinki çıxdı, eyni zamanda, həmin yanlış "informasiya seli"ni ram edə bildi. Bunu özünün məntiqi, erudik təfəkkürü, ardıcıllığı ilə etdi.

Prezident İlham Əliyevin müsahibələri sayəsində ölkəmizlə bağlı mənfi informasiya axını təsirini itirdi. Dünya öz torpaqlarını düşməndən xilas yolunda göstərilən prinsipiallığı və qətiyyəti gördü. Beynəlxalq ictimaiyyət əmin oldu ki, Azərbaycanın apardığı savaş ədalətli haqq davasıdır. İnformasiya müharibəsində qələbəyə aparan ilk uğur da bu əminliyin formalaşması idi. Əlbəttə, Azərbaycan liderinin 44 günlük müharibə müddətində apardığı informasiya savaşının başqa vacib cəhətləri də var ki, onlar barədə yazımızın son bölümündə söz açacağıq. Hələlik isə…

***

Bəli, cənab İlham Əliyevin arqument bolluğu Azərbaycan dövləti ilə mediası arasındakı qarşılıqlı əməkdaşlığı yeni və daha səmərəli müstəviyə çıxardı. Ordumuzun artan uğurları fonunda bu əməkdaşlıq cəmiyyətdəki monolitliyi gücləndirdi. Fikrimizi əsaslandırmaq üçün bir məqamın üzərində dayanaq. Müharibənin ilk günlərində daxilimizdəki anti-milli qüvvələr, yalançı pasifistlər hərəkətə keçdilər. Onlar xaricdən aldıqları "direktivlər" əsasında müharibə əleyhinə çağırışlar səsləndirdilər. Azərbaycan dövlətinin bütün sahələrdə apardığı siyasətə qarşı çıxdıqları kimi, ordu quruculuğu ilə bağlı işlərə də kölgə salmağa çalışdılar. Cəmiyyətdə qələbəyə inamsızlıq ruhu aşılamaq istədilər.

Dövlət başçımızın qətiyyəti, əsl həqiqətləri demək bacarığı belə mənfi meyillərin qarşısına sipər oldu və daxildəki əks qüvvələr cəmiyyətdəki monolitliyin qarşısında duruş gətirməyin mümkünsüzlüyünü anladılar. Sanki qurbağa gölünə daş atıldı. Nəticədə xaricdəki anti-milli qüvvələr də tədricən susmağa məcbur oldular. Həm onlarda, həm də daxildəkilərdə belə rəy formalaşdı ki, xalqın ruh yüksəkliyinin qarşısında duruş gətirmək, onun əzmini sarsıtmaq qeyri-mümkündür. Hesab edirik ki, informasiya müharibəsindəki qələbənin şərtləndirən mühüm amillərdən biri də məhz budur.

(ardı 8-ci səhifədə)

# Əziz Şuşa, biz səni dirçəldirik!

## Dövlətimizin başçısı və birinci xanım Kəlbəcər rayonunun Vəngli kəndində olublar



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev noyabrın 7-də Kəlbəcər rayonunun Vəngli kəndində olublar.**

Qeyd edək ki, işğal dövründə ermənilər növbəti vandallıq aktı nümayiş etdirərək, azərbaycanlıların şəxsi avtomobillərinin nömrələrindən lövhə düzəltmişdilər.

Prezident İlham Əliyev lövhənin sökülməsi ilə bağlı tapşırıq verdi.

## Birinci vitse-prezident Şuşadan fotolar paylaşıb









**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində Şuşadan fotolar paylaşıb.**

**Birinci vitse-prezident paylaşımında yazıb: "Şuşa. 07.11.2023".**



## Pallonenin "müdafiə uvertürası"

Səhifə ⇨ 15



## Gözlənilən bir cəzanın tarixçəsi

Səhifə ⇨ 15

## Qarabağ və Şərqi Zəngəzurun xarabalıqları cənnətə çevrilir



Səhifə ⇨ 16

## Şuşa – qeyrət və qürur qalası

Səhifə ⇨ 11

# Şuşada 23 binadan ibarət yaşayış kompleksi salınır



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşaya gəliblər.**

Dövlətimizin başçısı və birinci xanım Şuşa şəhərində 23 binadan ibarət yaşayış kompleksində aparılan tikinti işləri ilə tanış olublar.

Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, 23 binadan ibarət yaşayış kompleksinin ümumi sahəsi 8 hektara yaxındır. Burada 8 binanın tikintisinə ötən il iyulun 1-də, 15 binanın inşasına isə sentyabrın 1-də başlanılıb. Kompleksin tikintisinin bu ilin sonunda başa çatdırılması planlaşdırılır.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva hazır mənzillərdə yaradılan şəraitlə tanış oldular.

Məlumat verildi ki, yaşayış kompleksində, ümumilikdə, 450 mənzil istifadəyə veriləcək. Burada 28 birotaqlı, 195 ikiotaqlı, 190 üçotaqlı, 30 dördotaqlı və 7 beşotaqlı mənzil olacaq. Mənzillərin əksəriyyəti keçmiş məcburi köçkünlərin istifadəsinə veriləcək. Üçmərtəbəli və beşmərtəbəli binalardan ibarət kompleksdə sakinlərin rahat yaşayışı üçün hər cür şərait yaradılacaq. Keçmiş məcburi köçkünlərin bu binalara köçürülməsinə 2024-cü ilin birinci rübündə başlanılacaq.

Qeyd edildi ki, ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək.

# Qala divarına və ətraf əraziyə baxış



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşa şəhərində Qala divarına və ətraf əraziyə baxış keçiriblər.**

Dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan Şuşa şəhəri ilk dövrlərdə Şuşa adı ilə yanaşı, xanın şərəfinə Pənahabad da adlandırılırdı. Sonrakı dövrdə şəhər sadəcə Qala adlandırılıb. Bir müddət sonra xalq qalanı Şuşa qalası, sonrakı dövrdə isə sadəcə Şuşa adlandırıb. Şuşa qalasının üç əsas qapısı var idi: Gəncə, İrəvan və Ağoğlan qapıları. Hər üç qapının adı tarixi mənbələrdə tez-tez xatırlanır, həmçinin onlar Şuşanın XIX əsrdə çəkilmiş bütün Baş planlarında qeyd edilir. Şəhər işğaldan azad edildikdən dərhal sonra tarixi Şuşa qalasında bərpa işləri görülüb. Qala üzərindəki Şuşa yazısı bərpa edilib.

# "Yasəmən" otelinin açılışı

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşada "Yasəmən" otelinin açılışında iştirak ediblər.**



Dövlətimizin başçısına və birinci xanıma oteldə yaradılan şərait barədə məlumat verildi.

İşğaldan azad edilən ərazilərdə Azərbaycan dövləti tərəfindən həyata keçirilən bərpa və quruculuq işlərinə Heydər Əliyev Fondu da öz töhfəsini verməkdədir. Qədim Qarabağ torpağında Fond tərəfindən dini, tarixi-mədəni abidələrin, məscidlərin bərpası üzrə layihələrin icrasına start verilib. Heydər Əliyev Fondunun Qarabağdakı layihələri Ağdam Cümə məscidi, Zəngilan şəhər məscidi, Şuşada Aşağı Gövhər Ağa məscidi, Yuxarı Gövhər Ağa məscidi, Saatlı məscidi, Mamayı məscidi və bulağı, Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi, Mehmandarovların malikanə kompleksi, Şuşada Yaradıcılıq Mərkəzi, Üzeyir Hacıbəylinin ev-muzeyi və digər tarixi-mədəni abidələrin bərpa və yenidən qurulmasını, Şuşada yeni məscidin inşasını əhatə edir. Tarixi Zəfərimizin növbəti ildönümü ərəfəsində Şuşada bərpası başa çatan və təqdim edilən layihələrdən biri də "Yasəmən" otelidir.

Bildirildi ki, XIX əsrin ortalarında Qarabağ memarlıq məktəbinə xas tərzdə inşa edilmiş, Şuşa şəhərinin Köçərli küçəsində yerləşən üç yaşayış binası işğal zamanı dağıdılaraq istifadəyə yararsız vəziyyətə salınıb. Heydər Əliyev Fondu ərazidə layihələndirmə işləri apararaq, 2022-ci ilin may ayından etibarən həmin yaşayış binalarının təmir-bərpa işlərinə başlayıb. Bərpa zamanı binalarda təməlbərkitmə işləri görülüb, divarlarda daxili bərkitmə işləri aparılıb. Mərmi düşməsi nəticəsində binanın dağılmış hissələri yenidən tikilib. Sonradan inşa olunmuş əlavə tikililər isə sökülüb.

Fond tərəfindən bərpa edilən binalar hazırda otel kimi istifadəyə verilib. Autentik üslubda bərpa edilən "Yasəmən" otelinin eksteryer və interyeri buraya gələnləri orta əsr Şuşasına qaytarır. Otel "double", "twin" və "junior" otaqların olduğu iki korpusdan, restoran və bir neçə terrasdan ibarətdir. Qonaqlar otelin həyətində dövrünün üslubuna uyğun salınan bağçada və terrasda dincələ, şəhərin mənzərəsini seyr edə bilərlər. Terrasdan Mehmandarovların malikanə kompleksinə və ümumi şəhərə gözəl mənzərə açılır. Otelin interyeri, otaqları xüsusi dizayn edilib. Buradakı hər bir element, əşya məhz bu dizayna uyğun seçilib. Bu da qonaqlarda nostalji hisslər yaradır.

Otellə tanışlıq zamanı Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Mehmandarovlar malikanə kompleksinin yuxarı hissəsində bərpa olunacaq binalar barədə də məlumat verildi.

Dövlətimizin başçısı və birinci xanım otelin həyətində yasəmən ağacı əkdilər.

Şuşa işğaldan azad edildikdən sonra şəhərdə qısa müddətdə "Qarabağ", "Xarıbülbül" otelləri, Şuşa Otel-Konqres Mərkəzi Kompleksinin açılışı olub və artıq "Yasəmən" oteli də şəhərin tarixi mənzərəsinə daha bir gözəllik qatmaqla qonaqların istifadəsinə verilir.

# "Qızlar gimnaziyası" tarixi abidəsi bərpa ediləcək



**Noyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərində "Qızlar gimnaziyası" tarixi abidə binasında həyata keçiriləcək işlərlə tanış olublar.**

Dövlətimizin başçısına və birinci xanıma tarixi abidə barədə məlumat verildi.

Bildirildi ki, Şuşada müstəqil qız məktəbi 1875-ci il oktyabrın 26-da Şuşa əhalisinin təşkil etdiyi "Xeyriyyə cəmiyyəti" tərəfindən təsis olunub. Dini etiqadından və mənşəyindən asılı olmayaraq, bütün qızlara burada təhsil almaq imkanı yaradılmışdı. Tədris planına rus dili, hesab, ana dilində oxuma, yazma, hüsnxət, rəsm, rəsmxət, ümumi coğrafiya, tarix, ölkəşünaslıq daxil idi. Eyni zamanda, məktəbdə milli mahnılar öyrədilir, təbiət, tarix və fizikadan dərs verilirdi. Məktəbdə təhsil ödənişli olsa da, kasıb ailələrin övladları təhsil haqqından azad idilər. Əlavə təhsil haqqı verənlərə fransız və alman dilləri də tədris edilir, musiqi öyrədilirdi. Qızların rus dilində təhsilinə diqqəti artırmaq və xərcin bir qismini xəzinədən ödəmək şərti ilə Şuşa qız məktəbi 1894-cü ildə Şuşa Marinski qız məktəbi adını aldı və dördsinifli məktəbə çevrildi. Məktəb 120 şagirdlə fəaliyyətə başladı. Artıq 1895-1896-cı tədris ilində burada 147 qız təhsil alırdı. Bu məktəbin təşkili azərbaycanlı qızların da rus dilində təhsilinə şərait yaratmışdı. Şuşa Marinski qız məktəbi qadınların təhsili sahəsində, azərbaycanlı qızların dünyəvi təhsil almasında mühüm rol oynayıb. 1894-cü ildə Şuşada iki şəxsi qız məktəbinin əsasında Müqəddəs Mariya qız məktəbi yaradılmış, bununla da azərbaycanlı qızların Avropa təhsilinə yolları açılmışdı.

Qeyd edildi ki, bina sovet dövründə internat məktəbi kimi də fəaliyyət göstərib. Gələcəkdə buranın dekorativ tətbiqi sənət mərkəzi və mədəni sahələr üzrə inzibati bina kimi istifadə olunması planlaşdırılır.

# Pənahəli xan küçəsində həyata keçiriləcək layihələr



**Noyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondu tərəfindən Şuşada Pənahəli xan küçəsində yerləşən bir sıra binalarda həyata keçiriləcək bərpa və yenidənqurma layihələri ilə tanış olublar.**

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və birinci xanıma görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, Pənahəli xan küçəsindəki bir sıra binaların bərpası və yenidən qurulması yüksək səviyyədə həyata keçiriləcək.

# Peşə məktəbi və kollecin binaları ilə tanışlıq



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşa şəhərində peşə məktəbinin və kollecin binalarına baxış keçiriblər.**

Elm və Təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına və birinci xanıma görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, peşə məktəbi və kollec Şuşanın tarixi Hamamqabağı, Seyidli və Culfalar məhəllələrində yerləşir. Sovet dövründə həmin ərazidə keçmiş kənd təsərrüfatı texnikumu və onun yataqxanası yerləşirdi. Həmin ərazidə peşə məktəbi də tikilmişdi.

Prezident İlham Əliyev peşə məktəbinin və kollecin ərazisinə baxıb, tapşırıq və tövsiyələrini verib.

# Şuşa şəhəri 1 nömrəli tam orta məktəbin açılışı



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşa şəhəri 1 nömrəli tam orta məktəbin açılışında iştirak ediblər.**

Dövlətimizin başçısına və birinci xanıma məktəbdə yaradılan şərait barədə məlumat verildi.

Bildirildi ki, 960 şagird yerlik üçmərtəbəli bina beş blokdan ibarətdir. Burada hər biri 24 nəfərlik 40 sinif otağı, 2 fizika, 2 kimya, 2 biologiya, 2 texnologiya, 2 informatika otağı, STEAM mərkəzi, kitabxana, oxu zalı, gənclərin ibtidai hərbi hazırlığı, rəssamlıq və musiqi kabinetləri, yeməkxana, akt və idman zalları, tibb, müayinə və inzibati heyət üçün iş otaqları var. Məktəb üçün ayrılan ərazidə futbol meydançası və digər zəruri yardımçı binaların inşası yekunlaşıb.

Azərbaycan dövlətinin Qarabağda və Şərqi Zəngəzurda həyata keçirdiyi bərpa və yenidənqurma prosesi çərçivəsində müasir, innovasiyalara əsaslanan təhsil ocaqlarının qurulmasına xüsusi diqqət ayrılır. Şuşadakı 1 saylı orta məktəb bunun daha bir əyani təsdiqidir. Müasir tələblərə cavab verən yeni təhsil müəssisəsi Şuşanın bərpa səviyyəsi ilə uzlaşmaqla yanaşı, Böyük Qayıdış Proqramı çərçivəsində şəhərə qayıdacaq şagirdlərin ən qabaqcıl standartlara uyğun təhsil almasına xidmət edəcək.

Qeyd edək ki, ölkəmizin mədəniyyət paytaxtı Şuşa Azərbaycanın ictimai-siyasi həyatında özünəməxsus rol oynayıb. Azərbaycanın ictimai-siyasi fikir tarixində mühüm yer tutan bir sıra görkəmli şəxsiyyətlər, maarifçi ziyalılar məhz Şuşada doğulub boya-başa çatıblar. Həmin şəxslər Şuşada fəaliyyət göstərən, dövrün qabaqcıl təhsil müəssisələrinin yetirmələri idilər. Belə ki, Şuşada fəaliyyət göstərən xəttatlıq, teatr, musiqi, vokal, eləcə də ilk qızlar, rus-tatar məktəbləri, qızlar seminariyası, realnı məktəb yerli əhalinin intellektual səviyyəsini, dünyagörüşünü inkişaf etdirməyə, şəhərin ziyalı səviyyəsini qoruyub saxlamağa imkan verdi. Şuşada 1 saylı tam orta məktəbin inşası da məhz bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Belə ki, məktəbin inşası bu qədim şəhərin təhsil mərkəzi şöhrətinin qaytarılması missiyasına xidmət edən növbəti addımdır.

# Mamayı məscidində aparılan bərpa işləri ilə tanışlıq



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşada Heydər Əliyev Fondu tərəfindən Mamayı məscidində aparılan bərpa işləri ilə tanış olublar.**

Dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, bu məscid Şuşa şəhərinin mərkəzi hissəsində yerləşən Mamayı məhəlləsində XIX əsrin sonlarında Kərbəlayi Səfixan Qarabaği tərəfindən inşa edilib. Düzbucaqlı quruluşu olan ikimərtəbəli məscidin sütunlu ingteryeri var.

Məhəllə məscidləri kimi Mamayı məscidinin də damında azan vermək üçün taxtadan güldəstə quraşdırılıb. Burada da məscid, bulaq, kiçik meydan, hamam olub. Lakin işğal zamanı onlar da erməni vandalizminə məruz qalıb. Sovet hakimiyyəti illərində isə Mamayı məscidi poeziya evi kimi fəaliyyət göstərib.

Hazırda məscidə "PAŞA Holding"in dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən bərpa işləri həyata keçirilir.

Qeyd olundu ki, bərpa işləri Mamayı bulağını da əhatə edir. Vaxtilə Mamayı məhəlləsindəki bulağın yuxarı hissəsində kitabə olub. Kitabədə bulağın 1900-cu ildə Səməd ağa Cavanşir tərəfindən tikildiyi yazılmışdır. Ermənilər Şuşanı işğal altında saxladığı dövrdə şəhərdəki bir çox abidələr kimi Mamayı bulağını da erməniləşdirməyə çalışıblar. Bulağın üzərindəki yazılar silinib və yerinə xaç işarəsi həkk olunub. Bundan başqa, ermənilər saxtakarlıq edərək bulağın daşlarının üzərinə erməni və rus dillərində yazılmış lövhə də həkk ediblər. Aparılacaq işlər zamanı Mamayı məscidinin və bulağın tarixi görkəmi bərpa olunaraq istifadəyə veriləcək.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Heydər Əliyev Fondu tərəfindən Çöl Qala məscidində və bulağında aparılan bərpa işləri barədə də məlumat verildi.

Bildirildi ki, Çöl Qala məscidi XIX əsrdə Şuşa şəhərində fəaliyyət göstərən 17 məsciddən biri olub. Məscid XIX əsrdə Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikdirilib. Məscid minarəsiz formada inşa edilib. Onun forması Şuşa şəhərinin əksər məscidləri kimi düzbucaqlı olub. Məscidin ümumi girişi asimmetrik şəkildə düzülmüş əsas fasaddan ibarət olub. İbadət ocağının interyeri tamamilə İslam memarlığına uyğundur. Məscidin daxili hissəsi dörd ədəd səkkizguşəli daş sütunla bəzədilib. Bu sütunlar ümumi ibadət zalını üç hissəyə ayırır.

Məscidin taleyi Şuşa şəhəri 1992-ci ilin mayında Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildikdən sonra şəhərin digər tarixi abidələri kimi olub və bu dini-tarixi abidəmiz də dağıdılaraq talan edilib.

Çöl Qala məscidinin yaxınlığında məscidin üslubunda tikilən XIX əsrə aid Çöl Qala bulağı yerləşir. Şuşa şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən işğal ediləndən sonra bulaq da dağıdılıb, daş kitabələri də məhv edilib.

# Prezident İlham Əliyev və Mehriban Əliyeva İsa bulağında




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşada İsa bulağında olublar.**

Dövlətimizin başçısına və birinci xanıma İsa bulağının ətrafında görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, Şuşa şəhərindən 4 kilometr məsafədə, dəniz səviyyəsindən təqribən 1300 metr hündürlükdə, meşədə yerləşən İsa bulağı Azərbaycan təbiətinin nadir incilərindən hesab olunur. Bu hidronim haqqında yerli əhalinin məlumatına görə, bulaq XVIII əsrdə ilk dəfə onu qalın meşəlikdə üzə çıxarmış İsa adlı əkinçinin adını daşıyır.

Məlumat verildi ki, Vətən müharibəsindən sonra İsa bulağı Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi tərəfindən tamamilə bərpa edilib. Bulağın özü mərmərdən hazırlanıb, "İsa bulağı" sözü isə milli ornamentlə yazılıb. Bulağın su təminatı da tam bərpa olunub. İsa bulağı Azərbaycanın, Qarabağın ən məşhur istirahət yerlərindən biri hesab olunur. Görülən işlər İsa bulağının əvvəlki şöhrətinin qısa müddətdə bərpasına şərait yaradacaq.

***AZƏRTAC***

# Prezident İlham Əliyev 8 Noyabr – Zəfər Günü münasibətilə paylaşım edib




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 8 Noyabr – Zəfər Günü münasibətilə rəsmi sosial şəbəkə hesablarında foto paylaşıb.

# Əli Əsədovun Avropa Voleybol Konfederasiyasının və Türkiyə Voleybol Federasiyasının prezidentləri ilə görüşü

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov noyabrın 7-də Avropa Voleybol Konfederasiyasının prezidenti Aleksandar Boriçiçin rəhbərlik etdiyi nümayəndə heyəti və Türkiyə Voleybol Federasiyasının prezidenti Akif Üstündağ ilə görüşüb.**



Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə Avropa Voleybol Konfederasiyasının rəhbərliyinin və Türkiyə Voleybol Federasiyası prezidentinin voleybol üzrə növbəti Azərbaycan çempionatının rəsmi açılış mərasimində iştirakı yüksək qiymətləndirilib.

Azərbaycanda idmanın inkişafı məqsədilə həyata keçirilən ardıcıl tədbirlər barədə danışan Ə.Əsədov idmançıların yüksək dövlət qayğısı ilə əhatə olunduğunu, ölkədə müasir idman infrastrukturunun yaradıldığını bildirib. Qeyd edilib ki, bütün bunlar idmançılarımızın beynəlxalq turnirlərdə uğur qazanmalarında müstəsna rol oynayıb.

Bu gün voleybolun Azərbaycanda ən populyar idman növlərindən biri olduğu bildirilərək, dövlət tərəfindən onun inkişafına və kütləviləşməsinə böyük diqqət yetirildiyi qeyd edilib.

Azərbaycan dövlətinin voleybolun inkişafına dəstəyini bundan sonra da davam etdirəcəyi diqqətə çatdırılıb.

Vurğulanıb ki, Azərbaycan Voleybol Federasiyası beynəlxalq təşkilatlar, xüsusilə də Avropa Voleybol Konfederasiyası, həmçinin Türkiyə Voleybol Federasiyası ilə daxil olmaqla, digər xarici tərəfdaşlarla əməkdaşlığı davam etdirmək əzmindədir.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub.

Görüşdə Azərbaycan Voleybol Federasiyasının prezidenti Şahin Bağırov iştirak edib.

***XQ***

# Nazirlər Kabinetində iclas

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2022-ci il 22 iyul tarixli Sərəncamı ilə təsdiq olunan "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın həyata keçirilməsi ilə bağlı görülən işlər və tədbirlərin icra vəziyyəti barədə ildə 2 dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumatın verilməsi Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılıb.**



Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, noyabrın 6–7-də Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədovun rəhbərliyi ilə "Strategiya"da nəzərdə tutulan tədbirlərin icrasının nəticələri haqqında iclas keçirilib. İclasda "Strategiya"nın məqsədləri üçün yaradılan 8 İşçi qrupun üzvləri və əsas icraçı olan aidiyyəti dövlət qurumlarının rəhbərlərinin müavinləri iştirak ediblər.

İclasda "Strategiya"da nəzərdə tutulmuş tədbirlərin icrası üzrə işlərin gedişinə nəzarətin birbaşa operativ, vaxtında və effektiv təmini məqsədilə yaradılmış çoxfunksional rəqəmsal platformanın Elektron Portalın təqdimatı (azerbaijan2030.gov.az) keçirilib, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı "Strategiya" qəbul olunandan sonra, o cümlədən, 2023-cü ilin birinci yarımilliyi üzrə "Strategiya"nın icrası istiqamətində aparılmış monitorinqin nəticələri barədə hazırlanmış hesabatla çıxış edib və ətraflı müzakirələr aparılıb.

Tədbirin yekununda "Strategiya"da nəzərdə tutulan tədbirlərin icrası prosesində qarşıya çıxan çətinliklərin həlli üçün aidiyyəti dövlət qurumlarına müvafiq tapşırıqlar verilib.

***XQ***

# Azərbaycan və Serbiya hökumətləri arasında saziş imzalanıb

**Dünən Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramovun Serbiyanın Baş nazirinin birinci müavini, xarici işlər naziri İvitsa arasında nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş keçirilib.**

Söhbətdə hər iki tərəf ölkələr arasında mövcud olan əməkdaşlığın müxtəlif sahələrini və strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi məqsəd və istiqamətləri hərtərəfli müzakirə ediblər. İki ölkə arasında qarşılıqlı inam və hörmətə əsaslanan münasibət çərçivəsində iki ölkənin suverenliyinə və ərazi bütövlüyünə verdiyi dəstək bir daha vurğulanıb.

Tərəflər qarşılıqlı yüksək səviyyəli səfərlərin, parlamentlərarası əlaqələrin, beynəlxalq təşkilatlar çərçivəsində faydalı qarşılıqlı fəaliyyətin, iqtisadi və mədəni əməkdaşlığın, o cümlədən enerji, yüksək texnologiyalar, nəqliyyat, humanitar, təhsil, turizm, alternativ enerji, əczaçılıq və digər sahələrdə əməkdaşlığın əhəmiyyətini vurğulayıblar. Azərbaycanın Şuşa şəhəri ilə Serbiyanın Noviy Bazar şəhərlərinin qardaşlaşmış şəhər təcrübəsinin digər şəhərlərimiz arasında da yaradılmasının vacib olduğu bildirilib.

Görüşdə Cənub Qaz Dəhlizi çərçivəsində ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi və TAP birləşdirici boru kəmərləri vasitəsilə Serbiya və Balkan regionuna təbii qazın nəqli imkanlarının araşdırılması məqsədilə başlanmış ikitərəfli məsləhətləşmələrin davam etdirilməsinin zəruriliyi vurğulanıb.

***XQ***

# Azərbaycan Respublikası Silahlı Qüvvələri hərbi qulluqçularının və Daxili İşlər Nazirliyi əməkdaşlarının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**
Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları və Daxili İşlər Nazirliyinin əməkdaşları təltif edilsinlər:

**“Qarabağ” ordeni ilə**

Həsənov Zakir Əsgər oğlu – general-polkovnik
Vəliyev Kərim Tofiq oğlu – general-polkovnik
Əfəndiyev Ənvər Zəkəriyyə oğlu – general-leytenant
Mirzəyev Hikmət İzzət oğlu – general-leytenant
Tahirov Ramiz Firudinoviç – general-leytenant

**“Azərbaycan Bayrağı” ordeni ilə**

Cavadov Fəxrəddin Nizam oğlu – polkovnik
Əliyev Rəsul Rasim oğlu – polkovnik
Omarov Barat Bayram oğlu – polkovnik
Ağamirov Samin Mirsahib oğlu – polkovnik-leytenant
Ağcayev Bayram İlyas oğlu – polkovnik-leytenant
Babayev Saqi Elxan oğlu – polkovnik-leytenant
Əmirov Zamiq Məhəmməd oğlu – polkovnik-leytenant
Qlinçev Anar Mirzəli oğlu – polkovnik-leytenant
Musayev Mərdan Ürfət oğlu – polkovnik-leytenant
Cəfərov Eltun Həsən oğlu – mayor
Əkbərov Aqil Fayəddin oğlu – mayor (ölümündən sonra)
Mirzəyev Amil Əlikram oğlu – mayor
Mirzəyev Gündüz Rauf oğlu – mayor
Rəşidli Tamerlan Elçin oğlu – mayor
Əliyev Xaqani Əlisurət oğlu – kapitan
Həmidli Həmid Əlisahib oğlu – kapitan (ölümündən sonra)
Həsənov Fərman Rafiq oğlu – kapitan
Qeybəliyev Elvin Ağalar oğlu – kapitan (ölümündən sonra)
Muradov Elvin Elçin oğlu – kapitan
Rzabəyli Eltürk Əli oğlu – kapitan
Rzayev Fərid Rasim oğlu – kapitan
Cəlilov Şahmar İlqar oğlu – baş leytenant
Fərmanlı Heydər Seyran oğlu – baş leytenant
Hümmətov Murad Fuad oğlu – baş leytenant
Şükürlü Cabir Cabbar oğlu – baş leytenant
Əliyev Xəzər Arzuman oğlu – kiçik leytenant
Nuri Ümid Mirzağa oğlu – gizir
Həsənov Kənan Vidadi oğlu – kiçik çavuş
Məhəmmədov Fərid Faiq oğlu – kiçik çavuş
Hüseynov Şəhriyar Şakir oğlu – əsgər

**2-ci dərəcəli “Rəşadət” ordeni ilə**

Məhərrəmov Aqşin Ramiz oğlu – general-mayor

**3-cü dərəcəli “Rəşadət” ordeni ilə**

Bərxudarov Mayis Şükür oğlu – general-leytenant
Verdiyev Elşən Ələkbər oğlu – general-leytenant
Babayev Münasib Balaca oğlu – general-mayor
Çompuzov Bilal İsmayıl oğlu – general-mayor
Eminov Məmməd Şəmil oğlu – general-mayor
Əmirağayev İslam Şixzadə oğlu – general-mayor
Kazımov Vasif Ramiz oğlu – general-mayor
Kərimov Anar Təvəkkül oğlu – general-mayor
Nəcəfov Hilal Əlimurad oğlu – general-mayor
Sultanov Ağamir Əzizxan oğlu – general-mayor
Sultanov Vüsal Eynulla oğlu – general-mayor
Abdullayev Oruc Mehralı oğlu – polkovnik
Cahangirov Ələkbər Məhəmməd oğlu – polkovnik
Qoçuyev Firdovsi Davud oğlu – polkovnik
Quliyev Anar Eldar oğlu – polkovnik
Quliyev Ümüdvar Əzizalı oğlu – polkovnik
Mirzəyev Nəsib Tahir oğlu – polkovnik
Rzayev Gülməmməd Tofiq oğlu – polkovnik
Camalov Ceyhun Fikrət oğlu – polkovnik-leytenant
Muradov Səməd Əli oğlu – polkovnik-leytenant
Babazadə İlyas Əhmədağa oğlu – mayor
Balakişiyev Elşən Süleyman oğlu – mayor
Hüseynov Bayram Habil oğlu – mayor
Mustafayev Amil Mustafa oğlu – mayor
Nəcəfi Elxan Şükür oğlu – mayor (ölümündən sonra)
Sadiqov İlkin Əkrəm oğlu – mayor
Tağıyev Tural İsmayıl oğlu – mayor
Cabbarlı Orxan Möhübbət oğlu – kapitan
Cəfərov Xəzər Qalib oğlu – kapitan (ölümündən sonra)
Kərimli Ziya Ələddin oğlu – kapitan
Məmmədli Cəlal Səyyaf oğlu – kapitan
Ocaqverdiyev Nihal Mehrac oğlu – kapitan
Paşayev Elnur Həvasət oğlu – kapitan
Cabbarlı Vüsal Cəmil oğlu – baş leytenant
Əliyev Ağarəşid Amil oğlu – baş leytenant
Əliyev Vəliyulla Elmanoviç – baş leytenant (ölümündən sonra)
Quliyev Ceyhun Rafiq oğlu – baş leytenant
Mirzəyev Cavid Azər oğlu – baş leytenant (ölümündən sonra)
Nəzərov Rahib Vaqif oğlu – baş leytenant
Orucov Niftalı Qəfər oğlu – baş leytenant (ölümündən sonra)
Salmanov Fəqan Rzalı oğlu – baş leytenant
Bayramov Davud Şamil oğlu – leytenant (ölümündən sonra)
Əyyubzadə Pərvin Asif oğlu – leytenant
Məmmədov Fizuli Bəhruz oğlu – leytenant (ölümündən sonra)
Məmmədov Tural Süleyman oğlu – leytenant (ölümündən sonra)
Zeynallı Rabil Əli oğlu – leytenant
Babazadə Əli Rüstəm oğlu – kiçik leytenant (ölümündən sonra)
Cahangirov Tural Qələmhüseyn oğlu – kiçik leytenant (ölümündən sonra)
Kələntərov Nuran Carulla oğlu – kiçik leytenant
Mirzəyev Fərid Namiq oğlu – kiçik leytenant (ölümündən sonra)
İbrahimov Rəsul Hafis oğlu – gizir
İsgəndərov Ümid Şirməmməd oğlu – gizir
İsmayılov Yunis Pənah oğlu – çavuş
Lalayev Ruslan Akif oğlu – kiçik çavuş (ölümündən sonra)
Adışlı Rafiq Rahil oğlu – əsgər

**2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə**

Tağıyev Niyaməddin Məhərrəm oğlu – general-leytenant
Məmmədrzayev Ruslan Amrullayeviç – polkovnik
Şirinov Azər Əliyusif oğlu – polkovnik
Ələkbərov Çingiz Ədil oğlu – polkovnik-leytenant
Mustafayev İlkin Aydın oğlu – polkovnik-leytenant
Quluzadə Nihat Qasım oğlu – baş leytenant (ölümündən sonra)

**3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə**

Əliyev Azər Əli oğlu – general-leytenant
Ələkbərov Babək Mürsəl oğlu – general-mayor
Əliverdiyev Vüqar Əfqan oğlu – general-mayor
Hüseynov Tofiq Vaqif oğlu – general-mayor
Qarayev Nicad Kamandar oğlu – general-mayor
Lətifov İlqar Zakir oğlu – general-mayor
Muradov İnqilab Heydər oğlu – general-mayor
Zeynalov Zaur İlham oğlu – general-mayor
Abdullayev Səbuhi Salam oğlu – polkovnik
Ağabalayev Kamran Hacıəli oğlu – polkovnik
Ağagülov Şəhriyar Etibar oğlu – polkovnik
Ağasiyev Ruslan Dünyaməddin oğlu – polkovnik
Dadaşov Bəhruz Bəxtiyar oğlu – polkovnik
Hacıyev Allahverdi Hacı oğlu – polkovnik
Hümbətov Emin Zakir oğlu – polkovnik
Hüseynov Telman Əsgər oğlu – polkovnik
İbrahimov Pərviz Bəhram oğlu – polkovnik
Qədirov Kamran Vaqif oğlu – polkovnik
Quliyev Elfan Şakir oğlu – polkovnik
Musayev Telman Qurban oğlu – polkovnik
Pirməmmədov Pərviz Tofik oğlu – polkovnik
Sanayev Elşən Tərlan oğlu – polkovnik
Səfərov Yaşar Rafiq oğlu – polkovnik
Səlimov Şamxal Naid oğlu – polkovnik
Şamilov Taleh Səməd oğlu – polkovnik
Abdulov Elnur Taməddin oğlu – polkovnik-leytenant
Abdurəhmanov Bəhruz Aydın oğlu – polkovnik-leytenant
Eminov Elimdar Həsən oğlu – polkovnik-leytenant
Əhmədov Cahid Ələkbər oğlu – polkovnik-leytenant
Əliyev Elgün Aqil oğlu – polkovnik-leytenant
Əliyev Ramiq Sirac oğlu – polkovnik-leytenant
Əliyev Zauri Ramis oğlu – polkovnik-leytenant
Əmrahov Rafiq Teymur oğlu – polkovnik-leytenant
Hüseynov Rəşad Rəhim oğlu – polkovnik-leytenant (ölümündən sonra)
İbrahimov İlkin Ələkbər oğlu – polkovnik-leytenant
Qarayev Cavidan Nazim oğlu – polkovnik-leytenant
Quluzadə Orxan Xalıqverdi oğlu – polkovnik-leytenant
Mustafayev İskəndər Osman oğlu – polkovnik-leytenant
Orucəliyev Vidadi İmaməli oğlu – polkovnik-leytenant
Rüstəmov Vüsal Rüstəm oğlu – polkovnik-leytenant (ölümündən sonra)
Şadmanov Əkrəm Yunus oğlu – polkovnik-leytenant (ölümündən sonra)
Babayev İbrahim Telman oğlu – mayor
Cəbrayılov Elmas Ələmdar oğlu – mayor
Dadaşov Elnur Bəxtiyar oğlu – mayor
Əliyev Elvin Taleh oğlu – mayor
Hacıyev Pərvin Aleksandr oğlu – mayor
Xamməmdov Eldar Həsən oğlu – mayor
İsmayılov Qasım Əhməd oğlu – mayor
Qasımov Sənan Fərman oğlu – mayor (ölümündən sonra)
Qasımov Vüqar İlqar oğlu – mayor
Nəcəfov Nahid Səfərəli oğlu – mayor
Rəhimov Elşən Nizami oğlu – mayor
Səmədov Xəyyam Mirazim oğlu – mayor (ölümündən sonra)
Şixnəbiyev Renat Güləmməd oğlu – mayor
Təhməzov Ceyhun Mirzəbaba oğlu – mayor
Balabəyli Elcan Vasif oğlu – kapitan (ölümündən sonra)
Eyvazov Vüqar Eyvaz oğlu – kapitan (ölümündən sonra)
Ələkbərli Oqtay Taleh oğlu – kapitan
Əliyev Elvin Gülməmməd oğlu – kapitan (ölümündən sonra)
Əmirov Turxan İbad oğlu – kapitan
Ənvərli Sahil Əli oğlu – kapitan
Güləhmədov Tərlan Təzəxan oğlu – kapitan
Hüseynov Vüqar İlqar oğlu – kapitan
Xələfli Ülvi Şahin oğlu – kapitan
İbrahimov Ramid Mubariz oğlu – kapitan
Kazımov Aqil Adil oğlu – kapitan
Qəmbərov Əmiralı Cəfəralı oğlu – kapitan
Məmmədov Tariyel Hamlet oğlu – kapitan
Nəbiyev Fərid Xudatoviç – kapitan
Nəcəfbəyli Ülvi Əjdər oğlu – kapitan
Sultanov Xəlfəli Böyükağa oğlu – kapitan (ölümündən sonra)
Abasov Ceyhun Vidadi oğlu – baş leytenant
Abbasov Ruslan Əbilfət oğlu – baş leytenant (ölümündən sonra)
Abbasov Zamin Xaqani oğlu – baş leytenant (ölümündən sonra)
Ağayev Rəsul Avtandil oğlu – baş leytenant
Allahverdiyev Əhliman Kamran oğlu – baş leytenant
Daşdəmirov Sahib Natiq oğlu – baş leytenant (ölümündən sonra)
Ədilzadə Ədil Rövşən oğlu – baş leytenant (ölümündən sonra)
Ələkbərov Ravil Rövşən oğlu – baş leytenant
Əliquliyev Vəli Göydəniz oğlu – baş leytenant
Əliyev Ariz Anar oğlu – baş leytenant
Əmiraslanov Məlik Hidayət oğlu – baş leytenant
Əmrahlı Rəqabət Eynullah oğlu – baş leytenant
Əsədov İnşalla Hüseyn oğlu – baş leytenant
Həsənov Kərəm Akif oğlu – baş leytenant (ölümündən sonra)
Həsənov Yusif Elşən oğlu – baş leytenant
İbrahimli Elçin Sadiq oğlu – baş leytenant (ölümündən sonra)
İsmayılov Tağıyar Elşad oğlu – baş leytenant
Qasımov İbrahim Malikəjdər oğlu – baş leytenant (ölümündən sonra)
Qənbərov Asim Yusif oğlu – baş leytenant
Məmmədov Taleh Arif oğlu – baş leytenant
Tağıyev Kənan İbrahim oğlu – baş leytenant
Yusifli Şəmistan Şükran oğlu – baş leytenant (ölümündən sonra)
Ağalı Pərviz Adibəy oğlu – leytenant
Bayramov Tapdıq Namiq oğlu – leytenant (ölümündən sonra)
Əliyev Şəhriyar Bəxtiyar oğlu – leytenant (ölümündən sonra)
İsayev İsmayıl Çərkəz oğlu – leytenant (ölümündən sonra)
Məmmədli Elxan Ələkbər oğlu – leytenant (ölümündən sonra)
Məmmədov Röyal Asif oğlu – leytenant (ölümündən sonra)
Mustafazadə Çərkəz Əvəz oğlu – leytenant
Səmədov Elçin Akif oğlu – leytenant (ölümündən sonra)
Yusibli Nofəl Yusib oğlu – leytenant (ölümündən sonra)
Bəkirov Rafiq Səlim oğlu – kiçik leytenant
Həmidli Mikayıl Vüqar oğlu – kiçik leytenant (ölümündən sonra)
İsmayılov Vüqar Məmmədqasım oğlu – kiçik leytenant (ölümündən sonra)
Qasımov Qərib Şahbaz oğlu – kiçik leytenant (ölümündən sonra)
İbrahimov Elnur Səxavət oğlu – baş gizir (ölümündən sonra)
Məmmədov Səxavət Tərlan oğlu – baş gizir
Abbaszadə Emin Faiq oğlu – gizir (ölümündən sonra)
Abdullayev Cavid Hüseyn oğlu – gizir
Bayramov İxtiyar Bayram oğlu – gizir (ölümündən sonra)
Bilalov Sərxan İsmət oğlu – gizir (ölümündən sonra)
Cəfərov Oleq Qılıç oğlu – gizir (ölümündən sonra)
Əhmədov Elvin Qələndər oğlu – gizir (ölümündən sonra)
Əhmədov Vüsal İlqar oğlu – gizir (ölümündən sonra)
Əliyev Elməddin Dövlət oğlu – gizir (ölümündən sonra)
Həsənov Şamil Şiraslan oğlu – gizir (ölümündən sonra)
Hüseynov Məhərrəm Ələşrəf oğlu – gizir (ölümündən sonra)
Xanəliyev İsmayıl Ziyad oğlu – gizir (ölümündən sonra)
Xəlilov Yusif Məmmədrza oğlu – gizir (ölümündən sonra)
İsmayılov Xəyyam Arif oğlu – gizir
Qədirov Cahangir Səfərəli oğlu – gizir
Quliyev Nəcməddin Natiq oğlu – gizir (ölümündən sonra)
Museyibli İsgəndər Qənbər oğlu – gizir (ölümündən sonra)
Mustafayev Hüseyn Əli oğlu – gizir (ölümündən sonra)
Rəcəbov Vaqif Yaqub oğlu – gizir (ölümündən sonra)
Rəhimov Ramil Sucəddin oğlu – gizir (ölümündən sonra)
Şabıyev Seymur Sabir oğlu – gizir (ölümündən sonra)
Şəmşiyev İlham Şakir oğlu – gizir (ölümündən sonra)
Şixəliyev Ceyhun Oktay oğlu – gizir (ölümündən sonra)
Şirməmmədov Rusif Ramiz oğlu – gizir
Şükürlü Xalid Alişan oğlu – gizir
Tağıyev Əli Azad oğlu – gizir (ölümündən sonra)
Teymurov Rəsul Yusif oğlu – gizir (ölümündən sonra)
Zeynallı Rəşid Mədət oğlu – gizir (ölümündən sonra)
Əhmədov Rizvan Niyazı oğlu – kiçik gizir (ölümündən sonra)
Hüseynov Ramin Rövşən oğlu – baş çavuş (ölümündən sonra)
Hüseynov Şikar Hüseyn oğlu – baş çavuş (ölümündən sonra)
Ağaşirinov Baloğlan Şahin oğlu – çavuş
Əlibəyov Əlibəy Mirkərim oğlu – çavuş (ölümündən sonra)
Əliyev Vidadi Rizvan oğlu – çavuş
Əliyev Zahir Sədi oğlu – çavuş (ölümündən sonra)
Həsənov Həsən Zabit oğlu – çavuş (ölümündən sonra)
İmamaliyev Etibar Hicran oğlu – çavuş (ölümündən sonra)
Qədirov Amid Qurban oğlu – çavuş (ölümündən sonra)
Rəsulov Nurəddin Akif oğlu – çavuş (ölümündən sonra)
Rüstəmli Bəhruz Malik oğlu – çavuş (ölümündən sonra)
Sumbatzadə Vüsal Barat oğlu – çavuş (ölümündən sonra)
Abdullayev Asim Cavanşir oğlu – kiçik çavuş (ölümündən sonra)
Ağcabəyov Tural Təbriz oğlu – kiçik çavuş (ölümündən sonra)
Cəfərov Mahir Asif oğlu – kiçik çavuş (ölümündən sonra)
Əhmədov Vilayət Dilafət oğlu – kiçik çavuş (ölümündən sonra)
Əhmədov Yusif Ələsgər oğlu – kiçik çavuş (ölümündən sonra)
Əliyev İlham Həmzağa oğlu – kiçik çavuş
Əliyev Ramil Şakir oğlu – kiçik çavuş (ölümündən sonra)
Əliyev Toğrul İlyas oğlu – kiçik çavuş (ölümündən sonra)
Qarayev Elmin Rafət oğlu – kiçik çavuş (ölümündən sonra)
Qəhrəmanov Əlimərdan Səməd oğlu – kiçik çavuş (ölümündən sonra)
Mehdiyev Süleyman Mənsur oğlu – kiçik çavuş (ölümündən sonra)
Məmmədov Samir Məmməd oğlu – kiçik çavuş (ölümündən sonra)
Məmmədzadə Fazil Səyyar oğlu – kiçik çavuş
Mirzəzadə Mirzəəli Kamran oğlu – kiçik çavuş (ölümündən sonra)
Nadirli Elvin Yurik oğlu – kiçik çavuş (ölümündən sonra)
Nurməhəmmədov Ramazan Nurəhmədoviç – kiçik çavuş (ölümündən sonra)
Soltanbəyli Tamerlan İmran oğlu – kiçik çavuş (ölümündən sonra)
Vahabov Vüsal İbrahim oğlu – kiçik çavuş
Səfiyev Allahverdi Səfi oğlu – baş əsgər (ölümündən sonra)
Abbasov Mehti Əmrah oğlu – əsgər (ölümündən sonra)
Abuşov Habil Qulam oğlu – əsgər (ölümündən sonra)
Ağaxanov Osman Qədim oğlu – əsgər (ölümündən sonra)
Ağayev Ceyhun Etibar oğlu – əsgər (ölümündən sonra)
Ağayev Kənan Vahid oğlu – əsgər (ölümündən sonra)
Axundov Murad Xidir oğlu – əsgər (ölümündən sonra)
Alıyev Fərid Tofiq oğlu – əsgər (ölümündən sonra)
Arzullayev Murad Təvəkkül oğlu – əsgər (ölümündən sonra)
Aslanov Sahil Əhliman oğlu – əsgər (ölümündən sonra)
Babaşov Ucal Nərbala oğlu – əsgər (ölümündən sonra)
Babayev Sahil Sarıbala oğlu – əsgər (ölümündən sonra)
Beydiyev Röyal Nəsib oğlu – əsgər (ölümündən sonra)
Bədəlov Oruc Arif oğlu – əsgər (ölümündən sonra)
Canbaxışov Xəyal Xeyrulla oğlu – əsgər (ölümündən sonra)
Cəfərov Elşad Malik oğlu – əsgər (ölümündən sonra)
Cəfərov Rəvan Məhəmmədəli oğlu – əsgər (ölümündən sonra)
Cəlilov Devid Raufoviç – əsgər (ölümündən sonra)
Dünyamalıyev İslam Teymur oğlu – əsgər (ölümündən sonra)
Dünyamalıyev Rüstəm Nərman oğlu – əsgər (ölümündən sonra)
Eynəliyev Samrad İkram oğlu – əsgər (ölümündən sonra)
Eyyubov Murad Bəxtiyar oğlu – əsgər (ölümündən sonra)
Əhədov Eltac Əjdər oğlu – əsgər (ölümündən sonra)
Əkbərov Şahid Natiq oğlu – əsgər (ölümündən sonra)
Ələkbərov Ramal Elnur oğlu – əsgər (ölümündən sonra)
Ələmmədov Xanbaba Ceyhun oğlu – əsgər (ölümündən sonra)
Əlişanov Ağami Mehman oğlu – əsgər (ölümündən sonra)
Əliyev Altun Tağı oğlu – əsgər (ölümündən sonra)
Əliyev Cavid Ceyhun oğlu – əsgər (ölümündən sonra)
Əliyev Orxan Eldar oğlu – əsgər (ölümündən sonra)
Əliyev Səbuhi Tahir oğlu – əsgər (ölümündən sonra)
Əliyev Sərxan Rabil oğlu – əsgər (ölümündən sonra)
Əliyev Talıb Elman oğlu – əsgər (ölümündən sonra)
Əlizadə Tuncay Nicad oğlu – əsgər (ölümündən sonra)
Əmirov Tural Mətləb oğlu – əsgər (ölümündən sonra)
Əsədov Əlibala Əli oğlu – əsgər (ölümündən sonra)
Əzizalıyev Seymur Teyyub oğlu – əsgər (ölümündən sonra)
Fətizadə Fəti Ağamoğlan oğlu – əsgər (ölümündən sonra)
Heybətov Serqey Ramin oğlu – əsgər (ölümündən sonra)
Həmidov Şamxal Musa oğlu – əsgər (ölümündən sonra)
Həsənli Ərzulla Mübariz oğlu – əsgər (ölümündən sonra)
Həsənov Amin İlqar oğlu – əsgər (ölümündən sonra)
Həsənov Emral Vüqar oğlu – əsgər (ölümündən sonra)
Hüseynov Məhəmməd Şəfahət oğlu – əsgər (ölümündən sonra)
Hüseynov Səbuhi Məhbub oğlu – əsgər (ölümündən sonra)
Hüseynzadə Mirmusa Vüqar oğlu – əsgər (ölümündən sonra)
Hüseynzadə Ramazan Həmdulla oğlu – əsgər (ölümündən sonra)
Xankişiyev Elşən Elşad oğlu – əsgər (ölümündən sonra)
Xanməmmədov Hüseyn Mayis oğlu – əsgər (ölümündən sonra)
Xələfov Tapdıq Vidadi oğlu – əsgər (ölümündən sonra)
Xəlilli Məhəmməd İlqar oğlu – əsgər (ölümündən sonra)
İdrisov Bəxtiyar İxtiyar oğlu – əsgər (ölümündən sonra)
İskəndərov Murad Əlağa oğlu – əsgər (ölümündən sonra)
İsmiyev Zeynal Mustafa oğlu – əsgər (ölümündən sonra)
Kəlbiyev Əkrəm Faiq oğlu – əsgər (ölümündən sonra)
Kərimov Elnur Adil oğlu – əsgər (ölümündən sonra)
Köklərov Sərxan Eyvaz oğlu – əsgər (ölümündən sonra)
Qafarov Savalan İsfəndiyar oğlu – əsgər (ölümündən sonra)
Qarayev İlkin Yusif oğlu – əsgər (ölümündən sonra)
Qardaşzadə Elsevər Rakif oğlu – əsgər (ölümündən sonra)
Qasımlı Nicat Elşən oğlu – əsgər (ölümündən sonra)
Qasımov Cahan Xəqani oğlu – əsgər (ölümündən sonra)
Qasımov Hacıəli Tahir oğlu – əsgər
Qasımov Kamal Hüseyn oğlu – əsgər (ölümündən sonra)
Qasımzadə İnqlab Füzuli oğlu – əsgər (ölümündən sonra)
Qayibov Elvin İkram oğlu – əsgər (ölümündən sonra)
Qəhrəmanov Sadiq Sakit oğlu – əsgər (ölümündən sonra)
Qəhrəmanov Sənan Nəsimi oğlu – əsgər (ölümündən sonra)
Qiyaslı Davud Telman oğlu – matros (ölümündən sonra)
Lətifov Elməddin Qabil oğlu – əsgər (ölümündən sonra)
Manafov Qiyas Ramil oğlu – əsgər (ölümündən sonra)
Mehdizadə Mirpaşa Yaqub oğlu – əsgər (ölümündən sonra)
Mehtiyev Şəhriyar Mübariz oğlu – əsgər (ölümündən sonra)
Məhərrəmov Cavad Sadiq oğlu – əsgər (ölümündən sonra)
Məhərrəmov Mayis Füzuli oğlu – əsgər (ölümündən sonra)
Məmmədəliyev Niyazi Samir oğlu – əsgər (ölümündən sonra)
Məmmədhəsənov Qasim Bilal oğlu – əsgər (ölümündən sonra)
Məmmədov Azər Sulduz oğlu – əsgər (ölümündən sonra)
Məmmədov Eltun Vüqar oğlu – əsgər (ölümündən sonra)
Məmmədov Ramil Habil oğlu – matros (ölümündən sonra)
Məmmədov Samir Aqil oğlu – əsgər (ölümündən sonra)
Mikayılov Ülvi Bəhruz oğlu – əsgər (ölümündən sonra)
Miriyev Mirismayıl Kamil oğlu – əsgər
Mirzəyev Əlmirzə Ağamirzə oğlu – əsgər (ölümündən sonra)
Mirzəyev Sənan Vüqar oğlu – əsgər (ölümündən sonra)
Mustafayev Nihat Asəf oğlu – əsgər (ölümündən sonra)
Mustafazadə Vəli Ceyhun oğlu – əsgər (ölümündən sonra)
Nəbiyev Fərid Kamran oğlu – əsgər (ölümündən sonra)
Nəsibov Aqşin Vasif oğlu – əsgər (ölümündən sonra)
Nəsibov Hüseyn Əfqan oğlu – əsgər (ölümündən sonra)
Nəzərli Nicat Mubariz oğlu – əsgər (ölümündən sonra)
Novruzzadə Hüseyn Faiq oğlu – əsgər (ölümündən sonra)
Orucov Dağbəyi Sabay oğlu – əsgər (ölümündən sonra)
Orucov Musa Elmar oğlu – əsgər
Rzayev İqbal İlham oğlu – əsgər (ölümündən sonra)
Rzayev Ramil Elçin oğlu – əsgər (ölümündən sonra)
Sadıqov Ceyhun Niyaməddin oğlu – əsgər (ölümündən sonra)
Sadıqov Neman Bəhrəm oğlu – əsgər (ölümündən sonra)
Sadıqov Samir Cəbrayıl oğlu – əsgər (ölümündən sonra)
Salmanov Elçin Habil oğlu – əsgər (ölümündən sonra)
Seyidov Tural İslam oğlu – əsgər (ölümündən sonra)
Səfərov Cavid Rövşən oğlu – əsgər (ölümündən sonra)
Səfərov Gökhan İlqar oğlu – əsgər (ölümündən sonra)
Səmədov Camal Vüqar oğlu – əsgər (ölümündən sonra)
Süleymanlı Nail Səfər oğlu – əsgər (ölümündən sonra)
Süleymanov Elmət Rafiq oğlu – əsgər (ölümündən sonra)
Süleymanov Elşad Məmməd oğlu – əsgər (ölümündən sonra)
Şəhriyarov Vüsal Təbiyyət oğlu – əsgər (ölümündən sonra)
Tağızadə Cahangir Qurban oğlu – matros (ölümündən sonra)
Tanırverdiyev Amil Elşən oğlu – əsgər (ölümündən sonra)
Təhməzov Mirəli Mirfəttah oğlu – əsgər (ölümündən sonra)
Vəlizadə Rəşad Elşən oğlu – əsgər (ölümündən sonra)
Vəlizadə Rəşad Rasim oğlu – əsgər (ölümündən sonra)
Yunusov Eltun Cavanşir oğlu – əsgər (ölümündən sonra)
Zamanlı Əhməd Azad oğlu – əsgər (ölümündən sonra)
Ziyadov Cəsarət Zaur oğlu – əsgər (ölümündən sonra)
Zülfüqarov Cavid Cavanşir oğlu – əsgər (ölümündən sonra)

**“Vətən uğrunda” medalı ilə**

Yəhyayev Eldəniz Telman oğlu – general-mayor
Abdullayev Eldəniz İkram oğlu – polkovnik
Abdullayev Vüqar Arif oğlu – polkovnik
Babayev İlkin Paşa oğlu – polkovnik
Bədəlov Firuz Əhməd oğlu – polkovnik
Cəfərov Rauf Xalıqverdi oğlu – polkovnik
Dərgahlı Vaqif Rafiq oğlu – polkovnik
Eyvazov Anar Məhəmmədəli oğlu – polkovnik
Əbilov Elşad İbrahim oğlu – polkovnik
Əzizov Firudin Novruz oğlu – polkovnik
Həsənov Ramil Adil oğlu – polkovnik
Quliyev Çingiz Dəmir oğlu – tibb xidməti polkovniki
Quliyev Zahir Özbək oğlu – polkovnik
Məmiyev Qorxmaz Məzahim oğlu – polkovnik
Məmmədov Ceyhun Şöhrət oğlu – polkovnik
Məmmədov Əliyusif Bahadur oğlu – polkovnik
Məşədiyev Taleh Vəliyyət oğlu – polkovnik
Mirzəyev Sergey Zakir oğlu – polkovnik
Mustafayev Zaur Umud oğlu – polkovnik
Nastakalov Adil Ramazan oğlu – polkovnik
Nəsirli Anar Abdulla oğlu – polkovnik
Salmanov Elşən İskəndər oğlu – polkovnik
Şirinov Rauf Nəriman oğlu – polkovnik
Şükürov Ramil Əlibala oğlu – polkovnik
Tağıyev Elbrus Qabil oğlu – polkovnik
Adilov İltimas Qasım oğlu – polkovnik-leytenant
Babayev Aqşin Əli oğlu – polkovnik-leytenant
Babayev Mahir Tahir oğlu – polkovnik-leytenant
Balaliyev Natiq Xanbaba oğlu – polkovnik-leytenant
Çələbiyev Rauf Fəxrəddin oğlu – polkovnik-leytenant
Əzizov Ceyhun Azər oğlu – polkovnik-leytenant
Həsənov Rauf Maarif oğlu – polkovnik-leytenant
Hüseynov Mirzə Talıb oğlu – polkovnik-leytenant
Hüseynov Rəşad Rəhim oğlu – polkovnik-leytenant (ölümündən sonra)
Kamalov Emil Fəxrəddin oğlu – polkovnik-leytenant
Quliyev Vüsal Mahir oğlu – polkovnik-leytenant
Məhərrəmov Nicat Cəmaləddin oğlu – polkovnik-leytenant
Məmmədov Zaur Möhübbət oğlu – polkovnik-leytenant
Osmanov Vasif Ramiz oğlu – polkovnik-leytenant
Rüstəmov Vüsal Rüstəm oğlu – polkovnik-leytenant (ölümündən sonra)
Səfərov Rauf Ənvər oğlu – polkovnik-leytenant
Şadmanov Əkrəm Yunus oğlu – polkovnik-leytenant (ölümündən sonra)
Tağıyev Vüqar Şükür oğlu – polkovnik-leytenant
Abbasov Tural Namik oğlu – mayor
Aslanov Elmin Məhərrəm oğlu – mayor
Behbudov Nicat Akif oğlu – mayor
Əkbərov Aqil Fayəddin oğlu – mayor (ölümündən sonra)
Gülüyev Zaur Rusxat oğlu – mayor
Həsənov Atakişi İmamqulu oğlu – mayor
Həşimzadə Vüsal Rufulla oğlu – mayor
Hüseynov Emil Əli oğlu – mayor
Xəmmədov Vüsal Bayram oğlu – mayor
Qasımov Sənan Fərman oğlu – mayor (ölümündən sonra)
Qələndarlı Məhəmməd Eldar oğlu – mayor
Qurbanov İxtiyar Mətləb oğlu – mayor
Mehdiyev Rəhim Hüseyn oğlu – mayor
Mirəli Mirismayıl Novruz oğlu – mayor
Misirov Şaiq Misir oğlu – mayor
Nəcəfi Elxan Şükür oğlu – mayor (ölümündən sonra)
Ramazanov Ceyhun Sərvər oğlu – mayor
Rzayev Sərdar Nurəddin oğlu – mayor
Səmədov Xəyyam Mirazim oğlu – mayor (ölümündən sonra)
Şirinov Elnur Ramiz oğlu – mayor
Allahyar Nəsrəddin oğlu – kapitan
Cəfərov Xəzər Qalib oğlu – kapitan (ölümündən sonra)
Eyvazov Vüqar Eyvaz oğlu – kapitan (ölümündən sonra)
Əliyev Elvin Gülməmməd oğlu – kapitan (ölümündən sonra)
Əzimli Xalid Yavər oğlu – kapitan
Həmidli Həmid Əlisahib oğlu – kapitan (ölümündən sonra)
Həsənov Hüseyn Həsən oğlu – kapitan
Həsənzadə Araz Ayaz oğlu – kapitan
Hüseynov Rəsul Əkrəm oğlu – kapitan
Qeybəliyev Elvin Ağalar oğlu – kapitan (ölümündən sonra)
Qurbanlı Mehdi Akif oğlu – kapitan
Məmmədli Ceyhun Sadıq oğlu – tibb xidməti kapitanı
Məmmədov Cavid Yusif oğlu – kapitan
Məmmədov Məmməd İlham oğlu – kapitan
Nəcəfli Nəcəf Mustafa oğlu – kapitan
Sultanov Xəlfəli Böyükağa oğlu – kapitan (ölümündən sonra)
Yazlarlı Məhəmməd Fərman oğlu – kapitan
Abbasov Ruslan Əbilfət oğlu – baş leytenant (ölümündən sonra)
Abbasov Zamin Xaqani oğlu – baş leytenant (ölümündən sonra)
Cəfərov Rasim Rza oğlu – baş leytenant
Daşdəmirov Sahib Natiq oğlu – baş leytenant (ölümündən sonra)
Ədilzadə Ədil Rövşən oğlu – baş leytenant (ölümündən sonra)
Əhədov Natiq Nazim oğlu – baş leytenant
Əhmədov Ravil Abdulla oğlu – baş leytenant
Əhmədzadə Əhməd Telman oğlu – baş leytenant
Əliyev Vəliyulla Elmanoviç – baş leytenant (ölümündən sonra)
Əlizadə Onur Nizami oğlu – baş leytenant
Hacıyev Elnur Qurban oğlu – tibb xidməti baş leytenantı
Həsənli Turan Məhəmməd oğlu – baş leytenant
Həsənov Emil Yusif oğlu – baş leytenant
Həsənov Kərəm Akif oğlu – baş leytenant (ölümündən sonra)
İbrahimli Elçin Sadiq oğlu – baş leytenant (ölümündən sonra)
Kərimli Rafiz Atamalı oğlu – baş leytenant
Qasımov İbrahim Malikəjdər oğlu – baş leytenant (ölümündən sonra)
Qocayev Emin Mübariz oğlu – baş leytenant
Quluzadə Nihat Qasım oğlu – baş leytenant (ölümündən sonra)
Qurbanov Əliskəndər Mahir oğlu – baş leytenant
Məmmədov Elnur Eldəniz oğlu – baş leytenant
Mirzəyev Cavid Azər oğlu – baş leytenant (ölümündən sonra)
Mövlamov Sabir Rasim oğlu – baş leytenant
Nuriyev Əliqismət Vahid oğlu – baş leytenant
Orucov Niftalı Qəfər oğlu – baş leytenant (ölümündən sonra)
Rizayev İlçin Telman oğlu – baş leytenant
Sofiyev Orxan Vüsal oğlu – baş leytenant
Vəliyev Fərid Azər oğlu – baş leytenant
Yusifli Şəmistan Şükran oğlu – baş leytenant (ölümündən sonra)

*(ardı 5-ci səhifədə)*

# Azərbaycan Respublikası Silahlı Qüvvələri hərbi qulluqçularının və Daxili İşlər Nazirliyi əməkdaşlarının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**(əvvəli 4-cü səhifədə)**

Abbasəliyev Vüsal Azər oğlu – leytenant
Balakişiyev Akşin Həkim oğlu – tibb xidməti leytenantı
Bayramov Davud Şamil oğlu – leytenant (ölümündən sonra)
Bayramov Tapdıq Namiq oğlu – leytenant (ölümündən sonra)
Əliyev Şəhriyar Bəxtiyar oğlu – leytenant (ölümündən sonra)
Əzizov Vüqar Malik oğlu – leytenant
Hacızadə Elməddin Bəhram oğlu – leytenant
İsayev İsmayıl Çərkəz oğlu – leytenant (ölümündən sonra)
Quliyev Piray Rəhman oğlu – leytenant
Qurbanov Vurğun Allahverdi oğlu – leytenant
Məmmədli Elxan Ələkbər oğlu – leytenant (ölümündən sonra)
Məmmədov Çətin Ramiq oğlu – leytenant
Məmmədov Fizuli Bəhruz oğlu – leytenant (ölümündən sonra)
Məmmədov Röyal Asif oğlu – leytenant (ölümündən sonra)
Məmmədov Tural Süleyman oğlu – leytenant (ölümündən sonra)
Muradov Samir Cəmşid oğlu – leytenant
Mustafayev İnqilab Aydın oğlu – leytenant
Səmədov Elçin Akif oğlu – leytenant (ölümündən sonra)
Yusibli Nofəl Yusib oğlu – leytenant (ölümündən sonra)
***Misir Helvan Universitetinin professoru, Misir Mədəniyyət Mərkəzinin Azərbaycan Respublikasındakı keçmiş direktoru,***
***Bağdadi İMAM,***
***Misir Ərəb Respublikası Ali Təhsil Nazirliyinin Baş direktoru,***
***Tövhid MƏHƏMMƏD,***
***müşavir, vəkil, Misir əl-Xeyir Fondunun hüquqi işlər üzrə direktoru,***
***Midhət CAMAL,***
***general, Misir əl-Xeyir Fondunda “İbn əs-Səbil” layihəsinin rəhbəri, Sabir HƏSƏN,***
***Ali Mədəniyyət Şurasının üzvü,***
***Mona ZİDAN,***
***Helvan Universitetinin professoru,***
***Əhməd Əbdu TARABEK,***
***Orta Asiya və Qafqaz məsələləri üzrə tədqiqatçı və jurnalist,***
***Mustafa HİCAZİ,***
***“Orange” şirkətinin Baş direktoru,***
***Seymur NƏSİROV,***
***Misir–Azərbaycan Dostluq Cəmiyyətinin İdarə Heyətinin və Misirdəki Azərbaycan diasporunun sədri.***

* * *

**Zati-aliləri cənab Prezident!**

8 Noyabr – Zəfər Günü münasibətilə Sizə və Azərbaycan xalqına təbriklərimi çatdırıram. Mən bir il əvvəl Azərbaycan-Malayziya əlaqələri ilə bağlı tədqiqat aparmaq üçün gözəl ölkənizdə səfərdə olmuşam.

Bu il əlamətdar bir ildir, çünki Azərbaycan ilə Malayziya arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünü qeyd edirik. Ölkələrimizin sülh şəraitində daha da inkişaf etməsini və əlaqələrinin möhkəmlənməsini arzulayıram.

Cənab Prezident, əlamətdar gün münasibətilə Sizi bir daha təbrik edirəm.

**Hörmətlə,**

***Roy ROGERS,***
***Malayziyanın Kuala Lumpur şəhərində fəaliyyət göstərən Malaya Universitetinin dosenti***

* * *

**Hörmətli cənab Prezident!**

8 Noyabr – Zəfər Günü münasibətilə Sizi və Sizin simanızda bütün Azərbaycan xalqını Litva–Azərbaycan Assosiasiyasının fəaliyyətində iştirak edən Litva ziyalıları, ictimai-mədəni xadimlər adından səmimi-qəlbdən təbrik etməkdən və Zati-alinizə ən xoş arzularımızı çatdırmaqdan şərəf duyuruq.

Qarabağın işğaldan azad edilməsi uğrunda aparılmış Vətən müharibəsində tarixi Qələbənin qazanılması, eləcə də bu il oktyabrın 15-də Sizin Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycanın Dövlət Bayrağını iftixarla ucaltmağınız bizə böyük sevinc hissi yaşatdı.

Bu, beynəlxalq hüququn və ədalətin, eləcə də Azərbaycanın ərazi bütövlüyünün tam bərpasının təntənəsidir.

İnanırıq ki, üçrəngli Azərbaycan Bayrağı Qarabağda əbədi dalğalanacaq və azərbaycanlılar orada daim yaşayacaqlar.

Zati-aliləri, əlamətdar tarix – Zəfər Günü münasibətilə Sizi bir daha təbrik edir, ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar, Azərbaycan xalqına isə əmin-amanlıq, davamlı inkişaf və rifah arzulayırıq.

**Dərin hörmətlə,**

**Litva-Azərbaycan Assosiasiyasının sədri və fəalları:**

***Mahir HƏMZƏYEV,***
***Arvidas VALYONİS,***
***Deyvidas STAPONKUS,***
***Romas DABRUKAS,***
***Vladas TURÇİNAVİÇYUS,***
***Rimantas VAYTKYAVİÇYUS***
***və başqaları (22 nəfər).***

* * *

**Möhtərəm cənab Prezident!**

Azərbaycanda fəaliyyət göstərən dini konfessiya nümayəndələrinin arzu və iradəsini ifadə edərək Sizə – Azərbaycan xalqının ləyaqətli oğluna, dünyanın tanınmış siyasi xadiminə və rəşadətli Ali Baş Komandana salamlarımızı çatdırır, tarixin misilsiz Zəfər bayramı – Qarabağın düşmən işğalından azad edilməsi, suverenliyimizin tam bərpa olunması və Dövlət Bayrağı Günü münasibətilə təbriklərimizi ünvanlayırıq.

Şükürlər olsun ki, Azərbaycan xalqı öz tarixinin ən möhtəşəm dönəmini – Vətən müharibəsindəki Qələbənin və Xankəndidə Dövlət Bayrağının ucaldılmasının qürurunu yaşayır. Biz, din xadimləri fəxr edirik ki, bu Qələbənin müəllifi və sərkərdəsi Azərbaycan xalqının böyük oğlu, bütün dünyada Qarabağın Fatehi kimi tanınan Zati-aliləri Ali Baş Komandan cənab İlham Əliyevdir. Tariximizə qızıl hərflərlə yazılan Zəfər səadəti üçün dindarların arzusu Zati-aliləri İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım üçün dualar etmək, xeyirli arzular diləməkdir. Otuz il ərzində işğal altında qalmış əzəli torpağımız Qarabağın, İslam dünyasının mədəniyyət mərkəzi Şuşanın, ümdə niyyətimiz olan Xankəndinin və Xocalının işğaldan azad edilməsi, beynəlxalq hüquqa uyğun olaraq suverenliyimizin tam bərpası fövqəladə siyasi qələbə və böyük əhəmiyyətli tarixi hadisədir. Zati-alinizin ucaltdığı Azərbaycan Bayrağı, şanlı Zəfərimizin üçüncü ildönümünün Xankəndidə və Şuşada keçirilməsi öz torpaqlarına, milli-mənəvi dəyərlərinə, mədəni irsinə sahib çıxan müzəffər xalqın Uca Allahın xeyir-duası ilə, rəşadətli Ordusunun gücünə arxalanaraq tarixi ədaləti bərpa etməsi deməkdir. Bu möhtəşəm məqamı sonsuz qürur hissi ilə bizə yaşatdığınıza görə dindarlarımız Sizinlə fəxarət duyur, Rəbbimizə həmd-sənalar edirlər.

Zati-aliləri, Qarabağ bölgəsinin qısa zamanda yenidən qurulması, işğaldan azad olunmuş Şuşanın 2023-cü ildə türkdilli dövlətlərin mədəniyyət mərkəzi, 2024-cü ildə “İslam mədəniyyəti paytaxtı” elan edilməsi, suverenliyimizin tam bərpası – bunların hamısı Zati-alinizin yenilməz iradəsi və əzmi sayəsindədir. Dövlətimizin iqtisadi və siyasi qüdrətinin artması, xalqımızın rifahının yüksəlməsi, milli-mənəvi dəyərlərimizin təbliği naminə gördüyünüz fövqəladə xidmətlərə görə hər zaman dindarlarımızın xeyir-dualarındasınız. Zati-alinizin və ölkəmizin Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın yüksək mənəvi dəyərlərin hamisi olduğuna, məscidlərlə yanaşı, xristian və yəhudi dini abidələrinə Azərbaycanda ənənəvi olaraq diqqət və qayğı ilə yanaşılmasına bütün dünya şahiddir. Bütün bunlar Azərbaycanın dünyadakı tolerant imicini, ali dəyərlər ölkəsi, mədəniyyətlər, sivilizasiyalar, dinlərarası dialoq prosesində aparıcı mərkəzlərdən biri olmasını bir daha təsdiqləyir. Əsrlər boyu Azərbaycanda yaşayan xalqlar və etnoslar yaradılan münbit şərait sayəsində öz mənəvi mədəniyyətlərini, dini etiqad azadlıqlarını qoruyub saxlayır və inkişaf etdirirlər. Bu gün dinindən və milliyyətindən asılı olmayaraq, Azərbaycanın hər bir vətəndaşı Vətən müharibəsindəki “dəmir yumruq” kimi yenə də Sizin ətrafınızda birləşməyə hazırdır. Biz əminik ki, multikultural ənənələrimiz sayəsində azərbaycançılıq məfkurəsinə sadiq qalan, etnik və dini müxtəlifliyə mənsub Azərbaycan vətəndaşlarının bir ailənin üzvləri kimi mənəvi harmoniya şəraitində yaşamaları bilavasitə Sizin siyasi müdrikliyinizin təzahürüdür.

Möhtərəm cənab Prezident, dini konfessiya rəhbərləri olaraq Azərbaycan xalqı və dövləti naminə fəaliyyətinizdə Sizə Uca Yaradandan yeni zəfər və qələbələr, dünya miqyasında dəyər kəsb edən səy və əməllərinizdə uğurlar diləyirik. Qələbənin qazanılması uğrunda mübarizədə şəhid olmuş qəhrəman Azərbaycan oğullarına rəhmət diləyir, qazilərə şəfalar arzulayırıq. Əminik ki, Sizin rəhbərliyinizlə Azərbaycan xalqı dünya miqyasında daha böyük uğurlara imza atacaq, haqqın qalibiyyəti daim Zati-alinizlə olacaqdır. Zəfərimiz mübarək olsun!

Uca Yaradan hər zaman Sizi, Azərbaycan dövlətini və xalqını qorusun! Amin.

**Dərin hörmət və ehtiramla,**

***Şeyxülislam Allahşükür PAŞAZADƏ,***
***Qafqaz Müsəlmanları İdarəsinin sədri, Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların Məşvərət Şurasının sədri,***
***Milix YEVDAYEV,***
***Azərbaycandakı Dağ Yəhudiləri İcmasının rəhbəri,***
***Arximandrit ALEKSİY,***
***Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi,***
***Vladimir FEKETE,***
***Roma Katolik Kilsəsinin Azərbaycandakı Apostol Prefekturasının ordinarisi,***
***Aleksandr ŞAROVSKİ,***
***Bakıdakı Avropa Yəhudiləri İcmasının rəhbəri,***
***Robert MOBİLİ,***
***Azərbaycandakı Alban-Udi Xristian Dini İcmasının sədri.***

* * *

**Möhtərəm cənab Prezident!**

Sizi tariximizə qızıl hərflərlə yazılmış Zəfər Günü münasibətilə ürəkdən təbrik edir, işlərinizdə uğurlar, möhkəm cansağlığı arzulayıram.

Bu günü Azərbaycan xalqı 30 il həsrətlə gözləyirdi. Sizin ardıcıl siyasətiniz, qətiyyətli addımlarınız nəticəsində müzəffər ordumuz torpaqlarımızı işğaldan azad etdi və ölkəmiz öz suverenliyini bərpa etdi. Azərbaycan dünyada çox az sayda olan ölkələrdəndir ki, torpaqlarının 20 faizini itirdikdən sonra gücünü toplayıb ərazi bütövlüyünü bərpa etdi. Bu, Sizin rəhbərliyiniz altında mümkün oldu.

Bu günlərdə Azərbaycan xalqı 9 Noyabr – Dövlət Bayrağı Gününü, 12 Noyabr – Konstitusiya Gününü, 17 Noyabr – Milli Dirçəliş Gününü qeyd edir. Heç təsadüfi deyil ki, məhz bir neçə gün əvvəl Siz Xankəndidə Azərbaycanın Dövlət Bayrağını ucaltdınız və ölkəmizdə yaşayan hər bir ailəyə sevinc hissi bəxş etdiniz.

Cənab Prezident, Sizin xalqımızın milli dəyərlərinə əsaslanan, Azərbaycanın bütövlüyü uğrunda həyata keçirdiyiniz siyasət xalqımız tərəfindən yüksək qiymətləndirilir. Sizə cansağlığı, böyük uğurlar və ailə səadəti arzu edirəm.

**Dərin hörmətlə,**

***Asəf HACIYEV,***
***Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin Baş katibi***

# Zəfər mesajı: Xalq – Prezident həmrəyliyi və informasiya müharibəsinin ideoloji motivləri




(əvvəli 1-ci səhifədə)

Vətən müharibəsi zamanı informasiya sferasında gedən proseslər, sanki bir-birini tamamlayırdı. Medianın proseslərə düzgün reaksiyasının formalaşması dezinformasiyaların cəmiyyətə mənfi təsir yükünü minimuma endirdi, onları getdikcə tamamilə sıradan çıxardı. Bu, ölkəmizin müvafiq dövlət qurumlarının, xüsusən Müdafiə və Xarici İşlər nazirliklərinin səmərəli fəaliyyəti ilə təmin edildi. Hər iki qurum müxtəlif mənbələr tərəfindən yayılmış informasiyalara kifayət qədər çevik reaksiyalar verməklə yanaşı, medianı həm cəbhə ilə bağlı doğru-dürüst məlumatlarla operativ şəkildə təmin etdi, həm də dezinformasiyaların insanlara təsirini önlədi.

Digər tərəfdən, geniş ictimaiyyət – ziyalı təbəqə, qeyri-hökumət təşkilatlarının təmsilçiləri, eləcə də jurnalistlərimiz gördülər ki, Azərbaycan dövləti düşmənin məlumat cəbhəsinin sistemli təhlilini aparır. Bu cəhətin özünü ortaya tutarlı, inandırıcı əks arqumentlərin qoyulmasında göstərməsi əminliyi birə-beş artırdı. Nəticə etibarilə vətəndaşların dövlətin reallaşdırdığı tədbirlərə münasibətdə adekvat dəstək davranışları özünü göstərdi. Hesab edirik ki, informasiya müharibəsində bu da son dərəcə mühüm amildir.

***

Daha bir məqama diqqət yetirək. Vətən müharibəsi günlərindəki durumu təhlil edərkən, görürük ki, Azərbaycan Ordusunun əzminin yüksəlməsi də informasiya cəbhəsinin genişlənməsinə və dolğunlaşmasına öz müsbət təsirini göstərib. Hərbi birləşmələrimizin uğurlu əməliyyatları bu cəbhədəki sistematikliyin qorunmasında, pərakəndəliyin yaranmamasında həlledici rol oynadı. Belə bir durumda isə təbliğat sahəsindəki əks qütblər nəinki növbəti həmlə üçün şans qazana bilmədilər, hətta, bu barədə düşünmək imkanlarından da məhrum oldular.

***

İkinci Qarabağ müharibəsi müddətində ölkəmizə qarşı yönəlmiş informasiya təhlükəsinin xarici seqmentinə xüsusi diqqət yetirməyə ehtiyac var. Nəzərə alaq ki, savaş günlərində dünyanın müxtəlif ölkələrindəki erməni lobbi və diaspor təşkilatları da Azərbaycanla bağlı mənfi təəssüratın yaranmasına ciddi-cəhdlə səy göstərirdilər. Unutmaq olmaz ki, işğalçı Ermənistan yalnız öz ordusuna deyil, həm də bu amilə güvənirdi. İrəvanda əmin idilər ki, xaricdəki lobbiçilik Azərbaycanı təcavüzkar kimi tanıtdırmaq gücünə malikdir və guya, Bakı bu təzyiqi düşünərək müharibə apara bilməyəcək.

Bəli, İkinci Qarabağ müharibəsi ilə bağlı ermənipərəst qüvvələr tərəfindən yayılmış fikir və baxışlar dünyanın müxtəlif ölkələrinin telekanallarında yayımlanmış siyasi tok-şouların, birtərəfli reportaj və sujetlərin ana xəttini təşkil edirdi. Lakin erməni lobbi və diaspor təşkilatlarının "dirijor çubuğu" ilə hərəkətə gətirilmiş xarici media da gördü ki, müharibəni yalnız siyasi məqsəd daşıyan qəsbkar avantüra kimi göstərmək cəhdləri fayda verməyəcək. Bu qüvvələr Azərbaycandakı xalq–hakimiyyət birliyinin savaşa qazandırdığı müqəddəslik obrazı qarşısında duruş gətirilməsinin mümkünsüzlüyünü, bu amillə hesablaşmağın vacibliyini duydular.

***

Azərbaycanın haqq işi olan Vətən müharibəsində Türkiyə amili xüsusi vurğulanmalıdır. Müharibə ulu öndər Heydər Əliyevin "bir millət, iki dövlət" şüarı ilə illərə söykənmiş işbirliyinin konkret nəticələrini ortaya qoydu. Qarabağ davası Türkiyəni yalnız regional deyil, eyni zamanda, qlobal güc kimi təsdiqlədi. Bu amil informasiya savaşında da ön plana çıxdı. O çətin günlərdə Azərbaycan və Türkiyə mediasının ortaq fəaliyyətini gördük. Bu fəaliyyətdə Azərbaycanın Qarabağ amalı həm də Türkiyə cəmiyyətinin müqəddəslik simvoluna çevrildi. Qarabağ yolu ilə eyniləşdi.

Bəli, 44 günlük müharibə sübut etdi ki, Azərbaycan və Türkiyə qardaşlığı yüksək inama, etimada əsaslanmış əməkdaşlıq, beynəlxalq arenada birgə siyasi fəaliyyət platforması ilə yanaşı, həm də müstəsna güc faktorudur. Türkiyə mediası bu gücü dünyaya daha sistemli və dolğun şəkildə nümayiş etdirməklə Qələbəmizdə müstəsna pay sahibinə çevrildi.

***

Vətən müharibəsindəki Zəfərin informasiya təminatı barədə söz açarkən, nəhayət, ən vacib məqama diqqət yetirək. Əslində, yazımızın əvvəlində bu barədə söz açmış və bildirmişdik ki, məsələyə qayıdacağıq. Fikrimizi əsaslandırmaq üçün hələ işğal illərində müşahidə etdiyimiz bir tendensiyaya diqqət yetirək. Məlum olduğu kimi, bir qayda olaraq Ermənistan və erməni lobbi və diaspor təşkilatları Azərbaycan əleyhinə hədyanlar yağdırır, ölkəmiz onlara cavab verirdi. Lakin müharibə müddətində müasir dövlətçilik tariximizdə bir ilk yaşandı. Azərbaycan informasiya müharibəsində də hücuma keçdi. Yəni, ordumuzun hücum strategiyasını ideoloji hücum tamamladı. Tam qətiyyətlə demək olar ki, Azərbaycanla bağlı mənfi informasiya selini neytrallaşdıran bu hücumun ən böyük sərkərdəsi möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandan İlham Əliyev oldu. Dövlətimizin başçısı haqqında əvvəldə söz açdığımız çoxsaylı müsahibələrindəki fikirləri ilə sanki stereotipləri sıradan çıxardı, baxışlarımızı, Qarabağ ideyamızı bilavasitə hücum taktikasına köklədi.

Bəli, qətiyyətlə söyləmək olar ki, cənab İlham Əliyev Vətən müharibəsində məhz hücum mövqeyində dayandı, həqiqətlərimizi ənənəvi müdafiə ampluasından çıxardı. Dövlətimizin başçısının müsahibələrindəki əzmkar ritorika sayəsində artıq keçmişdə qalmış Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlər tarixi və beynəlxalq hüquq baxımından sistemli şəkildə açıqlandı. Nəticədə həm ölkəmizin haqlı mövqeyinin müdafiəsində prinsipiallıq yarandı, həm Ermənistanın və onun rəhbərliyinin saxtakarlığı ifşa edildi, həm də ideoloji təxribat və manipulyasiyalara rəğmən ordumuzun cəhbədəki uğurları leqallıq qazandı.

Prezident İlham Əliyevin xalqa müraciətləri tutduğu mövqedən, baxışlarından, sosial statusundan asılı olmayaraq, hər bir sıravi azərbaycanlını informasiya müharibəsinin əsgərinə çevirdi. İnsanlarımız Ali Baş Komandanın fikirləri ilə həm müharibəyə köklənərək ideoloji zireh qazandılar, həm də kənar təsirlərdən, eləcə də informasiya diversiyalarının mənfi təzahürlərindən qorundular. Onu da xüsusi vurğulayaq ki, dövlətimizin başçısının müraciətlərinə xalqın reaksiyası, bu fonda formalaşmış Xalq–Prezident həmrəyliyi həm də dünyaya ünvanlanmış kifayət qədər ciddi mesaj idi. Bu, eyni zamanda, Zəfər mesajı idi.

***

Sonda Azərbaycanın 44 günlük müharibədəki Zəfərinin informasiya təminatı ilə bağlı söylədiklərimizi ümumiləşdirərək bir mühüm məqamın üzərində dayanmağı vacib sayırıq. Fikrimizi əsaslandırmaq üçün "Media haqqında" Qanundakı "Media savadlılığı" anlayışına müraciət edəcəyik. Kifayət qədər geniş məzmun daşıyan və son dərəcə vacib olan bu anlayış özündə kütləvi informasiyanın məzmunu, onun ötürülməsi və istehlakı üzrə biliyə sahib olmanı, tənqidi dəyərləndirməni, informasiyanı müxtəlif kontekstlərdə istifadə etməni və təhlil aparmaq qabiliyyətini ehtiva etməkdədir.

Prezident İlham Əliyevin 44 günlük müharibə müddətindəki istər xarici mediaya çoxsaylı müsahibələri, istərsə də xalqa müraciətləri hər bir azərbaycanlıya informasiya savaşında savadlı və səliqəli davranmağı, daha dəqiq desək, tədbirli olmağı aşıladı. Dövlətmizin başçısının bunun üçün, əslində, çox sadə və effektiv yolu seçdiyini deyə bilərik. Onun hər nitqi təpədən-dırnağa səmimiyyət notlarına köklənmişdi. Elə bir səmimiyyətə ki, onda Prezident vətəndaşın gözündə yalnız dövlət başçısı deyildi, o, eyni zamanda, əmiyə, dayıya, babaya, qardaşa, bir sözlə, ən doğma insana çevrilmişdi. Cənab İlham Əliyevin səmimiyyəti xalqımızın informasiya savaşında iştirak edən hər bir nümayəndəsini dərin inam hissi ilə silahlandırdı. 8 Noyabr Zəfərini doğurmuş bu köklənış, eyni zamanda, son dərəcə vacib təcrübədir. Çünki, əvvəldə də bildirdiyimiz kimi, informasiya savaşımız davam edir.

***Əflatun AMAŞOV,***
***baş redaktor***

**ANAR,**
**Xalq yazıçısı, Azərbaycan Yazıçılar Birliyinin sədri**

**İyirmi il bundan əvvəl, 2003-cü ildə cənab İlham Əliyev Azərbaycanın Prezidenti seçildi. İndi dərk edirik ki, bu 20 ilin 17 ili 44 günlük zəfər müharibəsinin hərbi, siyasi, iqtisadi, mənəvi cəhətdən hazırlanmasına həsr olunubmuş. Sonrakı 3 il isə 23 saatlıq lokal antiterror tədbirlərinin hazırlığı imiş. Yekun olaraq, 30 il işğal altında qalmış torpaqlarımız İlham Əliyevin prezidentliyi dövründə son qarışına qədər azad olundu. Bu, minillik Azərbaycan tarixinin ən möhtəşəm və ən şərəfli hadisələrindəndir. Prezidentin dəfələrlə dediyi sözlər: "Mən nəyi nə vaxt necə edəcəyimi bilirəm" – sözləri tam şəkildə təsdiq edildi.**

# Gerçəkləşən arzular

Bu tarixi qələbənin babası unudulmaz Ulu öndər Heydər Əliyev, atası möhtərəm Prezitentimiz İlham Əliyevdir. Heydər Əliyev bu qələbənin təməlini hələ sovet dövründə Naxçıvanski adına hərbi məktəb yaratmaqla, müstəqillik illərində "Əsrin müqaviləsi"ni imzalamaqla, İlham kimi "özünə inandığı kimi inandığı" varis və ardıcılını yetişdirməklə qoydu. Prezident İlham Əliyev 44 günlük qələbəni müzəffər ordunun Ali Baş komandanı kimi qazandısa, bu uğuru siyasi və təbliğat sahəsində tək başına, dörd dildə müxtəlif media nümayəndələri ilə müsahibələrində, çətin diplomatik danışıqlarında, bütün təzyiqlərə rəğmən, dəmir ilə böyümüş, "Dədə Qorqud", "Babək", "Nəsimi", "Cavadxan" filmlərinin tamaşaçıları kimi yetişmiş nəsil ölümsüz şəhidləri, qəhrəman qaziləri, igid döyüşçüləri ilə tarixə düşdü. İşğal olunmuş Şuşanın füsunkar mənzərələrini, tarixi abidələrini, böyük şəxsiyyətlərimizin adları ilə bağlı ünvanları həyatda görə bilməmiş nəsil bütün bunlarla "Üzeyir ömrü" filmində tanış olurdu.

Ulu öndərimizin bu cəhətdən də layiqli varisi olan İlham Əliyev gənclərimizin vətənpərvərlik ruhunda yetişməsində ədəbiyyatın, sənətin misilsiz rolunu yüksək qiymətləndirir.

Tarixi qələbəmiz xalqımıza qürur



iradəsiylə, dəmir məntiqiylə qazandı. Dəmir iradə və dəmir məntiq dəmir yumruqla təsdiqləndi. "Qarabağ Azərbaycandır!" cümləsinin Nida işarəsi dəmir yumruğa dönüb düşmənin başını əzdi.

Bu qələbədə ordumuzun ən müasir silahlarla təchiz olunması, ilk növbədə, qardaş Türkiyənin, eləcə də başqa dost ölkələrin mənəvi dəstəyi böyük rol oynadı. Qürurla qeyd edirəm ki, bu qələbədə ədəbiyyatımızın, incəsənətimizin də payı var. Şairlərimizin, yazıçılarımızın əsərləri hissini qaytardı, millətimizin adını bütün dünyada, özəlliklə türk xalqları arasında yüksəklərə ucaltdı. Bu qürur və iftixar hissini siyasətimizlə, silahımızla və qələmimizlə gələcək illərdə də yaşatmalıyıq.

Gələcək illərdə iki böyük liderimizin arzularının həyata keçəcəyinə inanıram. İnanıram ki, Ulu öndərin "Azərbaycan dünyaya günəş kimi doğacaq" arzusu da, Prezident İlham Əliyevin "Qarabağı cənnətə çevirəcəyik" niyyəti də hökmən gerçəkləşəcəkdir.

# Naxçıvanda Ali Məclisin Zəfər Gününə həsr olunmuş iclası




**Noyabrın 7-də altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2023-cü il payız sessiyasının Zəfər Gününə həsr olunmuş iclası keçirilib.**

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov qeyd edib ki, Zəfərimizin üçüncü ildönümü Xankəndidə hərbi paradla qeyd olunacaq. Bu tarixi günü Azərbaycan xalqına bağışlayan möhtərəm Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyevə daim minnətdarıq. Qərara alındı ki, siyasi qurum olaraq Ali Məclis də bu məsələyə münasibət bildirsin.

Ali Məclisin deputatları Aidə Cəlilzadə, Elman Cəfərli, Yeganə Məmmədova, Nüsrət Həsənov, Vüqar Abbasov və İsa Məmmədov Prezibent, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və rəşadətli ordumuzun işğal altında olan torpaqlarımızın azad olunması missiyasını yerinə yetirdiyini, ərazi bütövlüyümüzün, tarixi ədalətin bərpasını təmin etdiyini diqqətə çatdırıblar. Tarixə qızıl hərflərlə yazılan Zəfər Gününün milli mövcudluğumuzun ən şərəfli və parlaq səhifələrindən biri olduğu vurğulanıb.

Sonra Ali Məclisin deputatı Vüsalə Əliyevaya Zəfər Gününün ildönümü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Bəyanatını səsləndirib. Sənəd səsə qoyularaq qəbul edilib.

Daha sonra Naxçıvan Muxtar Respublikası Baş nazirinin 2023-cü il 6 noyabr tarixli təqdimatı müzakirəyə çıxarılıb, qərar layihəsi səsə qoyulub. Nəsirov Səfəralı Üzeyir oğlu Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri vəzifəsinə təsdiq edilib.

Sonda cari məsələlərin müzakirə olunub, bir sıra deputatların hesabtları dinlənilib. Verilən təkliflər aidiyyəti qurumlara göndərilmək üçün qeydə alınıb. Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclası öz işini başa çatdırıb.

***XQ***

# Hərbi Prokurorluqda qazilərlə görüş

**Noyabrın 7-də Zəfər Günü münasibətilə Hərbi Prokurorluqda hərbi qulluqçular və qazilərlə görüş keçirilib.**



Baş prokurorun müavini – Hərbi prokuror, ədliyyə general-leytenantı Xanlar Vəliyev mərasim iştirakçılarını, bütün qaziləri və şəhid ailələrini 8 Noyabr – Zəfər Günü münasibətilə təbrik edib.

Ölkəmizin sürətli inkişafının silahlı qüvvələrin qüdrətlənməsinə də rəvac verdiyini deyən hərbi prokuror bildirib ki, son illər Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində ordumuzun maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilib.

Milli Məclisin deputatları Sabir Rüstəmxanlı, Nizami Cəfərov, Azər Badamov və Ceyhun Məmmədov, çıxış edən digər şəxslər Vətən müharibəsindən, müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə əldə olunan tarixi Qələbədən, eləcə də 44 günlük döyüşlərdə və antiterror tədbirlərində Hərbi Prokurorluğun özünəməxsus rolundan bəhs ediblər.

***XQ***

# DTX-nin Mədəniyyət Mərkəzində bayram konserti



**Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Mədəniyyət Mərkəzində 8 Noyabr – Zəfər Günü ilə əlaqədar mədəni proqram təqdim olunmuşdur. Tədbirdə DTX-nin əməkdaşları, Vətən müharibəsi iştirakçıları, DTX-nin Heydər Əliyev adına Akademiyasının kursantları və hərbi hissəsinin əsgərləri iştirak etmişlər.**

Tanınmış mədəniyyət və incəsənət xadimlərinin vətənpərvərlik mövzusunda ifaları ilə müşayiət olunan konsert tamaşaçılar tərəfindən böyük maraqla qarşılanmışdır.

***XQ***

# 8 Noyabr şərəf və ləyaqət rəmzimizdir

**Bu gün ölkə ictimaiyyəti və bütün dünya azərbaycanlıları böyük təntənə və qürur hissi ilə 44 günlük Vətən müharibəsində əldə edilmiş möhtəşəm Qələbənin növbəti ildönümünü qeyd edir. Üç il bundan öncə Prezident, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyətli mövqeyi və əzmi, Azərbaycan əsgərinin rəşadəti və şücaəti, xalqımızın birliyi və həmrəyliyi nəticəsində düşmənin müqaviməti qırılmış və 8 Noyabr tariximizə Zəfər Günü kimi əbədi həkk olunmuşdur. İşğal altındakı ərazilərimizin azad edilməsi ilə nəticələnən müqəddəs savaş xalqımızın şərəf və ləyaqət rəmzi kimi çağdaş tariximizi zənginləşdirmişdir. Builki Zəfər bayramı həm də ona görə əlamətdardır ki, həm "Heydər Əliyev İli"nə, həm də ölkəmizin ərazi bütövlüyünün və konstitusiya quruluşunun tam şəkildə bərpa olunduğu dövrə təsadüf edir.**

## Əbədi yaşayacaq tarix

Vətən müharibəsinədək Qarabağ probleminin danışıqlar yolu ilə həllinin alternativinin olmaması ilə bağlı bir sıra beynəlxalq təşkilatların və aparıcı dünya dövlətlərinin ikili standartlara söykənən subyektiv yanaşmaları mövcud idi. Lakin hələ müstəqilliyimizin bərpasının ilk dövrlərində müdrik lider və təcrübəli siyasətçi Heydər Əliyev öz fəaliyyəti ilə sübut etmişdi ki, istənilən şəraitdə problemin həllinə düzgün yanaşma sayəsində uğur qazanmaq mümkündür. Belə ki, başı hakimiyyət uğrunda mübarizəyə qarışmış AXC – Müsavat cütlüyünün tutduğu xəyanətkar mövqe nəticəsində 1993-cü ilin ortalarınadək ölkənin 20 faizdən artıq ərazisi Ermənistanın nəzarəti altına keçmişdi. Bütövlükdə, dövlət müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın dövlətçiliyi real təhlükələrlə üzləşmişdi. Bu istiqamətdə dönüş yalnız ulu öndər Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra mümkün oldu. Onun, bilavasitə, rəhbərliyi ilə 1994-cü ilin yanvar ayında Azərbaycan Ordusunun böyük uğurla yerinə yetirdiyi "Horadiz əməliyyatı" nəticəsində 23 yaşayış məntəqəsi işğaldan azad edildi. Bu uğuru 2016-cı ilin aprel ayında böyük hərbi-strateji əhəmiyyətə malik Lələtəpə yüksəkliyini ələ keçirməklə Prezident İlham Əliyev də təkrarladı. Ordumuzun böyük üstünlüyünü və xalqın qələbə əzmini nümayiş etdirən Aprel döyüşləri münaqişənin hərb yolu ilə həllinin mümkünlüyü barədə qarşı tərəfə və beynəlxalq təşkilatlara ünvanlanmış bir ismarıc idi.

Təəssüf ki, Ermənistan bu dərslərdən düzgün nəticə çıxarmadı və keçmiş Dağlıq Qarabağda 30 ilə yaxın davam edən status-kvo və son dövrlər formalaşmış geosiyasi vəziyyət Vətən müharibəsinin qaçılmaz olduğunu şərtləndirən bir sıra ciddi amilləri ortaya qoydu. Ona görə də Azərbaycan Prezidenti cənab İlham Əliyev problemin həllinə yanaşmada güzəşt siyasətinə deyil, diplomatik hücum taktikasına üstünlük vermiş, bütün çıxışlarında Azərbaycan xalqının işğal faktoru ilə heç zaman barışmayacağını və torpaqlarımızı azad etmək üçün mümkün vasitələrdən istifadə ediləcəyini dönə-dönə təkrar etmişdir.

Müharibənin bitdiyi gün müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşa şəhərinin işğaldan azad olunması münasibətilə Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciətində demişdir: "Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür! Bu Qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox... 28 ildən sonra Şuşada yenə də azan səsi eşidiləcəkdir... Biz bütün dünyaya sübut etdik ki, Qarabağ əzəli Azərbaycan torpağıdır..."

## Ordumuzun qüdrəti

Azərbaycanın hərb tarixinə şərəfli salnamə yazan ordumuzun inamlı və möhtəşəm qələbəsi ilə başa çatmış 44 günlük Vətən müharibəsi xalqımızın və dövlətimizin milli dəyərlərə söykənən çoxsaylı cəhətləri ilə səciyyəvidir. Əlbəttə, bizi bu zirvəyə aparan yol heç də hamar olmayıb, çox böyük çətinliklərdən, maneələrdən keçib. Bu savaş sübut etdi ki, böyük Qələbə heç də təsadüfi deyil, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında dövlətimizin siyasi prioriteti kimi uğurla davam etdirilən ordu quruculuğu prosesinin nəticəsidir.

Azərbaycan Silahlı Qüvvələri bu gün regionun müasir texnika ilə təchiz edilən, Vətənin müdafiəsinə daim hazır olan yüksək nizam-intizama malik bir quruma çevrilib. Bu müddət ərzində NATO-nun ikinci ən güclü ordusuna malik Türkiyə modelinə uyğunlaşdırılan Azərbaycanın Silahlı Qüvvələri müasir standartlar səviyyəsinə çıxaraq dünyanın 50 ən güclü ordusundan birinə çevrilmişdir. Bu istiqamətdə böyük uzaqgörənlik nümayiş etdirən Prezident İlham Əliyev 2003-cü ildən bəri ölkə büdcəsində müdafiə və təhlükəsizlik xərclərinin 17 dəfəyə qədər artırılaraq 6,5 milyard manata yaxın bir səviyyəyə qalxmasını təmin edib ki, bu da digər Cənubi Qafqaz ölkələri ilə müqayisədə qat-qat çoxdur.

Ölkəmizdə müasir hərbi-sənaye kompleksinin formalaşması və qısa zaman ərzində 20-dən çox hərbi zavodun işə salınması Azərbaycanın öz daxili imkanları hesabına arsenalını formalaşdırmaq üçün əhəmiyyətli baza rolunu oynayır. Dünyanın aparıcı silah ixracatçılarından ən müasir silahların alınması və bu sahədə də şaxələndirilmiş siyasətin verdiyi dividendlər əldə edilmiş Qələbəni təmin edən mühüm faktordur.

## Hayların xəyanətkar xisləti

Müharibənin gedişində döyüş meydanında yenilməz ordumuz qarşısında duruş gətirə bilməyən işğalçı Ermənistan bütün dünyanın gözü qarşısında Azərbaycanın dinc əhalisini və mülki obyektlərini atəşə tutmaqla beynəlxalq hüququn norma və prinsiplərini, daha dəqiq desək, 1949-cu il Cenevrə Konvensiyasını kobud surətdə pozaraq, ağır cinayətlər törətmişdir. İkinci Qarabağ müharibəsi ərzində düşmən Azərbaycanın dinc əhalisini qəsdən hədəfə alıb mülki obyektləri ağır artilleriyadan atəşə tutaraq terror əməllərindən çəkinməmişdir. Hətta erməni diasporunun və beynəlxalq hüquq normalarını cinayətkarcasına pozmaqla xarici ölkələrədən gətirilmiş muzdlu terror qruplarının uğursuz cəhdləri Ermənistanı düşdüyü aciz durumdan xilas edə bilmədi.

Əlbəttə, xalqımız inanırdı ki, zaman gələcək bu cinayətlərə görə erməni vandalları və onlara havadarlıq edənlər beynəlxalq mühakimə qarşısında cavab verəcəklər. Azərbaycan hökuməti artıq bu istiqamətdə çevik və qətiyyətli addımlar ataraq müsbət nəticələr əldə edir. Bu proses, xüsusilə, Laçın sərhəd-buraxılış məntəqəsinin Azərbaycanın bilavasitə nəzarəti altında fəaliyyətə başlaması və Qarabağda həyata keçirilmiş antiterror tədbirlərinin uğurlu nəticələrindən sonra daha məhsuldar və intensiv səciyyə daşıyır.

## "Prezident – Xalq – Ordu" birliyi

Möhtəşəm Qələbə ilə Azərbaycan dünyaya sübut etdi ki, pozulmuş hüquqlarını özü bərpa etmək iqtidarındadır. Əldə etdiyimiz tarixi nailiyyətin əsas şərtlərindən biri ən yüksək həddə təzahür edən "xalq–iqtidar–ordu" birliyindən doğan reallıqdır. Postmüharibə dövründə regionda formalaşmaqda olan yeni siyasi konfiqurasiya fonunda ümummilli məsələlərlə bağlı müqəddəs amal uğrunda ictimai-siyasi həmrəyliyin mövcudluğu son dövrün ən mühüm nailiyyətlərindəndir. O dövrdə Azərbaycanda fəaliyyət göstərən 50 siyasi partiya tərəfindən Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatına dair birgə bəyanatın imzalanması söylənənlərə əyani sübutdur. Müqayisə üçün qeyd edək ki, müharibənin gedişində 10 mindən çox erməni fərarinin mövcud olduğu zaman Azərbaycanda bir dənə də olsun belə hal qeydə alınmamışdır. Cənab İlham Əliyevin səsləndirdiyi "Əgər bu birlik olmasaydı, milli həmrəylik olmasaydı, biz heç vaxt torpaqlarımızı işğalçılardan azad edə bilməzdik" fikri Azərbaycan xalqının ürəyində Vətən sevğisinin nə dərəcədə böyük olduğunun bariz sübutudur. Bu monolit birliyə arxalanan Ali Baş Komandanımızın çevik taktiki gedişləri, bənzərsiz diplomatiya bacarığı, kritik vəziyyətlərdə hədəfləri və istiqamətləri düzgün müəyyənləşdirmək qabiliyyəti, güclü və dönməz iradəsi möhtəşəm Zəfərin əldə olunmasında müstəsna əhəmiyyət kəsb edən meyardır.

## İnformasiya müharibəsinin önündə

Ötən 20 ilə nəzər salsaq, görərik ki, Prezident İlham Əliyev Dağlıq Qarabağ məsələsinin həllinin daim gündəlikdə qalması üçün əlindən gələni edib. Bütün nitq və çıxışlarında, beynəlxalq təşkilatların tribunalarında, dünya liderləri ilə görüşlərində, müsahibələrində bu barədə danışıb. Çalışıb ki, təcavüzkarın və zərərçəkmiş tərəfin kim olduğunu hər kəs bilsin. Vətən müharibəsinin uğurunu şərtləndirən əsas amillərin biri də məhz budur.

İkinci Qarabağ müharibəsi zamanı Ermənistan tərəfindən Azərbaycana qarşı aparılan informasiya müharibəsinin də qarşısı layiqincə alındı. Azərbaycan bu platformada da işğalçı ölkəni üstələdi. Ermənistanın yaydığı yalan xəbərlər vaxtında təkzib olundu, dünya ictimaiyyətinə obyektiv məlumatlar çatdırıldı. Erməni kiber hücümlarının da qarşısı layiqincə alınırdı. Prezident İlham Əliyev dərin biliyi, dəmir məntiqi, təkzibolunmaz arqumentləri ilə ermənipərəst medianın qarayaxma kampaniyasını zərərsizləşdirə bildi, informasiya cəbhəsini təkbaşına yardı.

Xatırlayırsınızsa, xüsusi tapşırıq alan bəzi Qərb müxbirləri mətləbi yayındırır, feyk məlumatlara istinad edərək Azərbaycan tərəfinin ünvanına əsassız ittihamlar səsləndirirdilər. Lakin xarici kütləvi informasiya vasitələrinin əməkdaşları İlham Əliyevin siyasi və diplomatik cavabları, tutarlı arqumentləri və ensiklopedik tarixi bilgiləri qarşısında heyranlıqlarını gizlədə bilmirdilər. Döyüşlərin ilk günündən beynəlxalq erməni lobbisi Azərbaycana qarşı təzyiq rıçaqlarını işə saldı, BMT-də qətnamə qəbul etmək istədilər. Hətta, Prezidentdən müsahibə alan bəzi xarici kütləvi informasiya vasitələri təxribatçı sualları ilə ermənipərəst dairələrin sifarişlərini yerinə yetirdi. Lakin hər bir mərhələdə erməni təəssübkeşləri məğlubiyyətə uğradılar. Prezident İlham Əliyev onların hər birinə siyasət və diplomatiya dərsi keçdi.

BMT-də Ermənistanın maraqlarına xidmət edən qətnamənin qəbul olunmasının qarşısı məhz İlham Əliyevin diplomatik müdrikliyi sayəsində alındı. Bu işdə dünyanın 120 ölkəsinin üzv olduğu Qoşulmama Hərəkatına uğurla sədrlik etməsi, 60-dək ölkəni özündə birləşdirən İslam Əməkdaşlıq Təşkilatının fəal üzvü kimi müsəlman aləmində qazandığı böyük nüfuz, Avropanın enerji təhlükəsizliyinə verdiyi önəmli töhfə, düşünülmüş neft strategiyasının gətirdiyi siyasi dividendlər Azərbaycanı diplomatik uğurlarını şərtləndirən amillərdir.

## Dünya erməniliyinin süqutu

Tarixi Zəfərin qazanılmasında diqqət çəkən əsas məqamlarından biri də Azərbaycanın xarici siyasətində istiqamətlərin düzgün seçilməsi və dünyanın güc mərkəzləri, həmçinin region ölkələri ilə faydalı münasibətlərin qurulması ilə bağlıdır. Bu münasibətlər bu gün də yüksələn xətt üzrə inkişaf etməkdədir.

Bu proseslərin digər mühüm tərəfi Prezident İlham Əliyevin müharibə günlərində nümayiş etdirdiyi yüksək qətiyyət və dünya erməniliyi ilə mübarizədə beynəlxalq təzyiqlərə sinə gərməsi ilə səciyyəvidir. Azərbaycan ictimaiyyəti dövlət başçımızın qələbə əzmini Zəfərimizin əsas şərtlərindən biri kimi dəyərləndirir. Bu, bir reallıqdır ki, Prezident, müzəffər Ali Baş Komandan cənab İlham Əliyev yalnız hərb meydanında deyil, həm də diplomatik cəbhədə mahir strateq kimi heyrətamiz taktika nümunələrini nümayiş etdirdi, informasiya müharibəsində yorulmadan Azərbaycanın haqq səsini ucaltdı, bütün təzyiqlərə cəsarətlə sinə gərdi, öz xalqı ilə vəhdətdə olan lider kimi ədalət uğrunda mücadilə rəmzinə çevrildi. Məhz onun rəhbərliyi altında uzun illər ərzində davam etdirilən diplomatik mübarizə hərbi uğurumuzu möhkəmləndirən əsas amillərdən biridir və Qələbənin əldə olunmasında bu fəaliyyətin səmərəsi danılmazdır.

Cənab İlham Əliyev 10 noyabr 2020-ci il tarixli üçtərəfli Moskva Bəyanatını qalib sərkərdə kimi fəxrlə, Ermənistanın baş naziri Nikol Paşinyan isə kapitulyasiya aktı kimi gizli şəkildə imzaladı. Bununla biz bəşəriyyətə haqqın, ədalətin böyük dövlətlərin tapdağından qurtara biləcək bir dövlətin – Azərbaycanın var olduğunu sübut etdik. Bu tarixi yazan Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları bir yumruq kimi birləşərək təkcə Ermənistanın yox, bütövlükdə haqsız güclərin üstünə getdi və sübut etdi ki, bu Zəfər haqq yolunda, ədalətin bərpası uğurunda qazanılmışdır.

Nəticə isə ondan ibarətdir ki, müharibədəki acı məğlubiyyət faktiki olaraq Ermənistanın və onun havadarlarının yüzilliklər boyunca yürütdükləri təcavüzkar siyasətin süqutuna gətirib çıxarmış, "dənizdən-dənizə Böyük Ermənistan" xülyası ilə yaşayan ermənilərin xəstə milli ideologiyasının fəqərə sütunu qırılmışdır. Bu mücadilədə dahi Heydər Əliyevi siyasi səhnədən atmaq istəyən daxili antimilli ünsürlər məğlub oldular. Beynəlxalq erməni mafiyası və onların Fransa, Niderland, Kanada və s. kimi havadarları məğlub duruma düşdülər. Bu müstəvidə erməni maliyyəsindən bəhrələnən beynəlxaq siyasi və media şəbəkələrinin qazanc imkanları əllərindən çıxdı. "Bu iqtidarın siyasəti ilə biz heç vaxt Şuşaya, Xankəndiyə gedə bilməyəcəyik" iddiası ilə Zəfərin parlaq işığının təsirindən gözləri tutulmuş və əldə olunan tarixi nailiyyətlərimizi sinirə bilməyən AXCP sədri Əli Kərimov və ona bənzər radikal müxalifətçilərin arzuları birdəfəlik puç oldu, xalq qarşısında nüfuzlarını tamamilə itirdilər. Cənab İlham Əliyevin polad iradəsi və "dəmir yumruğ"u ilə bütün bu maneələr məharətlə dəf olunaraq tarixi ədalət bərpa edildi.

## Ulu öndərin vəsiyyəti

Tarixi Zəfər Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərkərdəlik istedadının, onun həm siyasət, həm də döyüş meydanında sərgilədiyi uğurlu taktiki addımların, müzəffər ordumuzun qüdrətinin, igid əsgər və zabitlərimizin qanlarının töküldüyü müqəddəs Qarabağ torpağının həsrətinə son qoymuş tarixi Qələbənin dünyaya nümayişidir. Azərbaycan xalqı bununla, ilk növbədə, bütün bəşəriyyətə sübut etdi ki, biz heç zaman bir qarış torpağımızı belə heç kəsə güzəştə getməyəcəyik. İşğaldan azad olunmuş Şuşada dalğalanan Qələbə Bayrağımızı parada gətirərək və qalib ordumuzun bölmələrini, döyüş texnikalarımızı nümayiş etdirərək hərbi gücümüzü dünyaya göstərdik.

Müharibənin dayandırılması məqsədilə imzalanmış üçtərəfli Moskva Bəyanatı Azərbaycan diplomatiyasının böyük tarixi Qələbəsi və mahiyyət etibarilə, Ermənistanın kapitulyasiyasını təsdiq edən sənəddir. Bu tarixi hadisəyə Milli Məclisin Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə və Azərbaycan xalqına ünvanlanan 13 noyabr 2020-ci il tarixli müraciətində siyasi qiymət verilmişdir: "2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin imzaladıqları üçtərəfli Bəyanat 30 ildən artıq davam edən münaqişəyə, Azərbaycan torpaqlarının işğalına son qoymuş, Cənubi Qafqaz bölgəsinin gələcək inkişafına yönələn fəaliyyətin yeni formatını təqdim etmişdir...Tarixi əhəmiyyət daşıyan bu bəyanat çoxillik münaqişə və müharibədə Azərbaycan xalqının şanlı qələbəsini təcəssüm etdirir. Tarixi ədalət öz yerini tutur, Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olunur".

Bu şanlı Qələbə Azərbaycan xalqını dünyaya qürurlu xalq kimi tanıtdı, onu ağır nisgildən xilas etdi, dünya azərbaycanlılarını "azərbaycançılıq" ideologiyası ətrafında daha sıx birləşdirdi, dünyaya əsl tolerantlıq nümunəsi bəxş edən xalqımızın daha yüksək dəyərdə milli özünüdərk və öz gücünə inam hissinin möhkəmlənməsi üçün tarixi zəmin yaratdı, gənclərimizin vətənpərvərlik duyğularını daha yüksəklərə qaldırdı.

Bu Zəfəri Azərbaycan xalqına bəxş etməklə müzəffər Ali Baş Komandanımız həm də həyatını Azərbaycana həsr edən, "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur", – söyləmiş Ulu öndərin ən ümdə arzusunu reallaşdırdı, onun vəsiyyətinə əməl etdi.

## Tarixin ibrət dərsləri

44 günlük Vətən müharibəsinin Azərbaycan tarixində yeri və rolunu daha aydın dərk etmək üçün və dövlət siyasəti müstəvisində tarixi şəxsiyyətlərin rolu baxımından, düşünürəm ki, müqayisəli tarixi paralellərin aparılması yerinə düşər. Bu fikrin sübutu AXC-Müsavat hakimiyyəti dövründə aparılan xarici siyasətlə müqayisədən aydın görünür.

Öz səriştəsizliyini qardaş Türkiyənin üzərinə yıxan Əbülfəz Elçibəyin 1993-cü ildə "İki helikopter istədik, vermədilər" şəklində nümayiş etdirdiyi davranış 2020-ci ildə Rəcəb Tayyib Ərdoğanın böyük səmimiyyətlə dilindən səslənən "Türk milləti hər zaman olduğu kimi, bu gün də bütün imkanları ilə azərbaycanlı qardaşlarımızın yanındadır" ifadəsi ilə əvəzləndi.

Ötən əsrin 90-cı illərində məhz AXC-Müsavat hakimiyyətinin günahı ucbatından Ermənistana açıq dəstək verən Rusiya 30 ildən sonra Vladimir Putinin deyimində "Qarabağ Azərbaycan ərazisidir" fikri ilə yekunlaşdı. Daha sonra şimal qonşumuzla 2022-ci ildə rəsmiləşən müttəfiqlik münasibətləri bu ilin sentyabr ayında Rusiya sülhməramlılarının müvəqqəti dislokasiya olunduğu ərazidə lokal antiterror tədbirlərinin daha rahat şəkildə həyata keçirilməsi üçün vacib amil rolunu oynadı.

Birinci Qarabağ müharibəsində və ondan sonrakı dövrlərdə ənənəvi güclü erməni lobbisini Azərbaycana qarşı alət kimi istifadə edən ABŞ ikinci Qarabağ müharibəsində və ondan sonra baş verən prosesləri bizi qane edəcək tərzdə müşahidə etməklə kifayətləndi.

İctimaiyyəti qonşu İranın üzərinə qaldıran "cəbhəçi"lərin avantürist siyasətindən fərqli olaraq, həssas məqamların mövcud olduğu İran–Azərbaycan münasibətləri Prezident İlham Əliyevin diplomatik gedişləri sayəsində Azərbaycanın ərazi bütövlüyü məsələsində İranın aydın şəkildə nümayiş etdirilən dostluq münasibətləri ilə səciyyələndi.

Türkiyə və Pakistan kimi ənənəvi dost ölkələrlə münasibətlər daha yüksək səviyyəyə qalxaraq sarsılmaz qardaşlıq birliyinin təcəssümünə çevrildi.

Böyük Britaniya, İsrail, İtaliya, Macarıstan kimi böyük dövlətlərin Azərbaycanı açıq şəkildə müdafiə etməsi müasir diplomatiyamızın zirvə nöqtələridir. Həm yaxın qonşu ölkələr, həm də bir çox digər dövlətlərin bir çoxu bu mücadilədə bizə loyal münasibət göstərmiş, ya da ən azından neytral mövqe nümayiş etdirmişdir.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və türk əsgərlərinin Zəfər paradında iştirakı, müttəfiqlik məsələlərinə dair 2021-ci il 15 iyun tarixli Şuşa Bəyannaməsi Türkiyə–Azərbaycan sarsılmayan birliyinin təcəssümüdür. Azərbaycan, Türkiyə və Pakistanın parlament sədrlərinin Bakı və İstanbul üçtərəfli Bəyannamələri, Bakıda keçirilmiş "Üç Qardaş" beynəlxalq hərbi təlim bütün dünyaya bir daha nümayiş etdirdi ki, bu üç dost və qardaş ölkə bundan sonra da bir-birinin yanında olacaqdır.

## Sülhün və yeni intibah dövrünün astanasında

Beləliklə, bugünkü taleyüklü möhtəşəm uğurlarımıza tarixi proseslər süzgəcindən nəzər saldıqda, Heydər Əliyevin XX əsrdə başladığı və İlham Əliyevin XXI əsrdə yeni keyfiyyətdə davam etdirdiyi siyasi kursun nə dərəcədə doğru olduğuna daha böyük əminlik yaranır. Digər tərəfdən, tarixi Zəfərlə başa çatmış 44 günlük Vətən müharibəsi nəticəsində Qarabağ münaqişəsinə son qoyulmasının qlobal miqyasda və bölgənin perspektiv inkişafı üçün son dərəcə müstəsna əhəmiyyətini dərk etməmək mümkün deyil. Artıq xəyallar gerçəkliyə çevrilib, ermənilərin 200 illik layihəsi tarixin zibilliyinə atılıb. Böyük Qələbənin məntiqi davamı kimi, bu il sentyabrın 19-20 tarixlərində həyata keçirilmiş antiterror tədbirləri ilə Qarabağda 35 illik separatçılığa birdəfəlik son qoyulub. Ölkəmizin bütün ərazisində, xüsusilə, Qarabağın hər yerində suverenliyimiz və Konstitusiya quruluşumuz tam bərpa olunub.

Bununla da, Prezidentimiz, yenilməz sərkərdəmiz cənab İlham Əliyevin Xankəndidə ucaltdığı müqəddəs üçrəngli Dövlət Bayrağı ilə Cənubi Qafqaz regionunda tamamilə yeni geosiyasi reallıqların formalaşması prosesi başa çatıb. Özünü xalqın birinci xidmətçisi elan etmiş dövlətimizin başçısı bu il oktyabrın 15-də 20 illik prezidentlik fəaliyyətinin hesabatını da məhz Xankəndidə verdi: "Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident seçkilərində Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və "Qurani-Kərim"ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi".

Beləliklə, Azərbaycan Prezidenti cənab İlham Əliyev regionumuzu böyük imperiyaların sərvət və geosiyasi maraqları uğrunda yüz illərlə davam edən mübarizə meydanından bölgə xalqlarının birgəyaşayışı, əmin-amanlığı və sülh məkanına çevirmişdir. Bu gün Cənubi Qafqaz öz tarixi, coğrafi, təbii sərhədlərinə qayıtmaqdadır. Bu, indiyədək misli görünməmiş yeni tarixi dönüş mərhələsinin, yeni intibah tarixinin təməlidir. Şübhə yoxdur ki, artıq regional sülh və təhlükəsizlik arxitekturasının real olaraq qurulması ilə səciyyələnən hazırki dövr Azərbaycan tarixində İlham Əliyev dühasının yazdığı növbəti parlaq və şərəfli səhifəyə çevriləcəkdir.

***Əli HÜSEYNLİ,***
***Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri***



# Milli özünüdərk, özünəqayıdış günü

**Kamal ABDULLA,**
**akademik, Xalq yazıçısı**

**Siyasi dairələrdə həmişə belə bir fikir dolaşır: “Müharibə, ən kobud siyasətdir”. Haqq deyimdir. Bəşər tarixi boyunca müharibə adı insan leksikonuna dağıdıcı, məhhvedici amil kimi daxil olmuş, viranəliklə sinonim kimi səslənmişdir. Müharibə daim anaların göz yaşları, körpələrin hıçqırığı, insan ah-naləsi və fəryadı ilə izlənmişdir.**




Amma müharibələr var ki, sülh naminə aparılır, haqqa, ədalətə söykənən bəşəri əmin-amanlığa, azadlığa, milli dirçəlişə xidmət edir. Azərbaycanın erməni işğalçılarına qarşı apardığı müharibə də belə müqəddəs mahiyyət daşımış, cəmiyyətə insanların dərk edə bilmədiyi mənəvi və nurani həzz gətirmişdir. Bu, müharibə deyildi, müqəddəs cihad idi. Öz milli varlığı, heysiyyəti, əzabkeş bir xalqın sındırılmış qüruru, təhqir edilmiş mənəvi varlığı uğrunda aparılan şərəfli mücadilə, ən nəhayət, bu, qədim bir xalqın, əsrlər boyunca ədalətə və haqqa sığınan bir millətin Vətən uğrunda, doğma torpaq, yurd, qədim əraziləri naminə, ən son anda öz torpaqlarında, bununla yanaşı, qonşu diyarlarda sülh və əminamanlıq uğrunda fasiləsiz mübarizəsi idi.

Azərbaycan xalqı tarixən keşməkeşli həyat yaşamışdır. Sülhpərvər, ədalətli, naqislikdən, pisliklərdən uzaq olduğu halda, zaman-zaman özü arzuolunmaz ictimai-siyasi bəlalara tuş gəlmişdir. Hər cəhətdən kamil və qüsursuz bir toplum kimi Azərbaycan xalqı əsrlər boyunca bütün millətlərə, dövlət və ölkələrə tolerant münasibət bəsləmiş, öz sülhsevər, xoşməramlı, multikultural düşüncələrlə öz qonşuları ilə dinc-yanaşı yaşamışdır. Lakin tarix boyu zaman-zaman basqınlar görmüş, təcavüzə məruz qalmış bir xalq, millət kimi əsrlər boyunca ağrı-acılardan keçmişdir. Xalqımızın ən məşəqqətli taleyi isə ermənilərlə qonşuluqdan başlamışdır. Ermənilər zəhərli bir ilan kimi içimizə girmiş, ictimai-siyasi həyatımıza daim narahatlıqlar gətirmişlər. Niyyəti naqis olan ermənilərin əməlləri də şər-böhtan, şantaj və şovinizm üzərində qurulmuşdu. Əsrlər boyu davam edən bu məkr və hiyləyə, ən nəhayət, 2020-ci ildə 44 günlük qələbə müjdəli müharibə ilə son qoyuldu.

Torpaqlarımızın işğaldan azad olunması uğrunda sentyabrın 27-dən başlanan zəfər yürüşümüz tez bir zamanda – 44 gün ərzində yekunlaşdı. Dağlıq Qarabağ da daxil olmaqla, zəbt edilmiş torpaqlarımızın işğaldan azad olunması Azərbaycan xalqının tarixinə parlaq bir səhifə kimi yazıldı. Orta əsrlərdən bəri itirə-itirə gəldiyimiz torpaqlarımız ilk dəfə olaraq geri qaytarıldı. Azərbaycan hələ Ulu öndərin hakimiyyəti illərindən erməni təcavüzü ilə intensiv mübarizə aparır, beynəlxalq güclərin təsir qüvvəsindən istifadə edərək hər vəchlə erməni işğalçılarını neytrallaşdırıb Azərbaycan torpaqlarını xilas etmək yollarını arayırdı. Ulu öndər Qarabağın azad ediləcəyinə həmişə inanmış və bunu dönə-dönə vurğulamışdır: “Biz Qarabağa qayıdacağıq, Qarabağ tarixi Azərbaycan torpağıdır”.

Ümummilli lider Heydər Əliyevin hakimiyyəti dövründə son anda torpaqların azadlığı uğrunda ədalətli müharibənin qaçılmazlığı planı mövcud idi. Lakin bu planı Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan, Ulu öndərin “özü qədər inandığı, gələcəyinə böyük ümidlər bəslədiyi” İlham Əliyevin qətiyyəti, sonsuz mətanəti və sərkərdəlik məharəti ilə Azərbaycanın xilaskar Ordusu həyata keçirdi. Bu qələbə Ali Baş Komandanın ətrafında xalq və ordu birliyinin unikal nümunəsinə çevrildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müharibədən öncə dünya dövlətləri, güc mərkəzləri ilə siyasi dialoqu genişləndirdi, qələbəyə diplomatik zəmin hazırladı. Onun çoxsaylı mətbuat orqanlarına, internet saytlarına verdiyi müsahibələr düşməni siyasi və diplomatik cəhətdən tərksilah etməyin nəzəri bünövrəsini qoydu. İlkin mənada 44 günlük müharibənin taleyi ideoloji zəmində həll edildi. Hər saatı, hər dəqiqəsi gərgin siyasi mübahisə və ikili standartlara xidmət edən bəzi mətbuat nümayəndələri ilə, hətta, münaqişə səviyyəsinə gəlib çatan polemikalarda, cənab İlham Əliyevin qələbəsi ilə başa çatan debatlarda Azərbaycan öncə informasiya müharibəsində qələbə çaldı. İlham Əliyev bu debatlarda siyasi lider kimi mübarizlik rəmzinə çevrildi.

Vətən müharibəsi tarixə Azərbaycan xalqının qürur və iftixar simvolu kimi düşdü. İlham Əliyevin 17 illik hakimiyyəti dövründə, səylə, cəsarətlə, iradi qüvvə ilə hazırlanan planlar, təxminən, 30 illik işğala son qoydu, erməni vandallarının torpağımızdan təmizlənməsini təmin etdi. Bu qələbə nəticəsində Azərbaycanın ərazi bütövlüyü birmənalı şəkildə təsdiq edildi və mümkünsüz görünən bir vəzifə həyata keçirildi.

Bu qələbənin qazanılmasında daxili və xarici amillərin kompleks həlli, bütün resursların qələbəyə yönəldilməsi son anda uğurlu nəticəni təmin eləyən amillərdən birinə çevrildi. Qardaş Türkiyənin, onun prezidenti R.T.Ərdoğanın qətiyyətli mövqeyi, Azərbaycanın həmişə yanında olduğunu nümayiş etdirməsi bu tarixi qələbənin əldə edilməsində siyasi qaranta çevrildi. Azərbaycan Prezidentinin digər dövlət rəhbərləri və siyasi elitası ilə, xüsusən Rusiya Federasiyasının rəhbər heyəti ilə tarazlaşdırılmış siyasi xətt yürütməsi Azərbaycanın qələbəsində böyük rol oynadı. Bir sözlə, cənab Prezidentimiz İlham Əliyev müharibə dövründə, ondan əvvəlki illərdə, sonrakı proseslərdə uzaqgörən siyasi addımlar atmaqla respublikanı lüzumsuz siyasi şantajlardan, diplomatik hədələrdən qurtardı, onun haqq işinin bütün dünya miqyasında, beynəlxalq təşkilatlarda birmənalı şəkildə qəbul edilməsinə zəmin yaratdı.

Bu qələbənin qazanılmasında Azərbaycan cəmiyyətində bərqərar olmuş tolerantlıq, ölkədə “dövlət siyasəti və həyat tərzinə” çevrilmiş multikultural düşüncə tərzi də böyük rol oynamışdır. Azsaylı xalqların döyüşlərdə verdiyi şəhidlər çox vaxt titul xalqın şəhidlərinə bərabər sayda olurdu. Bu döyüşlər zamanı kimin hansı kənddən, hansı şəhərdən, hansı eldən-obadan olması, hansı millətə mənsubluğu soruşulmurdu. Döyüşdə hamı azərbaycanlı idi, hamı Azərbaycan vətəndaşı kimi vuruşurdu. Bu, qələbəni təmin edən mənəvi birliyin, monolitliyin yaranmasına səbəb olan başlıca amillərdən idi.

Müharibənin ilk günlərindən Azərbaycan Ordusu zorakılıqdan uzaq, düşünülmüş, ağla, zəkaya söykənmiş, müasir texnika və texnologiyalardan istifadə edərək, ədalətli müharibə aparmış, döyüş vaxtı ancaq hərbi obyektləri hədəfə almış, dinc əhaliyə zərər vurmamışdır. Düşmənin illərdən bəri möhkəmləndirilmiş səngərləri, sədləri və istehkamları bir göz qırpımında aşılıb keçilmiş, müasir döyüş taktikalarının görünməmiş nümunələri tətbiq edilmişdir. Prezident İlham Əliyev döyüşləri xarakterizə edəndə Azərbaycan Ordusunun müasir texniki vasitələrdən bacarıqla istifadə etməsini, müharibənin gedişində humanist hərəkətlər nümayiş etdirməsini xüsusi vurğulamışdır: “Bu gün Azərbaycan Ordusu güclü ordudur. Bütün beynəlxalq reytinqlərə görə, o, dünyanın ən güclü 50 ordusunun siyahısına daxildir. Azərbaycan 44 gün ərzində parlaq Qələbə qazanaraq, Ermənistanı məğlub etdi, işğala son qoydu. Hər gün Azərbaycan Ordusu irəli gedirdi, hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edilirdi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, bu işğala son qoyulsun, bu haqsızlığa son qoyulsun, ədalət zəfər çalsın… Buna nail olduq. Bizim şanlı ordumuzun 44 günlük müharibəsi XXI əsrin müharibəsidir”.

Vətən müharibəsnin dönüş nöqtələri, mühüm mərhələləri, qələbənin təminatında həlledici rol oynamış döyüş səhnələri xüsusi diqqətə layiqdir. Şuşa qalasının, Şuşa şəhərinin azad edilməsi bu mənada ciddi əhəmiyyətə malik hadisə idi. Bu, demək olar ki, müharibənin taleyini həll edən amilə çevrildi. Ulu öndər təsadüfən demirdi: “Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur”. Şuşa uğrunda mürəkkəb və cəsarətli döyüş səhnələri, həqiqətən də, dünya hərb tarixinin misilsiz bir səhifəsini təşkil edir. Təsadüfi deyildir ki, Prezident İlham Əliyev bu döyüş haqqında xüsusi fəxarətlə danışır, onun hərbi-siyasi məziyyətlərini çox yüksək qiymətləndirir: “Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi. Ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaq. Çünki bu əməliyyatı bizim qəhrəman hərbçilərimiz dağlardan, meşələrdən, cığırlardan keçərək yalnız yüngül silahlarla silahlanmış şəkildə azad ediblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı qələbəmizdir”.

Şuşaya diqqət, Şuşaya həssas yanaşma, qayğı və canyananlıq təsadüfi deyil. Şuşa Qarabağın baş tacıdır, elm, mədəniyyət mərkəzidir, Azərbaycanın etnoqrafik muzeyidir, folklor yaddaşıdır. Azərbaycanın varlığı, həm də Şuşadan keçir. Şuşanın azad edilməsi Ulu öndərin ən ülvi arzularından biri idi. Təsadüfi deyil ki, İlham Əliyev Şuşa azad olunduqdan dərhal sonra ilk hesabatı Ulu öndərin məzarı başında verdi: “Mən bu gün Ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim, Şuşanı azad etdik. Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!”

Şuşa öz tarixi missiyasını yenidən ləyaqətlə yaşayır. Beynəlxalq tədbirlərə ev sahibliyi etmək, müxtəlif mədəni-kütləvi yığıncaqların mərkəzinə çevrilmək onun yeni beynəlxalq statusuna aiddir. Şuşa az bir müddətdə sürətli inkişaf yoluna qədəm qoyub, əsl müasir, modern şəhər simasını almağa başlayıb. Şuşa bu gün bütün mədəni dünyanın diqqət mərkəzində olan bir şəhər kimi sivilizasiya mərkəzinə çevrilməkdədir. Bu, cənab Prezidentimizin xüsusi diqqət və qayğısı ilədir.

Müharibə qansız-qadasız ötüşmür. İstər ədalətli, istərsə də işğalçılıq müharibəsi olsun, hər biri öz izlərini dağıntılarla, itkilərlə, qan-qada ilə qoyur. Vətən müharibəsində Azərbaycanın itkiləri az olmadı. Şəhərlər, kəndlər dağıldı, evlər-eşiklər viran qaldı, yüzlərlə insan qaçqın halında öz yurd-yuvasından didərgin düşdü, genefondumuza zərbə dəydi, gələcəyin neçə-neçə qurucusu öz canı ilə hesabat verib şəhidlik zirvəsinə qovuşdu. Bunlar artıq tarixdir. Amma itkilərimizə baxmayaraq, biz qürur mənbəyimiz olan ərazi bütövlüyümüzü təmin etdik, xalqımızın milli mənliyini özünə qaytardıq.

Vətən müharibəsi dövründə torpaqlarımızın azad edilməsində, ərazi bütövlüyümüzün bərpasında müəyyən kəm-kəsirlər qalmışdı. Qarabağ torpaqlarının müəyyən bir hissəsinə hələ də erməni silahlı dəstələri nəzarət edirdi, Xankəndi separatizm yuvası kimi fəaliyyət göstərirdi. Bu mərhələ də cari ilin sentyabr ayında keçirilən birgünlük lokal antiterror əməliyyatı ilə başa çatdı, ölkəmizin suverenliyi, Konstitusiya hüququ tam bərpa edildi. Yenə də Ali Baş Komandanın qətiyyəti, cəsarəti, şəxsi təşəbbüsü Qələbəni təmin etdi. O, yenə də bəzi şəkkaklara ustad dərsi keçdi, “nəyin nə zaman həll edilməsini yaxşı bildiyini” bir daha sübut etdi.

Biz bu gün qalib xalq olaraq yaşayırıq. Qalibiyyətin dadı şirindir, ruhlandırı-cıdır, qürurvericidir. Lakin biz lovğalanmırıq, bu qalibiyyətimizdən, heç də sui-istifadə etmirik. Bu gün biz yenə də sadə arzularla sülh, əmin-amanlıq, sakitlik, dinc quruculuq haqqında düşünürük, bütün Cənubi Qafqazda sülhün qarantı kimi çıxış edirik. Biz Ermənistana bütün bu qanlı olaylardan sonra yenə də sülh təklifləri edirik. Lakin bütün bunlara rəğmən, Ermənistan yenə də müxtəlif siyasi manipulyasiyalarla manevrlər edir, sülh danışıqlarından yayınır, revanşist hərəkətlərlə bölgədə çaxnaşma salmaqda meyilli olduğundan əl çəkmir. Cənab Prezident İlham Əliyev bu istiqamətdə beynəlxalq səylərini bu gün də əsirgəmir, Vətən müharibəsinin sülh müjdəsini reallaşdırmaq üçün əlindən gələni edir. Bu, bütünlükdə Azərbaycan dövlətinin, bütün azərbaycanlıların istəyidir.

Hamımızın qürur duyduğumuz Zəfər Günümüz mübarək! Bu, bizim milli qürur günümüzdür, milli ləyaqətimizin günüdür, milli özünüdərk, milli özünəqayıdış günümüşdür!

# Zəfərə aparan yollarla...

**ELÇİN,**
**Xalq yazıçısı**

**Mən bilirdim ki, yalnız işğal edilmiş rayonlarımız yox, bütün Qarabağ azad olunacaq, çünki Azərbaycan Qarabağsız ola bilməz, bu, genetik bir bağlılıqdır və Prezident İlham Əliyev mütləq buna nail olacaq. Ancaq Zəfərdən sonra Şuşada da etiraf etdiyim kimi, düşünürdüm ki, mən şəxsən bunu görməyəcəyəm, bunu bizim övladlarımız, nəvələrimiz görəcək.**

Mən ona görə belə düşünürdüm ki, dünyanı ikili siyasi standartlar idarə edir və ancaq Prezidentimiz bu güclü və qoluzorlu ikili standartlar dünyasında ortaya son dərəcə cəsarətli və cəsarətli olduğu qədər də qətiyyətli, prinsipial tarixi iradə qoydu.

Qəsbkar ərazilərimizdən qovuldu.

Məğlub yalnız qəsbkarlar deyildi, o ikili siyasi standarlar da məğlub oldu.

Bu gün Xankəndidə Azərbaycanın bayrağı dalğalanır.

Mən tamam əminəm və artıq bunun bilavasitə şahidiyik: Qarabağ bundan sonra qat-qat daha artıq gözəlləşəcək, müasirləşəcək, daha aprtıq inkişaf edəcək, daha artıq bir eşqlə böyük sənətkarlar, böyük vətəndaşlar yetişdirəcək və ərazi bütövlüyünün dəyişməzliyi əldə bayraq edilir.

Erməni millətçiliyi başqa bir dövlətin ərazisində ikinci bir dövlət yaratmaq istəyirdi, ancaq həmin ərazi bütövlüyünün dəyişməzliyi nəinki yada düşmədi, əksinə, bir çox hallarda açıq, ya da dolayısı yolla müdafiə olundu.

Bu gün Azərbaycan öz ərazi bütövlüyünü tam şəkildə və əbədi olaraq təmin edib, ancaq baxın, Avropanın böyük bir dövlətinin başçısı haray salır ki, Azərbaycan Qarabağı (“Arsaxı” - ???) işğal edir, guya, etnik təmizləmə aparır, başqa bir superdövlət isə əslində, “Arsax” seperatçılarını müdaifə etməklə, onlara yardım göstərməklə məşğuldur.

Yaxud Avropanın ən geridə qalmış




Azərbaycanın gələcək tarix kitablarında, salnamələrində azad Qarabağın adı Ali Baş Komandanın – İlham Əliyevin adı ilə qoşa yazılacaq.

Mənim təsəvvürümdə Qarabağ canlı bir orqanizmdir. Biz 30 il Qarabağ ağrısı ilə yaşadıq, ancaq bu 30 ildə Qarabağın özü də həsrət və ağrı içində idi, bu canlı orqanizm doğma xalqının yolunu gözləyirdi və nəhayət ki, Qarabağ bu həsrət əsarətindən, bu ağrıdan xilas oldu.

44 günlük azadlıq vuruşunda Ali Baş Komandan da, generallar da, zabitlər də sıravi Azərbaycan əsgəri idi. Ali Baş Komandan həm də o 44 gündə Azərbaycan xalqının, ədalətin və prinsipallığın tribunu idi. Bu tribunun səsi hər bir azərbaycanlının ürəyinə sərin su səpdiyi kimi, Azərbaycanın sədası kimi dünyaya da yayılırdı.

Mən o 44 günün birində – sentyabrın 20-də Azərbaycan əsgərinə belə bir məktub yazmışdım:

***“Ey əsgər! Mənim əziz dostum!***

***Sən bu gün yalnız özünü təsdiq etmirsən. Bu gün sən bütün Azərbaycanı təsdiq edirsən. Azərbaycanın bu günü ilə bərabər, onun tarixini və gələcəyini təsdiq edirsən.***

***Sən qəhrəmansan, igidsən, cəsursan, sən düşməni torpağımızdan qovursan və sən bu qəhrəmanlıqla, igidliklə, cəsurluqla bütün Azərbaycana şərəf gətirirsən.***

***Sən tariximiz qarşısında Azərbaycanı üzüağ, alnıaçıq, başıuca edirsən. Vətəni gələcək nəsillərə bütöv Azərbaycan kimi miras qoyursan.***

***Mənim əziz əsgərim!***

***Sən bu müqəddəs yolda şəhid də olursan və bu şəhidlik səni əbədiyyətə aparır, əbədi qəhrəmanlığa.***

***Gələcək nəsillər bu torpaq üzərində sənin nəfəsinlə nəfəs alacaq.***

***Nəsillər bir-birini əvəz edəcək və sən daima o nəsillərin müasiri olacaqsan, o nəsillərlə bir yerdə quracaqsan, yaradacaqsan.***

***Sənin əməlin də, gəncliyin kimi tərtəmizdir, ləkəsizdir, şəffafdır.***

***Əlbəttə, Azərbaycanda sənin əzəmətli heykəlin ucaldılacaq, ancaq mən elə indidən sənin qarşında baş əyirəm, mənim əziz əsgərim.***

***20 oktyabr 2020.”***

Bu gün bizim hamımızın, bütün Azərbaycan xalqının sevinci, fərəh hissi, qüruru, eyni zamanda, Qarabağın özünün də sevincidir, Qarabağın da qürurudur.Bu sevincdə, qürurda həmin əsgərin də ən şərəfli, ehtiramlı və şanlı payı var.

“Qarabağ Azçərbaycandır!” – bu gün elə həmin fəxrlə, həmin qürurla bu sözləri söyləyən Azərbaycan xalqı heç vaxt olmadığı dərəcədə bir birlik nümayiş etdirir.

Əgər bu gün övladını itirmiş ana: “Vətən var olsun!” – deyirsə, əgər bu gün ocağı dağıdılmış ata: “Bu ev-eşik əsgərimizin dırnağına da dəyməz!” – deyirsə, bu, həmin birliyin mənəvi miqyasının nə qədər geniş və zəngin olduğunun göstəricisidir.

Mən dedim ki, bizim müasir dünyamız ikili siyasi standartlar dünyasıdır.

Şimali İrlandiya xalqı Böyük Britaniyadan ayrılmaq, öz əzəli torpağında müstəqil yaşamaq istəyir – dərhal dövlətlərin ərazi bütövlüyünün dəyişməzliyi yada düşür.

Kataloniya xalqı səs verərək, İspaniyadan ayrılmaq, öz əzəli torpağında müstəqil yaşamaq istəyir– yenə də dərhal ölkələrinə Avropa İttifaqının qapıları taybatay açılır, onlar İttifaqa üzv qəbul edilir, Türkiyə isə min bir bəhanə ilə kənarlaşdırılır.

İki NATO ölkəsi – Türkiyə ilə Yunanıstan arasında gərginlik yarananda elə həmin böyük NATO ölkələri ya açıq, ya da dolayısı ilə Yunanıstanı müdafiə edirlər.

Bu misalların sayını çox uzatmaq da olar, ancaq iş burasındadır ki, bütün bunlara baxmayaraq, üçrəngli Azərbaycan Bayrağı Xankəndidə dalğalanmaqdadır və daima bu cür də dalğalanacaq.

Həmin ikili standartlara arxalanan və bundan sui-istifadə edən Ermənistanın təcavüzünə qarşı mübarizəmiz Vətən müharibəsinə çevrildi. Bu müharibədə bizim ən böyük müttəfiqimiz isə həqiqət oldu.

Bundan sonra da Azərbaycanın qələbələri davam edəcək – siyasi qələbələri, mədəni, elmi, iqtisadi qələbələri və Vətənimiz sivil bir Avropa ölkəsi kimi dünya birliyində öz layiqli yerini daha da artıq möhkəmlədəcək, daha artıq nufuz və hörmət qazanacaq.

Xudafərin körpüsü Azərbaycanı yenə öz tarixi keçmişi ilə birləşdirdi və bizim gələcəyimiz o zəngin tarixi keçmişimizin davamıdır.

Bu böyük Zəfər Azərbaycan – Türkiyə qardaşlığını daha artıq doğmalaşdırdı və münasibətlərimiz daha fədakar, daha əməli, işgüzar və daha fərəhli bir mərhələyə keçdi.

Biz yaxşı bilirik ki, atalar sözu yüzilliklərin sınağından keçərək özünü təsdiq edir, ancaq baxın: “Bir millət, iki dövlət” deyimi qısa bir müddətdə Azərbaycanda da, Türkiyədə də atalar sözünə çevrildi, Ulu öndərin yaratdığı bu atalar sözü bu gün yeni çalarlar qazanır, münasibətlərə yeni və isti nəfəs verir.

Yaxınlarda mən belə bir məlumat oxudum ki, Ermənistanın tanınmış jurnalisti Yeva Abramyan 44 günlük Vətən müharibəsi zamanı Gəncəyə raket atılarkən uşaqların, qadınların da qətlə yetirilməsindən ruhlanaraq, orduya çağırış edib ki, Azərbaycanın dinc əhalisini daha artıq qətlə yetirmək, onlara daha artıq raketlər atmaq, uşağa, qocaya aman vermədən, hamısını məhv etmək lazımdır. Yeva Abramyan qadındır və baxın, qərəz, kin-küdurət qadını, yəni, ananı əsl yırtıcıya çevirib.

Və mən fikirləşdim ki, qadını yırtıcıya çevrilmiş xalq – əbədi olaraq məğlublar sırasında qalacaq. Qadını yırtıcıya çevrilmiş xalq üçün bundan böyük faciə ola bilməz.

Ancaq xalq Yeva Abramyanların yaratdığı belə bir faciə ilə barışacaqsa, bu, daha böyük bir mənəvi faciə olacaq.

Azərbaycan Böyük Zəfərin üç illiyini bayram edir və bu Azərbaycan xalqının əbədi bir bayramıdır.

Mən çox təəssüf edirəm ki, ürəyi Qarabağ yarası ilə ağrıyan, bütün mənəvi dünyası ilə Azərbaycana, Azərbaycanın içində də Qarabağa bağlı olan və vəzifəsindən, peşəsindən asılı olmayaraq, minlərlə vətəndaşımız bu Zəfəri görə, bu sevinci yaşaya bilmədilər.

Ancaq bu böyük Zəfər real sevinc, real fərəh, real qürurla bərabər, mənim içimdə mistik bir reallıq da yaradıb. Və mən inanıram, qətiyyən şübhə etmirəm ki, o insanların ruhları Zəfər bayramında göylərdən bizə baxırlar və hər şeyi görürlər. Qarabağ sevinci o ali məqamda da onlarla bir yerdədir.

# Bir kərə yüksələn bayraq...

**Noyabrın 9-u Dövlət Bayrağı Günüdür. Bayraq da torpaq kimi, uğrunda ölənlərin tapındığı müqəddəs bir varlıqdır. Vətəni olan, dövləti olan hər bir şəxsin şüurunda və ürəyində uğrunda ölməyə hazır olduğu bir bayraq var. Bu bayraq həmişə azadlıq və istiqlal uğrunda müqəddəs savaşa gedənlərin başı üstündə dalğalanır.**

Üçrəngli Dövlət Bayrağımız ilk dəfə 1918-ci il noyabrın 9-da Bakıda, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin iclasında qəbul edilib və iclasın keçirildiyi Nazirlər Şurasının binası üzərində qaldırılıb. "Bir kərə yüksələn bayraq bir daha enməz" deyən Məhəmməd Əmin Rəsulzadə bu bayrağı Azərbaycan xalqına miras qoydu.

Az sonra bayrağımızı binalarımızın üzərindən endirsələr də bu bayraq ətrafında birləşən milyonlarla insanın ürəyindən çıxara bilmədilər. Düz 70 il sonra, 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Heydər Əliyevin sədrliyi ilə keçirilən sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı muxtar respublikanın bayrağı kimi qəbul olundu. 1991-ci il fevralın 5-də isə üçrəngli bayrağımız Azərbaycan Respublikasının Ali Soveti tərəfindən təsdiq olundu. 2009-cu il noyabrın 17-də Azərbaycan Prezidenti İlham Əliyev Dövlət Bayrağı Gününün təsis edilməsi ilə bağlı sərəncam imzaladı. Sərəncama görə, noyabrın 9-u ölkəmizdə Dövlət Bayrağı Günü elan edildi. Beləcə xalq öz İstiqlal bayrağına qovuşdu.



**Bayraq mənliyimdir, bayraq kimliyim,**
**Bayraq öz yurduma öz hakimliyim.**

Böyük şairimiz Bəxtiyar Vahabzadə bu iki misrada bayrağımızın ən dərin mənəvi dəyərini ifadə edib. Babalarımızdan bizə miras qalan, şəhidlərimizin və qazilərimizin qanlı döyüşlərdən keçirib başımız üstündə ucaltdığı Azərbaycan bayrağı xalqımızın bu qəhrəmanlığını bütün dünyaya tanıtdıran kimliyimizdir. Bayraq milli identikliyimizin nişanıdır.

Ən müqəddəs rəmzlərdən biri sayılan bayraq bir millətin varlığının, mövcudluğunun sübutu, müstəqil dövlətə sahib çıxmaq bacarığının əsas göstəricisidir. Onun ucalığını, böyüklüyünü, müqəddəsliyini dilə gətirən Ulu öndər Heydər Əliyev "Azərbaycan Dövlətinin Bayrağı gərək hər bir ailənin həyatının əziz bir hissəsi olsun!" – deyərək, hələ o zaman hər bir azərbaycanlını bu müqəddəs bayraq ətrafında birləşməyə çağırırdı. O deyirdi: "Biz öz himnimizi, bayrağımızı özümüz qədər sevməliyik. Çünki bu, bizim Vətənimizə, millətimizə, dövlətimizə olan sədaqət, sevgi və məhəbbətin rəmzidir."

Üçrəngli bayrağımız haqqında böyük məhəbbətlə danışan Heydər Əliyev deyirdi: "Kim Azərbaycanı sevirsə, kim Azərbaycanın müstəqil dövlət olmasını istəyirsə, kim Azərbaycanın işğal olunmuş torpaqlarının azad olunmasını istəyirsə, kim Azərbaycanın ərazi bütövlüyünü istəyirsə, o, bu bayraq altında birləşməlidir". Bayrağımızın bütün işğal olunmuş torpaqlarımızda dalğalanacağına əmin olduğunu dönə-dönə vurğulayan Heydər Əliyev beləcə xalqın mübarizə əzmini mətinləşdirir, qələbə inamını möhkəmləndirirdi.

Azərbaycan xalqı öz bayraq sevgisini döyüş cəbhələrində göstərdi. On minlərlə gənc bu bayrağa sarıldı. Ali Baş Komandan İlham Əliyevin bir çağırışına cavab olaraq düşmən üstünə yeridi, işğal altında qalan torpaqlarımızı azad etdi. Bu bayraq altında gənc oğullarımız azadlıq və müstəqillik uğrunda canlarını verdilər, amma bayrağımızı enməyə qoymadılar. Onu Azərbaycan ərazisinin hər bir guşəsində dalğalandırdılar. Allah bütün şəhidlərimizə rəhmət eləsin!

Bu gün Azərbaycanın Bayrağı Şuşada, Xankəndidə və bütün işğala məruz qalmış torpaqlarımızda qürurla dalğalanmaqdadır. Prezident İlham Əliyevin dediyi kimi, "Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan bu bayraq bizim azadlıq məfkurəsinə, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyimizi nümayiş etdirir".

Bu bayraq daim var olacaq, Azərbaycan varlığını, Azərbaycan dövlətinin gücünü və qüdrətini bütün dünyaya tanıtdıracaq!

Bayrağımız həmişə uca olsun!

***Cavanşir FEYZİYEV,***
***Milli Məclisin deputatı***

## 8 Noyabr Şuşa Şəhəri Günüdür

**Şuşa xalqımızın tarixində və taleyində xüsusi yeri olan bir şəhərdir. Halallığı, ləyaqəti hər şeydən üstün tutan bir millətin mənəviyyat tacıdır Şuşa! Onun 27 il düşmən əsarətində qalması hər birimizin ürəyini sızladırdı. İlahi ədalət öz yerini tapmalı idi və tapdı da!**



# Şuşa – qeyrət və qürur qalası

Xatırladaq ki, təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan və 270 illiyi qeyd olunan Şuşa şəhəri zəngin inkişaf yolu keçmiş, Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni və ictimai-siyasi həyatında müstəsna rol oynamışdır.

Bənzərsiz tarixi görkəmini və formalaşdırdığı özünəməxsus mühiti həmişə qoruyub saxlayan bu şəhər yetirdiyi böyük şəxsiyyətləri ilə ədəbi, mədəni, elmi və ictimai fikir salnaməmizə əlamətdar səhifələr yazmışdır.

Şuşa şəhərinin ötən əsrin 70-ci illərində sürətli inkişafı Ümummilli lider Heydər Əliyevin adı ilə sıx bağlıdır. Şəhərin inkişafına dair xüsusi qərarlar məhz Ulu Öndərin təşəbbüsü ilə qəbul edilmişdir. Həmin vaxtdan Şuşada quruculuq işləri geniş vüsət almış, mədəniyyət xadimlərimizin xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atılmışdır.

Strateji mövqeyi ilə seçilən Şuşa Azərbaycana qarşı hərbi təcavüzə başlamış Ermənistanın silahlı qüvvələri tərəfindən 1992-ci il mayın 8-də işğala məruz qalmışdır. İşğal dövründə şəhərdəki yüzlərlə tarix və mədəniyyət yadigarı vandalizm aktları nəticəsində dağıdılmışdır.

Nəhayət, yazının əvvəlində qeyd etdiyimiz kimi, haqq işi naminə apardığımız



44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu Şuşa şəhərini 2020-ci il noyabrın 8-də işğaldan azad etdi.

Ermənistanın kapitulyasiyasına yol açan Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq ruhunun təntənəsinə çevrilərək, tariximizə Zəfər Günü kimi həkk olundu.

Bu, xoşbəxt gün 2020-ci ilin noyabrın 8-də baş verdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu yüksək qəhrəmanlıq nümayiş etdirərək coğrafi mövqeyinə görə alınmaz qala sayılan Şuşanı düşməndən azad etdi.

Bu, müqəddəs döyüş idi. Bu, millətin şərəf və namus savaşı idi! Bu, qəlbimizi əbədi qürur hissi ilə dolduracaq tarixi hadisə idi. Bu, Çanaqqala (1915), Bakının azad edilməsi (1918) savaşları qədər taleyüklü qələbə idi. Bu, millətin Tarixi Zəfəri idi!

Prezident İlham Əliyev Şuşanın azad edilməsi ilə bağlı müjdəni Azərbaycan xalqına hər bir soydaşımız üçün müqəddəs məkan olan Şəhidlər Xiyabanından verdi:

– Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!

Bu xoş xəbər Azərbaycanı ayaq üstə qaldırdı. İnsanlar sonsuz bir coşqu ilə küçələrə, meydanlara axışaraq qürur və böyük sevinc dolu hisslərini paylaşır, bir-birinə gözaydınlığı verirdilər.



**"Əziz Şuşa, sən azadsan!**
**Əziz Şuşa, biz qayıtmışıq!**
**Əziz Şuşa, biz səni dirçəldəcəyik!"**

Prezident İlham Əliyevin dilindən səslənən bu sözlər bu gün də ürəklərdə böyük əks-səda doğurur. Bəli, 2020-ci il noyabrın 8-i Şanlı Qələbəmiz, Zəfər günü kimi Azərbaycan tarixinə əbədi yazıldı!

Qeyd etmək lazımdır ki, Şuşanın azad edilməsi əməliyyatı Azərbaycanın hərb tarixinin ən parlaq səhifələrindən biridir. Milli Ordunun əsgər və zabitləri mümkünsüz görünəni mümkün etdilər. Dünyanın ən ünlü siyasətçiləri ordumuzun hünərinə heyran qalmışdılar. Dünyanın hərbi strateqləri Şuşa döyüşü ilə bağlı heyrətlərini indi də gizlədə bilmirlər!

Bu gün Şuşanın bayramıdır. Azərbaycan Prezidentinin 31 iyul 2023-cü il sərəncamına əsasən 8 noyabr Şuşa şəhəri günü elan edilib. Şuşanın ad günü həm də Zəfər günümüzdür! Bayramın mübarək, əziz Şuşam!

Şuşa bütün türk dünyası üçün müqəddəs bir məkandır. Şuşa bütün türk xalqları üçün əsl dostluq və qardaşlıq rəmzinə çevrilib.

2020-ci il iyunun 15-də Şuşada Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"ni imzalayıb.

Türkiyə Prezidenti deyibdir: "Şuşanın dağlarının başındakı duman artıq dərdli deyil. Girov qalmış Xarı bülbül artıq azaddır və daha gözəl açacaqdır. Kondələnçay artıq daha coşqun axacaq. Araz nəğməsini daha güclü oxuyacaq. Qarabağ şikəstəsini oxuyan nəfəslər daha yüksək, daha güclü olacaqdır".

Təsadüfi deyil ki, Şuşanın işğaldan azad olunduğu gün Prezidentin Sərəncamı ilə Zəfər günü elan edildi.

Şuşa Zəfərindən dərhal sonra şəhərdə infrastrukturun qurulması ilə yanaşı, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılmış, quruculuq işlərinin təşkilində çevikliyin, səmərəliliyin təmin olunması üçün dövlət idarəetməsinə böyük diqqət yetirilmiş, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi yaradılmışdır.

2022-ci ildə Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Qısa müddətdə Şuşanın Baş planının hazırlanması, qüdrətli şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir Hacıbəylinin heykəlinin açılışları, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir.

Cıdır düzündə "Xarıbülbül" musiqi festivalının və Vaqifin möhtəşəm məqbərəsi önündə Vaqif Poeziya Günlərinin təşkili ənənəsinin bərpası da göstərir ki, Şuşa sürətlə dirçələrək əvvəlki dolğun mədəni həyatına qovuşmaq yolundadır.

Şuşanın qeyri-adi bir aurası var. Buraya bir dəfə gələn insan onun saflığına, gözəlliyinə qəlbən elə vurulur ki, bir daha onu ziyarət etmək istəyir. Şuşa millətin qəlbində əbədi yaşayan böyük bayramdır. Bayramın mübarək, Azərbaycan!

Şuşa dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək. Xalqımız əzəli yurd yerlərimizdə əbədi yaşayacaq. Şuşa bizimdir! Qarabağ Azərbaycandır!

***Məsaim ABDULLAYEV***
***XQ***

# Ulu öndərə həsr olunmuş müsabiqə



**Dünən Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr edilən "Nə? Harada? Nə zaman?" intellektual oyununun final mərhələsinin mükafatlandırma mərasimi keçirilib.**

YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov "Nə? Harada? Nə zaman?" intellektual oyununun nəticələri barədə hesabat verib. O bildirib ki, intellektual oyunun əsas məqsədi Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar silsilə tədbirlərin əhatə dairəsinin genişləndirilməsi, o cümlədən YAP üzvü və bitərəf gənclər arasında şəbəkələşmənin dərinləşdirilməsi, Ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti haqqında gənclərin bilik səviyyəsinin artırılması və gənclərin intellektual inkişafının komanda ruhunda işləmək bacarıqlarının təşviqi olub.

Mərasimdə I, II, III yerləri tutmuş Səbail, Hacıqabul və Nərimanov komandalarının oyunçuları müvafiq diplomlar, medallar və xatirə hədiyyələri ilə, qalib komanda isə əlavə olaraq kubokla təltif olunub.

YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, bu yarışma gənclərimizin intellektual inkişafı, onların şəbəkələşməsi, dostluq əlaqələrinin qurulması və müasir tariximizdə baş verən hadisələrin daha dərindən öyrənilməsi baxımındanönəmli hadisə olub. O, iştirakçıları 8 Noyabr – Zəfər Günü və 9 Noyabr – Dövlət Bayrağı Günü münasibətilə tədbir təbrik edib.

Sonra YAP Sədrinin müavini "Şərəf" ordeni ilə təltif edilmiş Əli Həsənova və 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmiş Sudeif İmamverdiyevə ordenləri təqdim edib.

Daha sonra Yeni Azərbaycan Partiyasının Himninin təqdimatı olub.

**XQ**

# "Dəmir yumruğ"un möcüzəsi

**Ədliyyə Nazirliyi Penitensiar xidmətin Baş idarəsində 8 Noyabr – Zəfər Günü münasibətilə tədbir keçirilib.**



Tədbirdə ədliyyə nazirinin müavini – Penitensiar xidmətin rəisi, ədliyyə polkovniki Mirsaleh Seyidov çıxış edərək 44 günlük Vətən müharibəsində qazanılan böyük Zəfərin və lokal antiterror tədbirlərinin uğurlu nəticəsindən söz açıb, 8 Noyabr – Zəfər Gününün xalqımızın qürur mənbəyinə çevrildiyini qeyd edib. Bildirilib ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev, onun formalaşdırdığı yenilməz Ordu və "Dəmir yumruğ"a çevrilmiş xalq Ulu öndərin ən ümdə arzusunu 17 ildən sonra gerçəkləşdirdi.

Birinci vitse-prezident Mehriban Əliyevanın şəhidlərin xatirəsinin əbədiləşməsinə, şəhid ailələrinin, qazilərin hərtərəfli qayğı ilə əhatə olunmasına xüsusi diqqət yetirdiyi diqqətə çatdırılıb.

Tədbirin sonunda 44 günlük Vətən müharibəsinə həsr olunmuş film izlənilib.

**XQ**

# Zəfər belə qazanıldı

**2003-cü il avqust ayının 30-u idi. Türkiyə Cümhuriyyətinin ölkəmizdəki səfirliyi Qurtuluş Savaşında tarixi Zəfərin 81-ci ildönümü münasibətilə Bakı Əyləncə Mərkəzində qəbul təşkil etmişdi. Səfir Əhməd Ünal Çeviköz (sonralar, təəssüf ki, zəfərimizə kölgə salmaq yolunu tutdu) rəsmi qonaq kimi mənim də bir neçə kəlmə söyləməyimi xahiş etdi. Təbii ki, ölkə rəhbərliyinin təbrikini çatdırdım. Qurtuluş Savaşında türk xalqının qəhrəmanlığından, Atatürkün dahiliyindən, 1922-ci ilin avqustunda qazanılan böyük Zəfərin Türkiyə Cümhuriyyəti və bütün Türk dünyası üçün əhəmiyyətindən danışdım. Türk əsgərini – mehmetciyi şükranlıqla andım.**

Çıxışımı, təxminən, belə bitirdim: "Türk xalqı 81 il əvvəl tarixə öz möhürünü vurdu. Vətənini yadelli işğalçılardan azad edib şanlı zəfər qazandı. Bu gün Azərbaycan torpaqları erməni işğalı altındadır. Bizim xalqın da öz Zəfər bayramına ehtiyacı var. Biz də belə bayramı haqq etmişik və inanıram ki, mütləq zəfər çalacağıq".

Həmin anda dediklərimə özüm inanırdımmı? Prinsip etibarı ilə erməni işğalına uğramış torpaqlarımızın, şəhər və kəndlərimizin günün birində mütləq azad ediləcəyinə hamı kimi mənim də inamım böyük idi. Başqa cür mümkün deyildi. Əks-təqdirdə bir millət kimi yaşamağa mənəvi haqqımız olmazdı. Amma "Mən o günü görə biləcəyəmmi?" – sualının cavabında istər-istəməz tərəddüd edirdim.

Zəfərə inandığımı dediyim 2003-cü ilin avqustunda torpaqlarımızın, təxminən, beşdə bir hissəsi artıq on ildən çox idi ki, düşmən tapdağı altında idi.

Bizim də öz Zəfər bayramımız olacaq dediyim 2003-cü ilin avqustundan sonra o müqəddəs günü daha on yeddi il iki ay gözləmək lazım gəldi.

Məğlubiyyətlərimizin ən böyüyü, ən acısı indi uzaq görünən 1992-ci il mayın 8-də Qarabağın tacı, Məkkəmiz, Mədinəmiz timsalında olan Şuşanı itirməyimiz idi.

Ona görə də tarixi torpaqlarımızın hər qarışının geri alınmasını böyük nemət saysaq da, yalnız Şuşaşın işğaldan azad edilməsi Zəfər Günü adlana bilərdi.

Bu günü isə xalqımız 28 ildən çox gözləməli oldu. Minlərlə insanımız ürəyində Qarabağ dərdi, Şuşa xiffəti, yurdun torpağına üz sürtmək həsrətilə dünyadan köçmüşdü.

Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin sevinc və qürur dolu "Əziz Şuşa, sən azadsan!" – mesajını verdiyi 8 noyabr günü 28 il ərzində çəkilən əzab və sıxıntılara, məhrumiyyət və acılara ən şəfalı məlhəm oldu. Xalqımızın müasir tarixinə Zəfər Günü kimi daxil oldu. Biz də öz Zəfər bayramını qeyd etmək haqqı qazanan qürurlu, alnıaçıq millətə çevrildik.

Zəfər mesajını ölkəmizi səfir kimi təmsil etdiyim Budapeştdə eşitdim. Təbii ki, milyonlarla həmvətənimiz kimi sevincdən özümə yer tapa bilmirdim. Xəyalən 1992-ci ilin 8 mayına, Şuşanın süqutu xəbərinin alındığı dəhşətli günə qayıtdım. Onda da özümə yer tapa bilmirdim. Milli heysiyyətimizə vurulan zərbədən, dərddən, əzabdan, hər şeyin sonu kimi görünən Şuşa itkisindən...

Harada idik, hara gəldik... Əlçatmaz xəyallara qovuşduq.

Bu tarixi zəfər necə qazanıldı? Zaman baxımından o qədər də böyük olmayan 28 il ərzində əfsanəvi Simurq quşu kimi küllərin altından necə çıxdıq, qəddimizi necə düzəltdik, həlledici döyüşə atılmaq üçün güc və qüvvəni haradan aldıq?

İlk növbədə, ölkə rəhbərliyinin – mərhum Prezident Heydər Əliyevin və Prezident İlham Əliyevin qələbəyə sarsılmaz inamı, ordu quruculuğunu möhkəmləndirmək, ölkə iqtisadiyyatını inkişaf etdirmək, beynəlxalq aləmdə haqq işimizi əzmlə müdafiə etmək istiqamətindəki ardıcıl səyləri nəticəsində vəziyyəti kökündən dəyişmək mümkün oldu. Hər iki Ali Baş Komandan heç vaxt, heç vəchlə torpaqların itirilməsi ilə barışmadı, Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü kiçicik də olsa şübhə altına alan sülh şərtlərini rədd etməkdə ardıcıllıq, dönməzlik və qətiyyət göstərdi.

Mənə elə gəlir ki, bu zəfərin kədər və sarsıntı qarışıq böyük müjdələrindən birini 2003-cü il aprelin 21-də aldıq. Müasir Azərbaycanın qurucusu, Ali Baş Komandan Heydər Əliyev indi özünün adını daşıyan sarayda Cəmşid Naxçıvanski adına hərbi liseyin kursantları qarşısında çıxış edərkən hamımıza, ilk növbədə isə hərbçilərə ömrümüz boyu unuda bilməyəcəyimiz qeyri-adi master-klass verdi. Dost da, düşmən də gördü və başa düşdü ki, belə lideri olan millət, belə dövlət başçısı olan ölkə, belə Ali Baş Komandanı olan ordu zəfərə gedən yoldadır və müvafiq şərait yetişdikdə sözünü mütləq deyəcək, düşmən üzərində mütləq zəfər çalacaq.

Yaxşı yadımdadır ki, Ümummilli lider Qarabağ itkisini az qala fiziki ağrı, sağalmaz xəstəlik kimi hiss edirdi. Eyni zamanda, torpaqlarımızın işğaldan azad ediləcəyinə, insanlarımızın yenə də Şuşa ziyarətinə gedəcəklərinə, tarixi yurd yerlərinə qayıdacaqlarına qəti əmin idi. 2000-ci ilin may ayında keçmiş Minsk qrupunun ABŞ-dan olan həmsədri Kerri Kovano dövlət başçısının doğum gününə Ağdam məscidinin divarından qopmuş kiçik bir kaşı parçası gətirmişdi. Mərhum Prezident gözlənilməz hədiyyəni qəbul edərkən dedi: "Mən bu hədiyyəni saxlayacağam. Ağdam işğaldan azad olunandan sonra xahiş edəcəyəm ki, sizinlə birlikdə oraya gedək və bunu dəyərli bir muzey eksponatı kimi məscidə verəcəyəm ki, orada saxlasınlar".

Çox istərdim ki, Ağdam məscidinin bərpası başa çatandan sonra Heydər Əliyevin nəvazişlə oxşadığı həmin kaşı parçası qələbəyə inam rəmzi olaraq, dəyərli eksponat kimi məscidin ən görkəmli yerində nümayiş etdirilsin.

Prezident Ilham Əliyevin Qarabağ münaqişəsinin həllinə münasibəti də ilk gündən prinsipial məsələlərdə düşmənə güzəştə getməmək, xalqı və ordunu qələbəyə aparmaq əqidəsi üzərində köklənmişdi. Bu yaxınlarda Ermənistanın "Noyon Tapan" agentliyinə verdiyi müsahibədə, Xocalı qatili, bədnam Serj Sarkisyan acı-açı şikayətlənərək deyirdi ki, "axı nə edə bilərdik? Minsk qrupunun təklif etdiyi, bizim razılaşdığımız bütün təkliflər qarşı tərəfdən rədd olunurdu".

Başqa cür də ola bilməzdi. Çünki ölkənin ərazi bütünlüyü, Qarabağ üzərində suveren hüquqlarımızın tanınması, soydaşlarımızın ata-baba yurdlarına qayıtması kimi baza prinsiplərinə cavab verməyən heç bir təklif dövlət başçımızı qane etmirdi. Ermənistanın tarixi torpaqlarımızı alver predmetinə çevirməsi, daşını daş üstə qoymadıqları şəhər və kəndlərimi "qaytarıb", əvəzində Qarabağdakı separatçı rejimə legitimlik istəməsi qətiyyətlə rədd olunurdu.

Amma hələ də 1990-cı illərin əvvəllərində, Azərbaycanda xaos və hakimiyyətsizlik hökm sürdüyü bir dövrdə məkrli yollarla qazandıqları "qələbənin" sərməstliyi ilə yaşayan Ermənistan qarşısında tamamilə fərqli bir Azərbaycanın dayandığını görmürdü, görə bilmirdi. Bu mənada, 2016-cı ilin aprel döyüşü də onlara dərs olmadı. Qarabağın taleyi ilə bağlı məsələyə "nöqtə" qoymaq iddiasına düşən Paşinyan hakimiyyəti isə Azərbaycanın qələbəsi timsalında "nida" işarəsi ilə üzləşdi.

Düşmən on minlərlə dinc insanın həyatı bahasına başa gələn qanlı oyununu başlayanda həm də bizim tarixi yaddaş hissimizin, milli müqavimət duyğumuzun zəifliyinə güvənirdi. Düşünürdülər ki, havadarları olan böyük güclərin də təsiri və təzyiqi ilə bir neçə ildən sonra vəziyyətlə barışacaq, beyinlərini dumanlandıran "ikinci erməni dövləti" xülyasına artıq reallığa çevrilmiş fakt kimi baxacağıq. Reallıq isə tam fərqli oldu. Azərbaycan rəhbərliyi, ölkə vətəndaşları erməni işğalına, torpağımıza və tariximizə, mənliyimizə və ləyaqətimizə vurulan yaraları bir an da unutmadı. Ordumuz son və qəti döyüşə hazırlaşmağa başladı. Nəticədə Ermənistanın kapitulyasiya aktını imzalaması üçün 44 gün lazım gəldisə, onun Qarabağdakı satellitinin, "ikinci erməni dövlətinin" mövcudluğuna son qoymağa 23 saat kifayət etdi.

Son dörddə bir əsr ərzində Azərbaycan cəmiyyəti Qarabağ zəfərinə doğru böyük yol keçdi. Təbii ki, xalqımızın tarixi torpaqlarına məhəbbəti, Vətən uğrunda vuruşmaq əzmi, milli şərəf və heysiyyətini qorumaq qətiyyəti həmişə mövcud olmuşdu. Qarabağ münaqişəsi başlananda sıravi insanlar, xüsusən də gənclik təkidlə hökuməti yurda sahib çıxmağa, təsirli addımlar atıb həlledici qərarlar verməyə çağırırdı. Yüz minlərlə insanı Azadlıq meydanına gətirən, yalın əllə sovet tanklarının üzərinə getməyə sövq edən də məhz bu istək idi. Aradan keçən illər ərzində belə insanların sayı azalmamışdı, əksinə, sıraları genişlənmiş, qətiyyətləri daha da artmışdı.



Məhz 1993-cü ilə qədər biri-birini əvəz edən iqtidarların xalqın passionar enerjisindən istifadə etməyi bacarmaması, yaxud istəməməsi torpaqların itirilməsinə, yüz minlərlə soydaşımızın məhrumiyyətlərlə dolu qaçqın həyatı yaşamasına yol açdı. Yaxın tarixin təcrübəsi göstərdi ki, 44 günlük Vətən müharibəsində tarixi qələbənin qazanılması, ilk növbədə, xalq-iqtidar birliyinin bəhrəsi idi. Hətta, daha qabağa gedib bu müharibənin xalqın tələbi olduğunu demək mümkündür.

Zəfəri reallığa çevirən mühüm amil son 20 il ərzində Azərbaycanın hərbi intizam, döyüş hazırlığı, cağdaş hərbi texnika və texnologiyaya bələdlik və onlardan istifadə baxımından seçilən, milli ruha və vətənpərvərlik duyğularına malik güclü ordu qurması idi. Əsgər və zabitlərimiz mürəkkəb şəraitdə ən çətin vəzifələrin öhdəsindən gəlməyi bacarırdılar. Təkcə əlçatmaz qala olan Şuşanın azad edilməsi hərb tarixinə düşməyə, hərbi akademiyalarda öyrənilməyə layiq misilsiz bir döyüş nümunəsi idi.

Müharibədən sonra Ermənistan mətbuatı minlərlə erməni əsgərinin cəhbədən qaçdığını, dezertirliyin kütləvi hal aldığını, səfərbərliyin son dərəcə çətinləşdiyini etiraf etdi. Azərbaycanlılara "sizdən vuruşan olmaz, gedin bazarda semiçkanızı satın" – məsləhətini verən erməni general isə taleyin istehzası ilə qurucularından olduğu ordunun biabırçı məğlubiyyətini görmək kimi haqlı cəzaya məruz qaldı. Erməni gəncliyinin müxtəlif yollarla ordudan yayındığı günlərdə azərbaycanlı həmyaşıdları könüllü surətdə orduya göndərilmək tələbi ilə hərbi komissarlıqları, həqiqi mənada, mühasirəyə alırdılar. Vətən uğrunda vuruşaraq ölmək şərəf işinə çevrilmişdi.

Şübhəsiz, qələbənin insan amili çox önəmli məsələdir. Ən mükəmməl silahlar da insan beyni, insan əli ilə yaradılır və idarə olunur. Son 25 ildə ölkəmizdə qələbəyə köklənmiş bir nəsil yetişdi. Həm də söhbət yalnız gənclərdən getmir. Dəyişən təkcə onlar deyildi. Şəhid olmuş oğlunun məzarı başında "Oğlum Vətən uğrunda həlak olub. On övladım da olsa, hamısını Vətənin müdafiəsinə göndərərdim. Ağlamıram, onunla fəxr edirəm" – deyən analar, şəhid övladının tabutu üzərinə sərilmiş üçrəngli bayrağımızı qürurla öpüb gözünün üstünə qoyan atalar, şəhid qardaşlarının tabutu altına girən bacılar da, şəhid atasının dəfn mərasimində onun portretini sinəsinə sıxıb addımlayan uşaqlar da dəyişmişdilər. Hamı haqlı intiqama köklənmişdi. Belə düşünən, belə hərəkət edən xalqla qələbə qazanmamaq qeyri-mümkün idi.

Təəssüf ki, qələbəni görmək hər kəsə nəsib olmur. Amma onun qazanılmasında şəhidlik zirvəsinə yüksələnlərin rolu, təbii ki, qəhrəmanlar sırasındadır. Çünki bu gün bizim qürur duyduğumuz zəfərin ən fədakar müəllifləri onlardır. Nazim Hikmətin dediyi kimi, "torpaq altındakı köklərimiz, toxumlarımızdır". Birinci Qarabağ müharibəsi və Aprel döyüşlərinin Riyad Əhmədov, Namiq Qasımov, Ramiz Qənbər, Allahverdi Bağırov, Raquf Orucov, Mübariz İbrahimov və onlarla digər qəhrəmanlarını şükran hissləri ilə xatırlamamaq olmur. Onlar qanları ilə suvardıqları Vətən torpağını bizə əmanət edərək əbədiyyətə qovuşublar. Şəhidləri yalnız Zəfər bayramında deyil, hər gün, hər yerdə qələbəmizin yenilməz əsgərləri kimi görmək, xatirələri qarşısında baş əymək, adlarını yaşatmaq borcumuzdur.

Zəfərin qazanılmasında qardaş Türkiyənin rolunu, dəstəyini minnətdarlıq hissi ilə anırıq və heç zaman unutmayacağıq. Türkiyəni tariximizin mürəkkəb, taleyüklü məqamlarında həmişə yanımızda görmüşük. Təbii ki, dünya düzənindən, mövcud siyasi vəziyyətdən, Türkiyə liderinin şəxsi keyfiyyətlərindən asılı olaraq bu yaxınlıq dərəcəsi müxtəlif vaxtlarda fərqli olub. Türkiyə Cümhurbaşqanı Rəcəb Tayib Ərdoğan isə göstərdi ki, "Bir millət, iki dövlət" onun üçün sadəcə şüar deyil, həm də fəaliyyət proqramıdır. Tarixi Zəfərin ardınca Türkiyə və Azərbaycan dövlət başçılarının azad Şuşada imzaladıqları "Şuşa Bəyannaməsi" qələbəmizin nəticələrinin, regionda sülhün və sabitliyin qorunmasına xidmət edən mühüm tarixi sənəddir.

Birinci Qarabağ müharibəsində uğradığımız məğlubiyyətin acısı hamımızın heysiyyətinə toxunur, hamımızı ağrıdırdı. Amma, yəqin ki, işlərinin xarakteri ilə əlaqədar olaraq xarici siyasət sahəsində çalışanlar, danışıqlar prosesində iştirak edənlər bunu daha ağrılı yaşayırdılar. İddialarından yerə-göyə sığmayan erməni diplomatlarını, onların yalnız bir tərəfi – bizi güzəştə getməyə çağıran, bəzən isə lap ağını çıxaran, günahkar sayan, təqsirləndirən avropalı havadarlarını görmək, sağlam məntiqə sığmayan təklif və məsləhətlərini dinləmək həqiqi əzab idi... İndi bunlar artıq geridə qalıb.

Ali Baş Komandanın qətiyyəti, Azərbaycan əsgərinin hünəri sayəsində artıq hər yerdə başımızı dik tutur, qürurlu davranırıq. Bəli, biz qalib xalqıq. İstəmədən qoşulmaq məcburiyyətində qaldığımız müharibəni Zəfərlə başa vurmuşuq, torpağımıza göz dikən, milli varlığımızı inkar etmək istəyən düşməni yenmişik.

Zəfər vətəndaş, xalq və dövlət olaraq üzərimizə mühüm vəzifələr qoyur. Bədxahlarımızın çoxluğuna baxmayaraq erməni separatçıları və onların havadarları ilə mübarizədə qazandığımız Qələbə dünya miqyasında Azərbaycanın rolunu, nüfuzunu nəzərə çarpacaq dərəcədə artırıb. Satın alınmış kütləvi informasiya vasitələri, ermənilərin yemlədikləri konqresmen və deputatlar nə desələr də, sadə insanların çoxu ölkəmizdən hörmətlə söz açır, qələbəmizi zəruri və haqlı sayırlar. Zəfər nəticəsində Azərbacan çağdaş siyasi tarixə münaqişə və təcavüz nəticəsində pozulmuş ərazi bütünlüyünü hərbi yolla bərpa edən ilk və örnək dövlət kimi daxil olub.

P.S. Bu il Azərbaycanda "Heydər Əliyev İli"dir. Ümummilli liderin anadan olmasının 100 illiyini bayram edirik. Bir etirafımı bölüşüm. Doğrusu, hələ Zəfərdən uzun illər öncə düşünürdüm ki, 100 illiyə töhfəmiz nə olacaq? Necə qarşılayacağıq? İlk ağla gələn, təbii ki, torpaqlarımızın işğaldan azad edilməsi idi. Heç olmazsa, separatçıların iddialı şəkildə "təhlükəsizlik qurşağı" dedikləri 5-7 rayonun. Etiraf edim ki, daha artığına fantaziyam çatmırdı. Nə qədər çalışsam da, Şuşanın qisa müddətdə böyük tikinti meydançasına və mədəniyyət mərkəzinə çevrilməsini, dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin Xankəndidə, Xocalıda, Ağdərədə Azərbaycan Bayrağı qaldırmasını, separatçı qurumun bir günün içində danışıqsız təslim olmasını "görə" bilmirdim. Amma nə yaxşı ki, bütün bunlar oldu. Sevə-sevə qeyd etdiyimiz Zəfər Günü, ilk növbədə, Heydər Əliyevin halal haqqıdır. Onun yolunun layiqli davamçısı olan İlham Əliyevin böyük hünəridir. Xalqımızın və ordumuzun sarsılmaz gücüdür!

***Vilayət QULİYEV,***
***professor***

# Vətəndaş cəmiyyəti tarixi rəşadəti alqışlayır

**Noyabrın 7-də Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi "2023-cü il Heydər Əliyev İli" çərçivəsində "Azərbaycanın yeni inkişaf mərhələsində qeyri-hökumət təşkilatları" mövzusunda forum keçirib.**

Heydər Əliyev Mərkəzində təşkil edilən forumda çıxış edən Agentliyinin icraçı direktoru Aygün Əliyeva tədbirin Zəfər bayramı və Bayraq günü ərəfəsində keçirilməsinin xüsusi əhəmiyyətini qeyd edib, vətəndaş cəmiyyətinin inkişafında Ulu öndər Heydər Əliyevin misilsiz xidmətlərindən, Azərbaycanın yeni inkişaf mərhələsində qeyri-hökumət təşkilatlarının rolundan bəhs edib.

Prezident Administrasiyasının QHT-lərlə iş və kommunikasiya şöbəsinin nümayəndəsi Tural Əliyev bildirib ki, ulu öndər Heydər Əliyevin yaratdığı möhkəm bünövrə üzərində Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev bugünkü qalib Azərbaycan dövlətini ucaldıb, Azərbaycan Respublikası artıq bütövdür, tamdır. Əlbəttə, bu mənzərə qeyri-hökumət təşkilatları qarşısında da yeni çağırışlar deməkdir. Artıq dövlət tərəfindən QHT-lərlə iş sahəsində köklü islahatlara başlanılıb.

Daha sonra Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı İctimai Birliyinin sədri Fatma Səttarova, Dilarə Əliyeva adına Azərbaycan Qadınlarının Hüquqlarının Müdafiə Cəmiyyəti İctimai Birliyinin sədri Novella Cəfəroğlu, Qoşulmama Hərəkatı Gənclər Təşkilatının baş katibi Leyla Həsənova çıxış edərək Azərbaycanın yeni inkişaf mərhələsində qeyri-hökumət təşkilatlarını xüsusilə beynəlxalq müstəvidə fəallıqlarını artırmağa çağırıblar.

Forum işini panel panel müzakirələrlə davam etdirib.

Forumun yekununda QHT-lərin təşəbbüsü ilə Azərbaycan Qeyri-Hökumət Təşkilatlarının Zəfər günü münasibətilə Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevə təbrik müraciəti ünvanlanıb.

Müraciətdə deyilir ki, ilk dəfə olaraq Azərbaycan böyük təntənə, ruh yüksəkliyi ilə Zəfər gününü respublikanın tam suverenliyi və ərazi bütövlüyü şəraitində qeyd edir.

"Azərbaycan Bayrağının Şuşada, Xankəndində, Xocalıda dalğalanması tarixə əbədi həkk olan böyük xoşbəxtlikdir. Bu, müstəqil Azərbaycan dövlətinin həyatında tamamilə yeni səhifənin açılmasıdır. Biz bu möhtəşəm tarixi günlərin xoş həyəcanı, sevinci, bəxtiyarlığı içərisindəyik.



Siz Azərbaycan xalqını ən böyük arzusuna çatdırmış milli lidersiniz. Nəyi, nə vaxt və necə etmək lazım olduğunu Siz öz əməli fəaliyyətinizlə hər dəfə sübut edirsiniz. Qazanılan nəhəng uğurların hansı əziyyət, zəhmət, fədakarlıq nəticəsində başa gəldiyi göz qarşısındadır. Siz bütün təzyiqlərə, çətinliklərə rəğmən Azərbaycanı sabitlik, inkişaf adası kimi yalnız irəliyə aparırsınız, şöhrətini dünyaya yayırsınız.

20 ildir ki, Azərbaycan xalqı keçirilmiş bütün prezident seçkilərində öz taleyini yalnız Sizə etibar edib.

Bu gün Cənubi Qafqaza yaxın regionları– Yaxın Şərqi, Ukraynanı sonu görünməyən müharibələr bürüyüb, ölkələr onilliklərlə geri düşüb. 2020-ci ildə cəmi 44 günə Siz tarixi Zəfərə imza atdınız, Azərbaycan Ordusu Sizin liderliyinizlə hərbi dərsliklərə düşən döyüş əməliyyatları apardı.

2023-cü ilin 19-20 sentyabr antiterror tədbirləri isə cəmi 23 saat 51 dəqiqə sürdü. Ermənistan ordusunun qalıqları məhv edildi, qanunsuz hərbi rejimin xunta başçıları diz çökdü, ağ bayraq qaldırdı, təslim oldu.

Siz Azərbaycan xəritəsindəki qara ləkəni sildiniz, uydurulmuş Dağlıq Qarabağ regionu keçmişdə qaldı.

Şəhidlərimizin qisası alındı. Övladını, yoldaşını, qardaşını, dostunu, əzizini itirən insanlar üçün bundan böyük təskinlik təsəvvür etmək mümkün deyil.

Azərbaycan xalqının qanını içənlər bu gün onun qarşısında törətdikləri bütün əməllərə görə cavab verir. Halbuki, elə zənn edirdilər ki, istədiklərini edəcəklər, onları mühakimə edən də olmayacaq. Bu gün müharibə cinayətkarları layiq olduqları yerdədir– Azərbaycan həbsxanalarında! Bu da Sizin siyasətinizin daha bir nəticəsidir!

Bu gün bütün Azərbaycanın üzü gülür. Bu gün şəhid övladlarının üzü gülür. Müstəqil Azərbaycan tarix boyu heç vaxt bu qədər güclü olmayıb. Bu, Sizin xidmətiniz, Sizin əsərinizdir, cənab Prezident! Bu, Ulu Öndər Heydər Əliyevin arzuladığı Azərbaycandır!

Zəngəzur, Göyçə, Dərələyəz, İrəvan – Qərbi Azərbaycan torpaqları, doğma yurd yerləri heç vaxt bu qədər yaxın olmayıb. Bu gün hər bir azərbaycanlı həmin yerlərə də dönəcəyi günü gözləyir. Biz Sizin liderliyinizlə Qərbi Azərbaycana da gedəcəyik!

Siz hər bir azərbaycanlının Prezidentisiniz! Biz – vətəndaş cəmiyyətinin üzvləri olaraq, Sizə olan dərin inamı, ümumxalq məhəbbətini hər zaman hər yerdə hiss edirik, görürük!

Xarici ölkələrdə Azərbaycanın adı böyük hörmətlə, iftixarla çəkilir. Ölkəmizə bu yüksək nüfuzu Sizin düşünülmüş siyasətiniz qazandırıb.

Əmin ola bilərsiniz ki, Azərbaycanın qeyri-hökumət təşkilatları bundan sonra daim dövlətinin yanında olacaq, Sizinlə olacaq!

Yolunuz yolumuzdur, cənab Prezident!

Zəfər bayramınız mübarək!" – müraciətdə vurğulanıb.

Xatırladırıq ki, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin təşkilatçılığı ilə keçirilən forumda 200-dən çox QHT təmsilçisi iştirak edib.

***XQ***




# Paytaxtda Zəfər şənlikləri

**Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki daimi nümayəndəliyində keçirilən tədbirdə çıxış edən nümayəndəliyin rəhbəri Bəxtiyar Əsgərov bildirib ki, dövlətimizin başçısının rəhbərliyi ilə bütün sahələr üzrə həyata keçirilən siyasət Ulu öndərin ideyalarının reallaşması, dahi şəxsiyyətin müəyyənləşdirdiyi siyasi xəttin uğurla davam etdirilməsi ilə səciyyəvidir. Bu işdə dövlətimizin başçısın ən yaxın silahdaşı isə Birinci vitse-prezident, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevadır.**



Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsinin tarixinə, həmçinin xalqımıza qarşı həyata keçirilən etnik təmizləmə və terror siyasətinə, silahlı təxribatlara nəzər salan Bəxtiyar Əsgərov Vətən müharibəsini labüd edən amillərdən danışıb. Müharibədə böyük Qələbəni Azərbaycan xalqına bəxş etməklə Ali Baş Komandan İlham Əliyevin həm də həyatını ölkəmizə həsr edən, "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" deyən Ulu öndər Heydər Əliyevin arzusunu reallaşdırdığını diqqətə çatdırıb.

Nümayəndəliyin rəhbəri Azərbaycan Prezidentinin Xankəndinin mərkəzi meydanında Dövlət Bayrağımızı ucaltmasının dünya azərbaycanlılarının son əsrlərdəki ən qürurverici anlarından biri olduğunu deyib.

***

**Dövlət Statistika Komitəsində keçirilən tədbirdə çıxış edən iştirakçılar Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin qətiyyəti, şanlı Azərbaycan Ordusunun rəşadəti nəticəsində ərazi bütövlüyümüzün bərpa olunduğunu qeyd edərək, Vətən müharibəsinin tariximizin ən parlaq səhifəsinə, xalqımızın iftixar və qürur mənbəyinə çevrildiyini vurğulayıblar. Bildiriblər ki, 44 günlük haqq mübarizəsində tarix yazan şanlı Ordumuz güclü dövlət və güclü ordu strategiyasını, milli birlik, həmrəylik və güclü iradə vəhdətini bütün dünyaya nümayiş etdirib.**

İştirakçılar işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa işlərinə diqqət çəkərək Prezident İlham Əliyevin yürütdüyü uğurlu Böyük Qayıdış Proqramı nəticəsində öz evlərini tərk etmiş, doğma yurdun həsrətini çəkən məcburi köçkün həmvətənlərimizin işğaldan azad edilmiş ərazilərdəki ata-baba yurdlarına qayıdışının önəmini də nəzərə çatdırıblar.

Toplantıda cari il sentyabrın 19–20-də Azərbaycanın apardığı lokal antiterror tədbirləri nəticəsində suverenliyini də tam bərpa edərək Cənubi Qafqaz regionunda sülhün bərqərar olması üçün əsaslı zəmin yaratdığı, bu ilin oktyabrın 15-nin daha bir şərəfli gün kimi tarixə düşdüyü, Prezident İlham Əliyevin Ağdərədə, Xocalıda, Əsgəranda, Xocavənddə və Xankəndidə Azərbaycan Dövlət Bayrağını ucaltdığı, nəticədə, İkinci Qarabağ müharibəsinin son yüz ildə şərəf və qəhrəmanlıq salnaməsi kimi Azərbaycanın tarixinə yazıldığı qeyd olunub.

***

**"AzərEnerji" və "Azərişıq" səhmdar cəmiyyətləri Ulu öndər Heydər Əliyevin 100 illiyi, Prezident İlham Əliyevin hakimiyyətə gəlməyinin 20 illiyi və Zəfər Günü ilə bağlı "Zəfər işığı" adlı geniş tədbir keçiriblər.**

"AzərEnerji" rəhbəri Baba Rzayev çıxış edərək Ulu öndərin energetika sahəsində gördüyü işlərdən danışıb. Bildirib ki, Ümummilli lider tərəfindən formalaşdırılan müstəqil Azərbaycanın elektroenergetikası məhz Prezident İlham Əliyev tərəfindən bugünkü səviyyəyə çatıb. Baba Rzayevin sözlərinə görə, hazırda Azərbaycanın sayılıb-seçilən enerji dövləti titulunu alması, ən müasir texniki avadanlıqlarla təchiz olunaraq rəqəmsallaşdırılması, alternativ və bərpa olunan enerjinin prioritet sahəyə çevrilməsi, 40-dan çox yeni elektrik stansiyalarının inşa olunması, yüzlərlə yarımstansiyanın tikilərək yenidən qurulması dövlət başçısının davamlı enerji strategiyasının həyata keçirilməsinin təzahürüdür.



Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan şanlı Zəfər yolundan danışan Baba Rzayev qeyd edib ki, Prezidentin tapşırığı ilə hələ müharibə gedən dövrdə "AzərEnerji" və "Azərişıq" səhmdar cəmiyyətləri əməli fəaliyyət keçib və artıq bütün azad olan rayonlar Azərbaycanın ümumi enerji sisteminə qoşulmaqla yanaşı, "yaşıl enerji" zonasına çevrilməkdədir.

***

**"Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin təşkil etdiyi tədbirdə birliyin sədri Sevinc Alızadə çıxış edərək xalqımızın artıq üçüncü ildir ki, Azərbaycanın ən yeni tarixinin – şanlı Zəfər salnaməsinin təntənəsi ilə yaşadığını bildirib. O, eyni zamanda, Vətən müharibəsində qəhrəmancasına döyüşən, Azərbaycan bayrağını işğaldan azad olunan torpaqlarımızda dalğalandıran, ölkəmizin ərazi bütövlüyü yolunda canlarından keçən əsgər və zabitlərimizi, bütün şəhidlərimizi dərin ehtiramla yad edib.**

Vətən Müharibəsi Qəhrəmanı, şəhid XTQ baş giziri Camal İsmayılovun anası Filarə İsmayılova qeyd edib ki, Vətən müharibəsindəki zəfərimiz xalqımızın şanlı tarixidir və bu tarixi qələbəni bizə yaşadan qəhrəman şəhidlərimiz hər zaman Azərbaycan xalqının qəlbində yaşayacaqlar. Vətən müharibəsi şəhidi Aslan Salmanovun atası İsrafil Salmanov isə çıxışında Vətən yolunda canından keçən qəhrəman əsgər və zabitlərimizlə qürur duyduğunu, onların həyat yolunun gənc nəsil üçün vətənpərvərlik nümunəsi olduğunu vurğulayıb. Vətən müharibəsi qazisi, XTQ mayoru Elşən Təhməzov isə 44 günlük Vətən müharibəsində şanlı tarix yazan oğullarımızın, şəhidlərimizin, qazilərimizin döyüş yolundan bəhs edib və bu gün hər kəsin onlarla fəxr etdiyini, qürur duyduğunu bildirib.

***XQ***

# Xalqımızın milli qürur günü

**Türklüyün unudulmuş mədəni vəsfi və böyük qabiliyyəti bundan sonrakı inkşaf ilə yüksək mədəniyyət üfüqündə bir Günəş kimi doğacaq.**

**Mustafa Kamal Atatürk,**
**Ulu öndər**

**Azərbaycan dünyaya Günəş kimi doğacaq.**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider**



## İki türk liderin müdrikliyi

Türk dünyasının iki mötəbər öndərindən iqtibas gətirdiyimiz və bir-biri ilə dərin məntiqlə bağlı olan fikirləri Azərbaycan Prezidenti İlham Əliyev möhtəşəm siyasi-diplomatik və liderlik fəaliyyəti ilə əyaniləşdirdi, tarixin qızıl hərflərlə yazılmış səhifəsinə çevirdi! Yuxarıda iki böyük türk liderin sıralaması fikir dərinliyinə görə deyil, sadəcə tarixi xronologiyadır. Eyni zamanda, Heydər Əliyev dühasında türk dövlətçilik, siyasət, mədəniyyət, ideologiya və liderlik ənənəsini hansı cəsarət və dərinliklə yeni zirvələrə yüksəltdiyinin rəmzidir.

Bir türk lider türklüyün məhz mədəniyyət üfüqündə Günəş kimi doğacağına ümid edir, digər türk lider onun konkret ifadəsini və ya siyasi-mədəni və dövlətçilik ünvanını göstərir: həmin üfüqdə Azərbaycan türklüyün, türk sivilizasiyasının, mədəniyyətinin, dövlətçiliyinin, liderlik fəlsəfəsinin nümunəsi olaraq "Günəş kimi artıq doğmuşdur"!

Onun rəmzi şanlı Zəfər Günüdür! Zəfər Günü iki türk liderin – Mustafa Kamal Atatürk və Heydər Əliyevin müdrikliyindən bəhrələnibsə, o, Prezident İlham Əliyevin liderlik qüdrətinin siyasətdə, idarəetmədə¸ strateji təfəkkürdə və nəhayət, Ali Baş Komandanlığın, informasiya savaşının və diplomatiyanın praktikasında əyaniləşmiş nəticəsidir, özünü təsdiqidir!

## Zəfərin fəlsəfəsi

Özlüyündə Zəfərə nail olmağın fəlsəfəsi hər bir konkret situasiyadan və tarixi şəraitdən asılı izah oluna bilər. Bu baxımdan, Aleksandr Duqinin "Qələbənin fəlsəfəsi" məqaləsinə fəlsəfə elmləri doktoru Sergey Anatolyeviç Nikolskinin (Rusiya Elmlər Akdemiyası Fəlsəfə İnstitutunun baş elmi işçisi) tənqidi münasibətini xatırlamaq maraqlıdır. S.A.Nikolski yazır ki, "heç bir əsl qələbə sülh, yaddaş, mədəniyyət və insan ləyaqəti olmadan mümkün deyildir".

Qələbə fəlsəfəsinin başqa tərifləri üzərində də dayanmaq olar. Lakin burada bizim fəlsəfi baxımdan vacib saydığımız məqamlar əksini tapmışdır. Xüsusilə, həmin məqamlar Prezident İlham Əliyevin 44 günlük Zəfər savaşı ilə bağlı dediyi və mükəmməl fəlsəfi məzmuna malik bir tezislə səsləşir. İlham Əliyev Zəfərdən az sonra bildirmişdi ki, Qələbəmiz sadəcə hərb meydanında düşməni məğlub etmək mənasını daşımır. Bu, həm də Xeyrin Şər üzərində tarixi ədaləti bərpa etməyin, milli ləyaqəti sübut etməyin və beynəlxalq hüququn işlədiyini nümayiş etdirməyin zəfəridir, qələbəsidir!

"Xeyir", "Şər", "tarixi ədalət" anlayışları mədəniyyət ənənəsində yaddaşı ifadən edən faktorlardandırlar. "Milli ləyaqət" anlayışı insan ləyaqətinin dövlətçilik və toplumun özünüyaratma fəlsəfəsinin kollektiv miqyasda fəlsəfi ifadəsidir. "Sülh" isə müasir beynəlxalq münasibətlər sistemində əsas məqsəd kimi konkret hüquqi əsasa və məzmun ifadəsinə malik mərkəzi termindir! İlham Əliyev lakonik bir tezislə dərin və geniş fəlsəfi anlama malik Zəfər konsepsiyasını ifadə etmişdir! Sözün bitdiyi yer!

Bu fikir poetik deyildir, fəlsəfi anlama malik tezisdir. Çünki özündə tam mənası ilə Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin, gücünün və qüdrətinin məna çalarlarını və ideoloji təşviqi hədəflərini ehtiva edir! Ulu öndərin Azərbycanın dünyaya Günəş kimi doğacağı ilə bağlı uzaqgörən süarının məzmununda başqa məqamlarla yanaşı, vurğuladığımız məna çalarları da mövcuddur. Atatürkün inandığı və görmək istədiyi mədəniyyət üfüqündə Azərbaycan müstəqilliyi, qüruru, suverenliyi, liderliyi, gücü, qüdrəti və yeni lideri ilə vüqarlı dayanmışdır!

Keçilən yol, aparılan mücadilə hər cəhətdən çətin olmuşdur. Azərbaycan Zəfərin fəlsəfəsinin əsasını faktiki olaraq 1993-cü ilin iyunundan – Qurtuluş Günündən qoymuşdur! Həmin dövrdə Ulu öndərə içdən və xaricdən olan təsirlər nəticəsində dağılmaqda olan toplumu, çökməkdə olan dövlətçiliyi, parçalanmaqda olan ölkə ərazisini və səriştəsiz idrəetmənin acı mənzərəsini buraxmışdılar. Lider həm bu mənfi tendensiyanı dayandırmalı, həm də yeni əsasda uğurlu müstəqil dövlət qurmağı təmin edən strateji kursu müəyyənləşdirməli idi.

Eyni zamanda, iki ağır tarixi və siyasi yük! Eksklüziv olaraq, həm quruculuq nəzəriyyəsini yaratmaq, həm də onu şəxsən özün həyata keçirmək missiyası ilə üz-üzə qalmaq! Hər bir insan və siyasi lider üçün çox çətin bir vəziyyət idi. Bunun öhdəsindən Heydər Əliyev tarixi baxımdan çox böyük məharət və yüksək zəka ilə gəldi. 2020-ci ilin payızı Azərbaycan dövlətçiliyinin Baharına döndü! Zəfərin tarixi əhəmiyyətinin, estetik zövqünün, düşüncə fəlsəfəsinin və bədii duyğusallığının kökündə məhz Ulu öndərin keçən əsrin 90-cı illərində yaratdığı möhtəşəm dövlət quruculuğu konsepsiyası dayanır!

Zəfərə aparan yolda "Əsrin müqaviləsi" uğurun geosiyasi mayakıdır. Yeni Konstitusiyanın qəbulu və Prezident üsul-idarəsinin hüquqi bazasının yaradılması müstəqil demokratik dövlətçiliyin müasir hüquqi ana yoludur. Neft strategiyasının milli təhlükəsizliklə enerji təhlükəsizliyinin sintezini təmin etməsi qarışıq geosiyasi dinamikada (turbulent xarakterli) dövlət müstəqilliyini sürətlə dəyişən situasiyada bütün istiqamətlər üzrə qorumaq və inkişaf etdirmənin mükəmməl strategiyasının mükəmməl taktiki fəndlərinin təzahürüdür.

## Zəfərə doğru

2003-cü ildən bu prosesin yeni keyfiyyət mərhələsinə yüksəlişi Zəfər fəlsəfəsinin orijinal məzmununun naxışlarını təşkil edən davamlı addımların fonunda bütün istiqamətlərdə ciddi yüksəlişin rəmzi təsiri bağışlayır! Burada Zəfər fenomeninin müasir müstəqil dövlət quruculuğu aspektində əhəmiyyətli əlamətlərini təşkil edən hər bir sferada qazanılan möhtəşəm uğurlar vardır. İqtisadiyyatın infrastrukturunun yenidən qurulması, enerji strategiyasının hər bir böhranlı situasiyada yenidən məzmunlaşdırılaraq ancaq qalib variantı çevik seçmək nümunələri (Bakı–Tbilis–Ceyhan neft kəmərinin reallaşması fonunda yeni səmərəli enerji layihələrinin həyata keçməsi və nəqliyyat-loqistika xidmətinin davamlı inkişafı), regional və qlobal geosiyasi əhəmiyyəti olan yeni dəyərlər əsasında mühüm tədbirlərin keçirilməsi, xarici siyasətdə bütün qonşularla konstruktiv əməkdaşlığa nail olunması bu baxımdan qiymətli Zəfər elementləri kimi görünürlər.

Burada üç digər faktoru ayrıca vurğulamaq lazım gəlir. Birincisi, ordu quruculuğunun və müdafiə qüdrətinin davamlı aparılması ilə bağlıdır. Bu sferada İlham Əliyev reklam etmədən çox böyük addımlar atmışdır. Ordu tamamilə yeniləşmiş, ən müasir hərbi ləvazimatlarla təmin edilmiş və idarəetməsi optimallaşdırılmışdır. Müdafiə qüdrəti isə yalnız və heç də kənardan silah almaqla məhdudlaşmamışdır. Əsas diqqət yerli müdafiə sənayesinin təşkili və inkişafına yönəldilmişdir. Qısa zamanda Azərbaycan buna nail olmuşdur. Həmin həqiqəti bütün dünya 44 günlük və builki 23 saat 51 dəqiqəlik savaşda gördü. Bu faktorların ərazi bütövlüyünün və suverenliyin hərb meydanında təminində başlıca rol oynadığı qürur verir. Bu, əsl Zəfər qüruru, xalqın öz liderinə inam qürurudur!

İkincisi, Zəfərin mənəvi-ideoloji təməli olan cəmiyyətin birliyinin təmin edilməsidir. İlham Əliyev bu nəticəyə multikultural dəyərlərə yüksək qiymət verilməsi və toplumun hər bir üzvünün özünü tam hüquqlu Azərbaycan vətəndaşı kimi hiss etməsi əsasında nail olmuşdur. Avrasiya məkanında ikinci belə nümunə yoxdur. Azərbaycan, sözün həqiqi mənasında, azərbaycançılıq ideologiyası fonunda müxtəlif etnik mənsubların, dini konfessiyaların, millətlərin və xalqların ortaq ölkəsi, dövləti, vahid bayrağa, dilə və dövlətə malik məkanı olmuşdur! Bu, Zəfər fəlsəfəsinin mənəvi-ideoloji "kimliyidir"!

Üçüncüsü, Azərbaycanı Zəfərə aparan yolda beynəlxalq təşkilatlarda həyata keçirilən fəal, inklüziv, ədalətli, humanitar və barışcıl ruhlu siyasət çox əhəmiyyətli rol oynamışdır. Buna görə də Azərbaycanın XXI əsrin ikinci onilliyində BMT TŞ-yə qeyri-daimi üzv seçilməsi, Avropa İttifaqı ilə münasibətləri bərabərhüquqlu tərəfdaş müstəvisinə keçirməsi, yeni enerji, nəqliyyat-logistika və informasiya layihələrinə başlanması, Türk Dövlətləri Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində aktiv fəaliyyət göstərilməsi Zəfər yolunun mühüm "dayanacaqları"dır!

## Zəfərdən sonra Zəfər

Azərbaycan Prezidenti həmişə strateji düşünür və ona uyğun addım atır. İlham Əliyevin Zəfər fəlsəfəsi ərazi bütövlüyünün bərpası və suverenliyin tam təminatı ilə qətiyyən tamamlanmır, proses olaraq bitmir. Əksinə, Azərbaycan Prezidenti hər keçən an nümayiş etdirir ki, Zəfərin yeni mərhələsi başlanmışdır! Bu, regionda sülh və əməkdaşlığın təminatını, qlobal miqyasda təhlükəsizlik sisteminin ədalətli qurulmasını, Böyük Millət quruculuğunu, meydana gələn təhlükələrə və risklərə qalib gələ biləcək yeni dünya təhlükəsizliyi arxitekturasının yaradılmasını, Azərbaycanın davamlı, dinamik XXI əsrin çağırışlarına uyğun inkişafını əhatə edir.

Həmin kontekstdə İlham Əliyevin Zəfərinin yeni mərhələsində Türk dünyasını ədalətli, hüquqa əməl olunan, insan kapitalının inişafı üçün yorulmadan çalışan, dünyanın əsas güc mərkəzlərindən olan TDT-nin yaradılması ayrıca yer tutur!

Hansı əsasla belə fəlsəfi xarakterli nəticələr çıxara bilirik? Bunun bir tutarlı arqumenti vardır ki, onu İlham Əliyev siyasi liderlik praktikasında bütün dünyaya nümayiş etdirmişdir. O, Azərbaycan Prezidentinin istənilən situasiyada, ən böhranlı durumlarda belə inkişaf paradiqmasını tərk edib müharibə paradiqmasının təsiri altına düşməməsi ilə şərtlənir! Prezident İlham Əliyev 44 günük savaşın ən çətin zamanlarında belə bu mövqedən çəkilməmişdir! Hər zaman son məqsəd kimi əməkdaşlıqdan, barışdan və sülhdən bəhs etmişdir! Qələbədən dərhal sonra Ermənistana barış əlini uzatması da bunun konkret sübutlarından biridir! Ona görə də nə İlham Əliyev dayanmışdır, nə də Azərbaycanın inkişafı zəifləmişdir! Zəfər ardınca yeni Zəfər gətirməkdədir – Azərbaycan xalqı zəfərlər silsiləsini yaşayan güclü və möhtəşəm toplumdur! Çünki yolgöstərəni XXI əsrdə liderlik nümunəsini yaratmış güclü və ədalətli Prezidentdir!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki, fəlsəfə elmləri doktoru***




# Erməni xülyasının sonu

Sabir RÜSTƏMXANLI,
Xalq şairi

**Azərbaycanlı və ya türk idmançılarının iştirakı ilə keçirilən futbol, güləş, boks və s. idman yarışlarını həyəcanla, az qala, nəfəsimiz kəsilə-kəsilə izləyirik. Hansı sahə olursa-olsun, qarşılaşmalar həmişə millətin intellekt səviyyəsini, fiziki gücünü və iradəsini nümayiş etdirir. Lokal qarşıdurmaları millətin taleyində böyük rol oynayan müharibələrlə müqayisə etmək mümkün deyil. Lakin əgər bir idman yarışı xalqın, demək olar ki, bütün təbəqələrinin təəssübkeşlik duyğusunu oyadırsa, qlobal qarşıdurmalarda, müharibələrdə zəfərin və məğlubiyyətin hansı təsiri buraxdığını təsəvvür etmək çətin deyil.**



Azərbaycan otuz beş il böyük güclərin dəstəklədikləri bir irtica – insan qatili olmasından zövq alan qəddar erməni faşizmi ilə üzüzə qaldı. Təkbaşına. Səsini eşitmədilər və eşitmək istəmədilər. Onun yaşadığı faciələri, torpağında düşmənlərin törətdiyi vəhşilikləri, məruz qaldığı etnik təmizləməni görmədilər və ya görmək istəmədilər. Hətta dünyanın ən nüfuzlu uluslararası təşkilatı olan BMT-nin erməni işğalına son qoyulmasını tələb edən dörd qətnaməsi də təsirsiz qaldı. ATƏT-in Minsk qrupu – həm də dolayı yolla ABŞ, Fransa və Rusiya Ermənistanın işğalçılıq siyasətinə münasibətlərini nümayiş etdirir, buna uyğun fəaliyyət göstərirdi. Azərbaycanın iyirmi faiz torpağının zəbt edilməsi və dağıdılması, Ermənistandan və Qarabağ bölgəmizdən – öz torpaqlarından didərgin düşmüş 1 milyon insanın taleyi onların yatmış və ya heç olmayan vicdanlarını tərpətmirdi. Onlar yalnız Qarabağda yaşayan bir ovuc erməninin qayğısını çəkirdilər.

Minsk Qrupu münaqişəni həll edə, işğala son qoya bilən bir qurumdan daha çox bir turist təşkilatına bənzəyirdi. Qarabağdan çox uzaqda olan çeşidli bölgələrdə tez-tez görüşür, ayda-ildə bir dəfə Ermənistan üzərindən Azərbaycan torpaqlarına girib, təmas xətlərinə baş çəkib geri dönürdülər. Bu mənasız səfərlər zamanı ermənilərin Azərbaycanın az qala ortasına qədər irəlilədiyini, dağıdılmış kəndlərimizi, viran qoyulmuş şəhərlərimizi, başlı-başına buraxılmış əkin-biçin yerlərimizi görsələr də beynəlxalq kürsülərdən bircə dəfə də olsun Ermənistanı qınamadılar, "dayandırın bu insan və mədəniyyət düşmənçiliyini!" demədilər. Sanki niyyətləri Azərbaycana münaqişənin danışıqlar yolu ilə həll ediləcəyi vədləri verməklə, ermənilərə işğal edilmiş ərazilərdə möhkəmlənməsi üçün vaxt qazandırmaq idi. Onların kor gözləri Azərbaycanın bütün bölgələrində qurulmuş çadır şəhərciklərini, orada qaçqın və köçkünlərin hansı şəraitdə yaşadıqlarını görmürdü.

Onlar bu gedişatı uzatmaqla Ermənistandan və Qarabağdan çıxarılmış azərbaycanlıların yaşlı nəslinin qırılıb qurtarması və öz ata-baba torpaqlarını xatırlamayan, tanımayan yeni bir nəslin gələcəyi ilə Azərbaycanın öz torpaqlarına qayıtmaq imkanlarından məhrum olacağını gözləyirdilər. Bunu arzu edirdilər. Arzuları gözlərində qaldı! Aradan on illər keçdi. Bu illər ərzində Azərbaycan dövləti bir milyon qaçqın və köçkünün öz torpağına dönəcəyi ümidi söndürmədən onların normal yaşayışı qayğısına qaldı. Onlar üçün qəsəbələr salındı, məktəblər, xəstəxanalar tikildi. Lakin bu uzun illər ərzində nə qaçqınlar, nə də bütünlüklə Azərbaycan əhalisi ümidini itirmədi. Biz torpaqlarımıza qayıdacağımızı bilirdik.

1994-cü ildə atəşkəs anlaşmasından sonra Azərbaycan illər uzunu ordu quruculuğu ilə məşğul oldu. Mübariz İbrahimov, Polad Həşimov kimi igidlər, 2016-cı ilin aprel döyüşləri ordumuzun artan texniki və mənəvi-psixoloji gücünü bütün dünyaya nümayiş etdirdi. Lakin həlledici döyüş 2020-ci ildə Azərbaycanın əsəblərini tarıma çəkən sonuncu təxribatlardan sonra başlandı. 44 günlük savaş erməni ordusu, Ermənistanın döyüş qabiliyyəti haqqında yayılan mifi külə çevirdi. "Qarabağ Ermənistandır!", "Yeni torpaqlar üçün yeni savaş!", "Bakıya kimi gedəcəyik!" cəfəngiyyatlarını deyənlər dünyanın gözündə rəzil günə düşdülər .

İkinci Qarabağ savaşının hər günü bir qəhrəmanlıq dastanı idi. Savaşın başlanmasından az sonra cəbhə xəbərləri, twitter məlumatları hər gün bütün Azərbaycan evlərinə bahar havası kimi dolur, sevinc gətirirdi. Bəlkə də tariximizdə heç vaxt millət, Azərbaycanın Ali Baş Komandanının televiziya ilə verdiyi qələbə xəbərlərini dinlədiyi vaxtlardakı qədər bütöv və həmrəy olmayıb. Twitter xəbərləri öz gur səsi, sehirli barmaqları ilə hər gün yüzminlərlə qapını döyürdü.

Bu qələbə yürüşünün ən parlaq nəticəsi Şuşanın fəthi oldu. Bundan sonra Xankəndinin və Qarabağın digər torpaqlarının azad ediləcəyi heç kimdə şübhə doğurmurdu.

2023-cü ilin sentyabr ayında 23 saat 51 dəqiqəlik antiterror tədbirləri isə Şuşanın fəthi ilə bir sırada dayana biləcək və dünya hərb tarixinə qızıl hərflərlə yazılmağa layiq olan bir hadisə, qələbəyə yekun vuran əsl nida işarəsi oldu. Qarabağ bizimdir!

Torpaqlarımızın düşmən işğalından azad edilməsi barədə çox yazılıb. Mən də "Qarabağa dönüş" poemasında ürəyimi boşaltmışdım. Ancaq bu savaşın baş qəhrəmanı Ali Baş Komandan, müzəffər ordumuz, ayrı-ayrı Azərbaycan əsgərinin göstərdiyi igidlik haqqında hələ uzun illər danışılacaq və ciddi əsərlər yazılacaq. Qarabağ zəfəri tək Quzeydə yox, həm də Güneydə millətimizin qəddini düzəltdi. Məğlubiyyət xəcalətindən qutardıq. Bundan sonra erməni mətbuatı öz ənənələrinə uyğun olaraq hansı yalanları uydurur, uydursun. Azərbaycanın atdığı bütün addımlar, beynəlxalq hüquq normaları çərçivəsindədir. 200 il bundan öncə Azərbaycan türklərinin torpaqlarında qurulmuş erməni dövləti mövcudluğuna görə bizə borclu ola-ola, bizdən əlavə torpaq ala bilməz. Zəfər bayramımız mübarək olsun!




# "Ömür vəfa etsəydi"

**8 Noyabr Zəfər Günü münasibətilə "İRƏLİ" İctimai Birliyinin təşəbbüsü ilə Nizami Kino Mərkəzinin təşkilati dəstəyi ilə Vətən Müharibəsi Qəhrəmanı Ramiz Cəfərovun şücaətindən və döyüş yolundan bəhs edən "Ömür vəfa etsəydi" filminin nümayişi keçirilib.**





Ekran işində şəhid Ramiz Cəfərovun silahdaşları ilə birgə düşmən texnikasını sıradan çıxarması və erməni quldurlarını amansızcasına məhv etməsi səhnələrinin şahidi oluruq. Bədxah ermənilər ağır məğlubiyyətdən sonra sovet texnikası ilə hücuma keçirlər. Ramizin döyüş yoldaşları ilə birgə qurduğu plan isə çox gözlənilməz olur. İki qumbara partlayışından sonra düşmən yaraqlıları silahlarını hansı tərəfə tuşlayacaqlarını müəyyənləşdirənədək Ramizgil bütöv quldur dəstəsini məhv edir.

**Həyat yoldaşı Sitarə Cəfərova da filmdə Ramizlə bağlı xatirələrini danışır:**

– Mən Ramizlə tanış olanda o, artıq hərbçi idi. Rusiyanın Ryazan şəhərində Ali Hava Desant məktəbini bitirib 1996-cı ildə Xüsusi Təyinatlı Qüvvələrdə (XTQ) polkovnik-Leytenant kimi qulluq edirdi. O, düz 29 il Vətənə xidmət etdi. Ümumiyyətlə, hərbçi yoldaşı olmaq çox çətindir. Qürur hissi keçirirəm ki, belə bir qəhrəmanın yoldaşıyam.

Şəhid Ramiz Cəfərovun özündən sonra qoyub getdiyi 5 övladı da qəhrəman atalarının ən böyük arzularını yerinə yetirmək, onun yarımçıq qalan ömür yolunun layiqli davamçıları olmağı qarşılarına məqsəd qoyublar.

Ömrünün 46-cı baharında şəhadətə ucalmış şəhid Ramiz Cəfərov Masallı rayonunun Ağakişibəyli kəndindəndir. Hələ yeniyetmə yaşlarından hərbiyə olan marağı onu Cəmşid Naxçıvanski adına Hərbi Litseyə gətirmişdi. ABŞ-də, Rusiyada, Almaniyada peşəkar kurslarda təhsil almış, hərbi təlimlər keçmiş Ramiz alman, ingilis və rus dillərinə mükəmməl yiyələnmişdi.

**Filmdə dostları, sağ qalmış döyüş yoldaşları onun haqqında danışarkən deyirlər:**

– XTQ-nin komandir müavini Ramiz Cəfərovun qəhrəmanlıq tarixinə gedən yolu 2016-cı il Aprel döyüşlərindən başlayır. O, həmişə birinci irəli atılaraq əsgərlərinə "arxamca gəlin!" əmrini verərək, nümunə göstərərdi. Qartal kimi irəli şığıyardı. Buna görə də ona "Şuşa qartalı" adını vermişdik. Ramiz Füzuli, Cəbrayıl, Hadrut istiqamətində gedən döyüşlərdə də iştirak etdi. Erməni faşizmi üzərində qələbələrimizə böyük töhfə verməklə işğal altında olan ərazilərin azadlığı uğrunda döyüşlərin önündə gedən əsl qəhrəman idi. O, heç vaxt torpaqların düşmən tapdağında qalması ilə razılaşmırdı. Həmişə deyirdi ki, nəyin bahasına olursa-olsun, torpaqları azad edəcəyik. Belə də oldu.

Müharibənin bitməsinə iki gün qalmış Ramizin şəhid xəbəri gəldi. Noyabrın 6-da Şuşa uğrunda savaşda döyüş yoldaşları ilə birgə ağır artilleriyadan və tanklardan açılan düşmən gülləsinə tuş gəldi. Şuşanın alındığını görsə də, qələbə sevincini axıra qədər yaşaya bilmədi. Nəşi Bakıya gətirilərək noyabrın 11-də II Fəxri xiyabanda dəfn olundu. Ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı", "Vətən uğrunda", Cəbrayılın, Şuşanın, Füzulinin və Xocavəndin azad olunmasına görə medalları ilə təltif olunub.

**Sonda filmin yaradıcı heyəti ilə söhbətləşdik. Filmin ssenari müəllifi Rəfiqə Məsud XQ-yə bildirdi:**

– Torpaqlarımızı işğaldan azad edən və cəbhədə mərdliklə həlak olan oğullarımızın igidliklərini, döyüş yolunu işıqlandırmaq, onlar haqqında gələcək nəsilləri bilgiləndirmək üçün belə bir film ərsəyə gətirdik. Qeyd edim ki, 20 milli qəhrəman haqqında çəkilmiş sənədli filmlərin müəllifiyəm. Bunu özümə borc bilirəm. Gənclərə də bu filmləri göstərməkdə məqsədimiz budur ki, onlar tariximizi bilsinlər. Nəinki gənclər, hər kəs bilməlidir ki, bizim necə tarix yazan qəhrəman oğullarımız olub.

**Filmin rejissoru Taleh İsmayıl isə dedi:**

– Ramiz və onun kimi oğullar Vətən yolunda canlarını fəda etdilər ki, millət, xalq yaşasın. Biz də bu qəhrəman oğullarımız haqqında silsilə filmlər ərsəyə gətiririk ki, gənc nəsillər də igid oğullarımızı tanısınlar. Gənclər arasında vətənpərvərliyi təbliğ etmək lazımdır. Çünki düşmənlərimiz yatmayıb. Hər an təxribat, hücumlar ola bilər. I və II Qarabağ müharibələrində şəhid olan bütün milli qəhrəmanların, igid soydaşlarımızın xatirəsini həmişə uca tutmalıyıq.

*Fidan SALMANOVA*
*XQ*

# Gözlənilən bir cəzanın tarixçəsi

## Bu, soydaşlarımıza qarşı cinayətlər törətmiş erməni cəlladlarından hələlik birincinin – Vaqif Xaçatryanın üzərində qurulmuş ədalət mühakiməsinin yekunudur

**Məhkəmə dinləmələrindən, üzləşmə səhnələrindən ən çox yaddaqalan epizodlardan biri şahidlərdən birinin erməni cəlladı Vaqif Xaçatryanın gözlərinin içinə baxaraq "bu adam bizi maşının içində yandırmaq istəyirdi" söyləməsi oldu. Otuz iki il əvvəl erməni silahlı quldurlarının Meşəlidə törətdiyi vəhşiliklərin canlı şahidi, kənd sakini Ziyəddin Salmanovun sözləridir.**

1991-ci ildə Şuşanın post-patrul xidmətinin qərargah rəisi vəzifəsində çalışmış Azay Kərimovun Vaqif Xaçatryan barədə dedikləri: "O zaman bir nömrəli terrorçu qrupların rəhbərləri Samvel Babayan, Armais,Köçəryan, Balasanyan və Serj Sarkisyan idi. Bu quldur dəstəsi Qarabağın müxtəlif rayonlarına, kəndlərinə daxil olub münaqişə yaradır, anti-Azərbaycan təbliğatı aparırdılar. Əmrə tabe olmayanları döyür, qadınlara zor tətbiq edirdilər. Bu şəxslərdən biri Vladik ləqəbi ilə tanınan Vaqif idi. Onu həbs edib Şuşa türməsinə apardıq. İki aydan sonra oradan qaçdı. Bax, Meşəli soyqırımı da bundan sonra başladı...".

Həmin faciəli günləri təkrar xatırlamağa və deməli, yaşamağa məcbur olan Meşəli soyqırımından sağ çıxmış insanların, o cinayətin canlı şahidlərinin Vaqif Xaçatryanın əməllərindən danışdıqlarına həyəcansız qulaq asmaq olmurdu. O anlar hakimlər heyətinin və dövlət ittihamçılarının hansı hissləri keçirdiklərini sözlə ifadə etmək mümkün deyil. Məgər insanlıq sifətlərini itirmiş erməni silahlı quldurlarının Meşəlinin dinc sakinlərinə qarşı törətdikləri əməlləri sakitcə dinləmək olardımı?

Son 200 ildə erməni millətçi-şovinistlərin, daşnakların yürütdüyü "anti-türk", "anti-Azərbaycan" siyasətinə məruz qalmış, doğma yurdlarından qovulmuş soydaşlarımız qaçqına, məcburi köçkünə çevrildi. İntəhası, hər başlanğıcın bir sonu var. Atalar demişkən, haqq nazilər, amma üzülməz. Bu gün Azərbaycan dövləti tarixi ədaləti bərpa edir. Torpaqlarımız işğaldan azad edildi, xalqımız öz doğma yurdlarına qovuşur. Dünyanın tanıdığı beynəlxalq ədalət, böyük güclər, ermənipərəst dairələr, anti-Azərbaycan koalisiyaları hər nə qədər ikili standart sərgiləyib erməni vandalizminin üstünü örtməyə çalışsalar da, həqiqət on illərin altından boy atıb çıxdı. İndi haqsızlığa "ləbbey" deyənlər kimi, əlləri xalqımızın qanına bulaşmış erməni cəlladları üçün da məhşər günüdür.

* * *

İş üzrə təyin edilmiş kompleks ambulator məhkəmə-psixiatrik və psixoloji ekspertizasının 2023-cü il 13 sentyabr tarixli 2621 saylı rəyinə əsasən, Vaqif Xaçatryan hər hansı bir psixi xəstəlikdən əziyyət çəkmir. V.Xaçatryanda, həmçinin ona ittiham olunan əməl dövründə hər hansı bir psixi xəstəlik və ya psixi fəaliyyətin müvəqqəti pozulması əlamətləri aşkar olunmayıb. Həmin dövrdə o, öz hərəkətlərinin faktiki xarakterini və ictimai təhlükəliliyini dərk etmək və onları idarə etmək iqtidarında olub. Buna görə də V.Xaçatryan ona ittiham olunan əməl barəsində anlaqlı hesab olunmalıdır.

Məhkəmə prosesində, həmçinin qeyd edilib ki, Vaqif Xaçatryan cinayət əməllərini törədərkən psixi-emosional sferasında qəzəb, aqressiya kimi emosional hallar yaranıb və bu vəziyyət



onun davranışını müəyyən edib. Həmin halın yaranması Azərbaycan xalqına qarşı düşmənçilik münasibəti, kin, nifrət bəsləməsi ilə şərtlənib. Vaqif Xaçatryan emosional halından asılı olaraq öz hərəkətlərini tam dərk etmək və idarə etmək qabiliyyətində olub. Yəni, o, cinayət əməllərini törədərkən qəflətən baş vermiş güclü ruhi həyəcan vəziyyətində, fizioloji affekt halında olmayıb. Azərbaycan femidası bu prosesi beynəlxalq hüququn norma və qaydalarına riayət etməklə, cinayətkarın günahsızlıq prezumpsiyasını, digər hüquqlarını tam gözləməklə aparıb.

Qanunsuz erməni silahlı birləşmələrinin tərkibində Xocalı rayonunun Meşəli kəndində soyqırımı törətməkdə təqsirləndirilən Xaçatryan Vaqif Çerkezoviçin cinayət əməlləri üzrə Bakı Hərbi Məhkəməsində hakim Zeynal Ağayevin sədrliyi ilə aparılan məhkəmə istintaqı dünən başa çatdı. Qaldırılan cinayət işi üzrə V.Xaçaturyanın Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 103 (soyqırımı) və 107-ci (əhalini deportasiya etmə və ya məcburi köçürmə) maddələrilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb olunması barədə qərar qəbul edilmişdi. Vaqif Xaçatryanın hüquqlarını Vəkillər Kollegiyasının üzvü Radmila Abılova müdafiə edirdi.

Prosesdə dövlət ittihamçıları – baş prokurorun böyük köməkçisi, 3-cü dərəcəli dövlət ədliyyə müşaviri Müqəddəs Sultanov və ədliyyə müşaviri Cövdət Mehrəliyev çıxış ediblər. Prokuror ittiham nitqində Vaqif Xaçatryana 15 il azadlıqdan məhrumetmə cəzası verilməsini tələb edib. Erməni cəlladına istənilən cəzanın yüngüllüyü oxucunu təəccübləndirə bilər. Amma ortada beynəlxalq hüquqla yanaşı, Azərbaycanın milli qanunvericiliyi var. Prokuror Meşəli soyqırımını törətməkdə təqsirləndirilən Vaqif Çerkezoviç Xaçatryana niyə ömürlük deyil, məhz 15 il cəza tələb etməsinin səbəbini də izah edib.

Əslində, soyqırımı, sülh və müharibə əleyhinə cinayətlərə görə cəzanın ən yuxarı həddi ömürlük azadlıqdan məhrumetmə sayılır. İntəhası, Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən, hökm çıxarılanadək 65 yaşı tamam olan şəxslərə ömürlük azadlıqdan məhrumetmə cəzasının verilməsi qadağandır.

* * *

Prokurorun izahına görə, V.Xaçatryanın bu yaş həddini keçməsi səbəbindən ona ömürlük azadlıqdan məhrumetmə cəzasının verilməsi mümkün deyil. Bundan başqa, hazırda Azərbaycan qanunvericiliyinə görə, 65 yaşından yuxarı şəxslərə ittiham olunduğu ağır cinayətlərə görə 20 il azadlıqdan məhrumetmə cəzası ən yuxarı hədd sayılır. Fəqət V.Xaçatryan cinayət əməllərini otuz iki il bundan əvvəl, 1991-ci ildə törədib. Azərbaycan Respublikasının 2014-cü ilə qədər qüvvədə olan qanunvericiliyində sülh və müharibə əleyhinə olan cinayətlərə görə cəza müddəti 10 ildən 15 ilə qədər azadlıqdan məhrumetmə nəzərdə tutulub. Ölkəmizin qoşulduğu Beynəlxalq konvensiyalara əsasən, şəxs hadisəni törətdiyi vaxta uyğun olan qanunvericiliyə görə cəzalanmalıdır. Yəni, Vaqif Xaçatryan hazırkı qanunvericilikdə olan sanksiya həddində yox, əməlin törədildiyi vaxtda mövcud olan qanunvericiliklə cəzalanması hüquqi baxımdan doğrudur.

Bu səbəbdən də prokuror çıxışında Meşəli qətlinə qanunvericiliyə əsasən, ittiham olunduğu maddələr üzrə ən yuxarı hədd olan 15 il azadlıqdan məhrumetmə cəzası tələb edib.

Hazırda məhkəməsi yekunlaşan Vaqif Xaçatryanla birlikdə 1991-ci ilin dekabr ayında Xocalı rayonunun Meşəli kəndində 27 azərbaycanlını öldürüb, 21 nəfərə xəsarət yetirib, 358 nəfər azərbaycanlını isə qanuni yaşadıqları yerdən didərgin salan ermənilərin adı məlum olub. Onu da qeyd edək ki, o vaxt kəndin sakinlərinə 13 568 060 manat, dövlətə isə 130 800 manat dəyərində ziyan vurulub.

Həmin şəxslər Xocalı rayonunun Badara kənd sakinləri Sarkisyan Emest Baxşıyeviç, Sarkisyan Armais Baxşıyeviç, Qasparyan Benik Astanoviç, Abramyan Xoren Melikoviç, Avanesyan Armen Sarkisoviç, Sarkisyan Vova Armaisovic Xaçaturyan Qariy Nikolayeviç, Kaçaturyan Nikolay Beglaroviç, Abramyan Armen Qaragenoviç, Abramyan Eduard Armenovic, Abramyan Zina Armenovic, Abramyan Vahid Armenoviç, Ohanyan Karen Aşotoviç, Ohanyan Naorik Aşotoviç, Qasparyan Qurgen Benikoviç, Gasparyan Valery Benkovic, Davidyan Albert Melikoviç, Saakyan Samvel Rafikoviç, Osipyan Asatur Baxşıyeviç, Xaçatryan Karlen Baxşıyeviç, Israelyan Eduard Beglaroviç, Avakyan Artur Vartanoviç, Sarkisyan Surik Armaisoviç, habelə Verdi Allahverdiyan. Vilen Verdiyan, Qrişa Magişoviç, Slavik Ardemoviç, Qavruşa Zaduroviç, Ruben, Andronik adlı və şəxsiyyətləri istintaqa məlum olmayan şəxslərdir.

* * *

Onların hamısı Qarabağ iqtisadi rayonumuzda yaşayan, həmçinin Ermənistandan gələn digər millətçilərlə birləşib, Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı hərbi birləşmələrdən ibarət cinayətkar birliyin fəaliyyətində yaxından iştirak ediblər.

Artıq birmənalı şəkildə deyə bilərik ki, həmin cinayət əməllərinin törədilməsi məqsədilə Vaqif Xaçatryan və digərləri Azərbaycan və erməni millətləri arasında milli nifrət və düşmənçilik salmaqda itiham olunurlar. Onlar azərbaycanlıların milli layaqətinin alçaldılmasında, etnik mənsubiyyətinə görə hüquqlarının məhdudlaşdırılmasında və bəşəri cinayətlərin törədilməsində fəal iştirak ediblər. Məhz V.Xaçatryanın üzvü olduğu erməni quldur dəstəsi 1988-ci ilin yayından etibarən Xocalı (keçmiş Əsgəran) rayonunun Meşəli kəndindən Ağdam, Xocalı, Xankəndi şəhərlərinə gedən azərbaycanlılara yollarda mütəmadi hücumlar təşkil etmiş, onları döymüş, təhqir etmiş, öldürməklə hədələmişlər. Bunlar erməni faşizminin heç vaxt unudulmayacaq, həm də ən yeni tarixin silinməyən səhifələridir.

Yuxarıda qeyd etdiyimiz kimi, bu, hələ başlanğıcdır. On, iyirmi, otuz iki il bundan əvvəl soydaşlarımıza qarşı bəşəri cinayətlər törətmiş erməni cəlladlarının hamısını ədalət mühakiməsi gözləyir. İndi növbə kimindir?

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**

**Bu məhkəmə prosesinin siyasi və mənəvi tərəfi ondan ibarətdir ki, cinayət heç vaxt cəzasız qalmır. Törədilmiş cinayət əməllərinin üzərindən otuz il keçməsinə baxmayaraq həmin erməni cəlladları mütləq məhkəmə qarşısında cavab verməlidirlər. Nəticədə layiqli cəzalarını da alacaqlar. Düşünürük ki, bu baxımdan, yəni ədalətin bərqərar olması nöqteyi-nəzərindən bu proses olduqca vacibdir. Həmin qanlı terror hadisələrinin başqa iştirakçıları da olub. Meşəli soyqırımının təşkilatçıları da, icraçıları da bizə məlumdur. Ermənistanın keçmiş müdafiə naziri Ohanyan da o cinayətkarların arasındadır. O dövrdə Xankəndidəki 366-cı atıcı alayın batalyon komandiri idi və Sovet ordusundan dinc azərbaycanlılara qarşı istifadə edənlərin başında dururdu. Onun kimi insanlığa qarşı cinayət törətmiş digərləri də var. Əslində, bu məhkəmə prosesi onlar üçün bir siqnaldır. Yəni, Qarabağda, işğal etdikləri rayonlarımızda azərbaycanlılara qarşı cinayətlərdə əli olan müharibə canilərinin, erməni faşistlərinin hamısı femida qarşısına çıxarılacaq. Bu, təkcə onlara deyil, separatizmə və revanşizmə meyilli qüvvələrə də görk olmalıdır.**

---

# Pallonenin "müdafiə uvertürası"

## Amerikalı konqresmen Ermənistanın cənubunu "mümkün hücumdan" qorumağa hazırlaşır

**Azərbaycanın Ermənistana qarşı hər hansı ərazi iddiasının olmadığı barədə dəfələrlə verilən yüksək səviyyəli bəyanatlara baxmayaraq, Qərbdəki bəzi dairələr bu sayaq fikirlərdən əl çəkmirlər. Ölkəmizin, guya, Ermənistanın cənubuna hücum edəcəyi iddiası ermənipərəstlərin Azərbaycanın ünvanına atdıqları çoxsaylı böhtanların yeni bir elementinə çevrilib. Zaman onların fikirlərinin əsassız olduğunu sübut etməkdədir. Ancaq onlar ayıblarına kor olmaqdansa, yenə də tutuquşu kimi eyni sözləri təkrarlamaqdadırlar.**

Sonuncu dəfə ermənilərə ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvü Frenk Pallone "canıyananlıq" edib. O, yenidən Ermənistanın təhlükəsizliyinin təmin olunmasına çağırıb və ABŞ-ın humanitar sahədə köməyinə ehtiyac olduğunu vurğulayıb. Konqresmen bunu Nyu-Cersi ştatının Elberon şəhərində yerləşən Müqəddəs Stefan erməni kilsəsinin 35 illiyinə həsr olunmuş mərasimdə bildirib. Mərasimlə bağlı "X" platformasındakı hesabında yazıb: "Müqəddəs Stefan erməni kilsəsinin 35-ci ildönümünə həsr olunmuş mərasimdə Azərbaycanın "Artsaxa" hücumundan (?) sonra ABŞ-ın Ermənistana təhlükəsizlik sahəsində kömək etməsinin və humanitar yardım göstərməsinin zəruriliyindən danışdım. Azərbaycanın Ermənistanın cənubuna mümkün hücumu ABŞ-dan tədbir görməyi tələb edir".

Qeyd edək ki, F.Pallone ABŞ Konqresindəki qatı ermənipərəstlərdən biridir. Azərbaycana və bütün türk dünyasına nifrət onun siyasi karyerasından, necə deyərlər, qırmızı xətlə keçir. 1951-ci ildə dünyaya göz açmış Pallone Demokratlar Partiyasının üzvüdür. Demokratlar Partiyasının üzvləri isə bir qayda olaraq, ermənilərə həddən artıq yaxınlıqları ilə tanınırlar. Konqresdəki erməni lobbi qrupuna daxil olanlar da əsasən demokratlardır. Sirr deyil ki, Azərbaycan uzun illərdir ABŞ-ın strateji müttəfiqi olan Avropa İttifaqının enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Rusiya–Ukrayna



müharibəsi fonunda ölkəmizin önəmi daha da artıb. Azərbaycanın 2001-ci il sentyabrın 11-də baş vermiş terror aktlarından sonra Birləşmiş Ştatlara verdiyi dəstək də son dərəcə böyük idi. Əlbəttə, Azərbaycanın Qərbə dəstəyi ilə bağlı daha çox danışmaq və yazmaq olar. Ancaq buna ehtiyac yoxdur. Amerikalı demokrat konqresmenlər özləri də hər şeyi çox yaxşı bilirlər. Ancaq bunu bildikləri halda Azərbaycanı ittiham etmək, ölkəmizin ünvanına böhtan atmaq yolunu tutublar. Onların bu mövqeyi ABŞ-ın özünün milli maraqlarına ziddir.

Azərbaycanın torpaqlarının işğal altında olduğu dövrdə ölkəmizlə bağlı bütün bədnam təşəbbüslərin müəllifləri əsasən demokratlar olublar. Erməni lobbisinin maraqlarından çıxış edən demokratlar 1992-ci ildə Azadlığa Dəstək Aktına 907-ci düzəlişin edilməsinə nail olublar. Həmin düzəliş Azərbaycana ABŞ-ın birbaşa dövlət yardımını qadağan edib. Nəticədə ərazisi işğal olunmuş, böyük qaçqın ordusu ilə üzləşmiş, iqtisadi imkanları zəif olan Azərbaycan ABŞ hökumətindən birbaşa yardım almayan yeganə postsovet dövlətinə çevrilmişdi. 907-ci düzəliş sonralar (2013-2017-ci illərdə) ABŞ-ın Dövlət katibi olan demokrat senator Con Kerri tərəfindən irəli sürülüb. Respublikaçı senator Riçard Luqar düzəlişin qəbul edilməsinin əleyhinə çıxış etsə də, düzəliş Konqres tərəfindən qəbul edilib. ABŞ-ın hazırkı prezidenti, demokrat Cozef Bayden düzəlişin qəbulunda fəal rol oynayıb. Yalnız 2001-ci il 11 sentyabr terrorundan sonra Azərbaycanın beynəlxalq terrorizmlə mübarizədə dəstəyini təmin etmək məqsədilə ABŞ Konqresi prezidentə düzəlişin hüquqi qüvvəsini dayandırmaq səlahiyyəti verib. Zənnimizcə, bu, ABŞ demokratlarla respublikaçıların Ermənistan–Azərbaycan münasibətləri ilə bağlı mövqeyinə dair ən yaxşı nümunələrdən biridir. Bundan əlavə, demokratlar ABŞ-ın Azərbaycana helikopter satışına icazə verən Konqresin qətnaməsini, eləcə də Metyu Brayzanın Birləşmiş Ştatların Azərbaycandakı səfiri vəzifəsinə təyin olunmasını əngəlləyiblər.

Ermənistanla Azərbaycan arasında mövcud olmuş münaqişənin başa çatmasına, bölgədə yeni reallıqların yaranmasına, iki ölkənin sülh müqaviləsi üzrə danışıqlar aparmasına baxmayaraq, demokratlar öz amplualarındadır. Bundan öncə digər ermənipərəst demokrat konqresmen, 2023-cü ilin sentyabrında məxfi informasiyaların Misir hakimiyyətinə ötürülməsində və rüşvət müqabilində onların maraqları üçün fəaliyyət göstərməkdə ittiham olunan Robert (Bob) Menendes də oxşar açıqlamalarla çıxış etmişdi. Maraqlıdır ki, hər ikisinin eyni partiyanın üzvü olması ilə yanaşı, Menendeslə Pallonenin bir sıra oxşarlıqları var. Onlardan hər ikisi Nyu-Cersi ştatında doğulub. Hazırda da Konqresdə bu ştatı təmsil edirlər. Birinin 69, digərinin 72 yaşı var. R.Menendesin arvadı Nadin Arslanyan milliyyətcə ermənidir. Qatı ermənipərəst konqremen, uzun illərdir ki, Konqresdə ermənilərə lobbiçilik edən və hər fürsətdə onların tərəfini tutan F.Pallonenin də həyat yoldaşının erməni olduğu bildirilir. Artıq ömrünün ixtiyar çağında olan bu şəxslər hazırda iki xalq arasında sülhə, əmin-amanlığa çağırış etmək əvəzinə, yenidən etnik nifrəti qızışdırmaq yolunda növbəti addımlarını atırlar. Bu isə ancaq təəssüf doğurur.

Mövzu ilə bağlı fikirlərini "Xalq qəzeti" ilə bölüşən **politoloq Zaur Məmmədov** bildirib ki, son bir neçə ay ərzində, ələlxüsus, torpaqlarımızın hər qarışı üzərində suverenliyimizin bərpa edildiyi uğurlu antiterror tədbirlərindən sonra Avropa qitəsində və ABŞ-da anti-Azərbaycan elementləri güclənməkdədir. Onun sözlərinə görə, bu sırada Avropada Fransa, Avropa Parlamenti, qitənin bir sıra ölkələrinin parlamentləri, ABŞ-da isə Frenk Pallone, Robert Menendes kimi konqresmenlər xüsusi fəallıq göstərirlər: "Biz son vaxtlar anti-Azərbaycan və ermənipərəst qüvvələrin bütün istiqamətlərdə paralel olaraq fəallaşmasının şahidiyik. Zənnimcə, bu bir təsadüf deyil. Sinxron hərəkətlənmə mövcuddur. Yəni, bir tərəfdən ermənilərin xeyrinə olan addımlar atılır. Bunu həm erməni diaspor fəalları, yaxud onların ətrafındakı mərkəzlər edirlər. Digər tərəfdən, siyasət adamları, ictimai rəyə təsir edən şəxslər öz fəaliyyətlərini genişləndiriblər. Frenk Pallonenin aktivləşməsi də bunun bir göstəricisidir. Qeyd etdiyim kimi, bu da təsadüfi deyil. Həmin sinxron hərəkətlənmə Azərbaycan dövlətinin və xalqının Vətən müharibəsindən ötən üç il



ərzində ardıcıl qələbələr əldə etməsi ilə bağlıdır. Bu qələbələrin ən sonuncusu antiterror tədbirləri oldu. Bununla da ərazilərimiz üzərində suverenliyimiz tam təmin edildi".

Zaur Məmmədov qeyd edib ki, bütün bunlar Ermənistandakı revanşist kəsimlə yanaşı, onların xaricdəki havadarlarının da yuxusunun ərşə çəkilməsinə səbəb olub. Nəticədə Azərbaycanın, guya, Ermənistanın cənubuna hücum edəcəyi ilə bağlı saxta xəbərlər yayılır: "Pallonenin və digərlərinin bu cür fikirlərinin heç bir əsası yoxdur. Azərbaycan Ermənistanın 29,8 min kvadratkilometr çərçivəsində ərazi bütövlüyünü tanıdığını hələ ötən ilin oktyabrında Praqada keçirilən Avropa Siyasi Birliyinin I sammiti çərçivəsində imzalanmış sənəddə bəyan edib. Ermənistan da Azərbaycanın 86,6 min kvadratkilometrdə ərazi bütövlüyünü tanıdığını bildirib. Bu baxımdan Pallonenin Azərbaycanın Ermənistana hücum edəcəyi ilə bağlı səsləndirdiyi fikirlərin heç bir əsası yoxdur. Onlar bu kimi açıqlamalarla bölgədə vəziyyətin gərgin olaraq qalmasında xüsusi maraqlarını ortaya qoymuş olurlar".

***Səxavət HƏMİD***
***XQ***

# Qarabağ və Şərqi Zəngəzurun xarabalıqları cənnətə çevrilir

## *3 ildə bölgənin dirçəldilməsinə 7 milyard manat vəsait yönəldilib*

**Artıq 3 ildir ki, azadlığına qovuşan torpaqlarımızda böyük quruculuq və bərpa layihələrinin icrası getdikcə sürətlənir. Prezident İlham Əliyev Qarabağ və Şərqi Zəngəzura səfərləri zamanı strateji infrastruktur obyektləri işə salınır, yenilərinin təməli qoyulur. Bununla da 30 ildə düşmənin yağmaladığı, dağıdaraq viran qoyduğu yurd yerlərimizə yeni nəfəs gəlir, şəhər və kəndlərimizdə həyat yenidən dirçəlir.**



Vətən müharibəsindən ötən müddət ərzində işğaldan azad olunan ərazilərin mina və partlamamış hərbi sursatdan təmizlənməsi, istehsal və xidmət infrastrukturunun qurulması, iqtisadi fəaliyyətin, o cümlədən nəqliyyat-kommunikasiya xətlərinin bərpası istiqamətində mühüm layihələr həyata keçirilib, müasir texnologiyalar əsasında “ağıllı şəhər” və “ağıllı kənd”lər inşa olunub. Əhalinin dayanıqlı məskunlaşmasını, həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsini şərtləndirən aqrar sahənin inkişafı diqqətdə saxlanılıb.

Bölgənin bərpasına başlanıldığı vaxtdan ötən müddətdə dövlət başçısının iştirakı ilə Ağdam, Füzuli, Cəbrayıl şəhərlərinin bərpasının təməl daşı qoyulub, digər şəhərlərimizin isə baş planının hazırlanmasına başlanılıb. Həmçinin Ağdamda sənaye, Cəbrayılda “Araz Vadisi İqtisadi Zonası” sənaye parklarının, Zəngilan və Laçında hava limanlarının və digər infrastruktur obyektlərinin təməlqoyma mərasimləri keçirilib.

Düşməndən təmizlənən ərazilərdə bütün bu işlərlə yanaşı, Silahlı Qüvvələrimizin modernləşməsinə, yeni müasir silahlarla, döyüş texnikası ilə təminatına və şərti sərhədlərin möhkəmləndirilməsinə xüsusi önəm verilib.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında 3 il ərzində genişmiqyaslı bərpa-quruculuq layihələri sırasında yol infrastrukturunun sürətlə qurulmasına daha çox əhəmiyyət verilib. Vətən müharibəsindən dərhal sonra başlanan 28,5 kilometrlik Tərtər–Çaylı–Suqovuşan–Talış avtomobil yolu 2020-ci ildə, 101,5 kilometrlik “Zəfər yolu” 2021-ci ildə inşa edilib. 2022-ci ildə Laçın şəhərinə daxil olmadan 22 kilometrlik yeni alternativ avtomobil yolunun tikintisi başa çatdırılıb.

Hazırda düşməndən təmizlənən ərazilərdə 14 avtomobil yolu tikilir ki, onlardan 8-inin çəkilişinin cari ildə yekunlaşacağı gözlənilir. İnşaat işləri davam edən Füzuli–Hadrut, Hadrut–Tuğ–Azıx mağarası, Bərdə–Ağdam, Qubadlı–Eyvazlı, Qubadlı–Mahmudlu–Yazdüzü–Ermənistan sərhədi, Talış–Tapqaraqoyunlu–Qaşaltı–Naftalan, Kəlbəcər və Laçın rayonları ərazisində reallaşdırılan layihələrin isə son mərhələsi həyata keçirilir.

Xatırladaq ki, “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın icrasına dair Tədbirlər Planına əsasən, 2026-cı ilədək ümumi uzunluğu 2264,5 kilometrlik 20 avtomobil yolunun və Laçın rayonunda Beynəlxalq Hava Limanının tikintisi ilə əlaqədar qazma və torpaq işlərinin yerinə yetirilməsi nəzərdə tutulur.

Qarabağ və Şərqi Zəngəzurda məskunlaşmanın sürətlə aparılması bu ərazilərin elektrik enerjisi ilə təchizatı sisteminin yüksək səviyyədə qurulmasından asılıdır. Ona görə də müharibədən sonra bölgənin energetika sisteminin gücləndirilməsi daim diqqətdə saxlanılır. Prezident İlham Əliyevin tapşırığı ilə hazırlanan Reabilitasiya Proqramı çərçivəsində bu sahə əsaslı şəkildə müasirləşdirilir, “itirilmiş” generasiya gücləri bərpa edilir. Cari ilin ötən ayları ərzində “Cəbrayıl”, “Hadrut”, “Qorçu”, “Laçın” yarımstansiyalarının, “Qamışlı”, “Meydan”, “Çıraq-1”, “Çıraq-2”, “Soyuqbulaq”, “Mişni” və “Alxaslı” kiçik su elektrik stansiyalarının istismara verilməsi də bunun bariz ifadəsidir.

Qarabağ və Şərqi Zəngəzurda “yaşıl enerji”nin realllaşdırılması da prioritet istiqamətlərdən biridir. Bununla bağlı 2022–2026-cı illəri əhatə edən tədbirlər təkcə bərpaolunan enerjinin inkişafı ilə məhdudlaşmır, enerji keçidinin bütün komponentləri üzrə fəaliyyəti də təşviq edir. Bu çərçivədə azad olunan ərazilərdə ümumi gücü 636 KVt olan Arximed qurğusu, 200-dən çox fərdi yaşayış evində günəş kollektoru, 170-dən çox binada günəş paneli, ictimai və sosial obyektlərdə ümumi gücü 800 kVt-dan çox olan günəş enerjisi sistemləri, həmçinin enerji səmərəli işıq dirəkləri, “ağıllı” dayancaqlar, elektrik doldurma məntəqələri quraşdırılıb.

Bölgədə “yaşıl enerji”nin realllaşdırılmasından bəhs edərkən bir göstəricini də xatırlatmaq yerinə düşərdi. Belə ki, Qarabağ və Şərqi Zəngəzurda indiyədək 90 meqavat həcmində hidroelektrik enerji potensialı hərəkətə gətirilib. Başqa sözlə, bu həcmdə enerji ölkəmizin mərkəzi şəbəkəsinə ötürülüb və düşməndən təmizlənən yaşayış sahələrinə tam inteqrasiya edilib.

Respublikamızın azad olunan ərazilərində hidroelektrik enerjinin həcmi isə bu ilin sonunadək 170 meqavata, 2024-cü ilin sonuna qədər isə 270 meqavata çatacaq. Bu da təbii ki, Azərbaycanın “yaşıl enerji” gündəliyinə böyük töhfə olacaq. Belə bir proqnozun isə əsası var. Çünki Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının 10 min meqavat “yaşıl enerji” potensialı mövcuddur. Bura həm günəş, həm külək, həm də su elektrik stansiyaları aiddir. Əslində, bu, Azərbaycanın enerji potensialının cüzi bir hissəsidir. Xəzər dənizinin Azərbaycan sektorunda külək enerjisi potensialını (157 qiqavat) bura əlavə etsək, mövcud vəziyyət haqqında aydın təsəvvür yaranar.

Bütün bu infrastruktur tədbirlərinin reallaşdırılması nəticəsində Azərbaycanın 30 ilə yaxın bir dövr ərzində işğal altında qalan torpaqlarında bu gün bir coşğunluq yaşanır, Zəngilan, Laçın və Füzulinin yurd-yuva həsrəti ilə yaşayan keçmiş məcburi köçkünləri məskunlaşdırılır.

Vətən savaşından sonra ilk dəfə yurd həsrətinə Zəngilan rayonunun “Ağıllı kənd” konsepsiyası əsasında yenidən salınan Ağalı kəndində son qoyulub. Xatırladaq ki, bu yaşayış məntəqəsində sakinlərin rahat yaşayışını təmin etmək üçün hər cür şərait qurulub. Kənddə “Ağıllı kənd” konsepsiyasının hər üç komponenti – “ağıllı dövlət idarəçiliyi”, “ağıllı infrastruktur və xidmətlər”, eyni zamanda, “ağıllı təsərrüfat və biznes mühiti” yaradılıb.

Zəngilan rayonunda yaradılan “Dost Aqropark” isə klaster yanaşmanın bariz nümunəsidir. Üç mərhələdə həyata keçirilən layihənin təməli 2021-ci il oktyabrın 26-da dövlətimizin başçısı İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qoyulub. Artıq aqroparkda birinci mərhələ üzrə görüləcək bütün işlər başa çatdırılıb. İnzibati binalar, 5 min 200 kvadratmetrlik qapalı, 113 min kvadratmetrlik açıq tipli heyvandarlıq kompleksləri, xidməti heyətin yaşayış binaları tikilib. Kompleksə 3500 baş cins qaramal gətirilib və əkinçilik məhsullarının istehsalı reallaşdırılıb.

Bu gün “Dost Aqropark”ın ikinci və üçüncü mərhələləri üzrə işlər davam etdirilir. Layihənin hər 3 mərhələsinin başa çatdırılması nəticəsində 6 min hektar sahədə bitki mənşəli istehsal və texnika sahələri yaradılacaq, 10 min baş cins heyvanın yetişdirilməsi üçün maldarlıq, eləcə də toxumçuluq və şitilçilik sahələri salınacaq. Bununla yanaşı, bütün bölgəyə hədəflənən inteqrasiya olunmuş ət emalı və qablaşdırma müəssisəsi qurulacaq, tutumu 100 min ton olan anbar inşa ediləcək. İstehsal olunan məhsullar yerli tələbatı ödəməklə yanaşı, “Made in Qarabağ” brendi ilə dünya bazarına çıxarılacaq.

“Dost Aqropark” ətraf mühitin və təbiətin mühafizəsi ilə yanaşı, halal qida prinsipi ilə fəaliyyət göstərəcək. Burada ekosistemin yaradılması üçün ümumilikdə 100 milyon dollar dəyərində sərmayə qoyulacaq.

Füzuli rayonunun Dövlətyarlı kəndində də “Ağıllı kənd” layihəsinin təməli qoyulub. “Yaşıl” və alternativ enerjinin, “ağıllı idarəetmə” sisteminin reallaşdırılacağı “Ağıllı kənd” layihəsinə əsasən üç, dörd və beşotaqlı olmaqla, ümumilikdə ilkin mərhələdə 450 evin inşası nəzərdə tutulub. Burada, həmçinin məktəb və uşaq bağçasının tikilməsi planlaşdırılıb. Kəndin ətrafında isə “Ağıllı kənd təsərrüfatı” sahəsinin salınacağı nəzərdə tutulub. Beləliklə, sakinlərin rahat yaşamaları və kənd təsərrüfatı ilə məşğul olmaları üçün bütün zəruri işlərih həyata keçirilməsi mühüm vəzifə kimi qarşıya qoyulub.

İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra bugünədək bərpa işlərinə Azərbaycan büdcəsindən 7 milyard dollar həcmində vəsait sərf edilib. Növbəti il üçün isə planlaşdırılan minimum büdcə 2,4 milyard dollar həcmində nəzərdə tutulub. Deməli, ölkəmiz heç bir maliyyə dəstəyi, heç bir maliyyə yardımı almadan Qarabağ və Şərqi Zəngəzurun bərpasını həyata keçirirb. Düzdür, burada istisna olaraq iki qardaş ölkə – Özbəkistan və Qazaxıstan biri məktəb, digəri isə incəsənət mərkəzinin inşasını üzərlərinə götürüb və təhsil müəssisəsi artıq məktəblilərin ixtiyarına verilib.

Sonda qeyd edək ki, müvafiq Dövlət Proqramına əsasən, Qarabağ və Şərqi Zəngəzurda ilkin mərhələdə 8 şəhər, 8 qəsəbə və 84 kəndin bərpa edilməsi nəzərdə tutulub. Prezident İlham Əliyevin iştirakı ilə 29 yaşayış məntəqəsinin təməli qoyulub. Ümumilikdə, müharibədən ötən müddətdə bərpa-quruculuq layihələri çərçivəsində dövlətimizin başçısı tərəfindən 63 müxtəlif təyinatlı obyektin açılışı olub, çoxsaylı sosial infrastruktur yenidən qurulub, iki hava limanı, avtomobil və dəmir yolları, su elektrik stansiyaları, su anbarları, məktəblər, xəstəxanalar və digər obyektlər tikilərək istifadəyə verilib. Bütün bunlarla bərabər, Laçın və Füzuli şəhərlərinə, Zəngilanın Ağalı, Tərtərin Talış və Laçının Zabux kəndlərinə keçmiş məcburi köçkünlərin qayıdışı gerçəkləşdirilib.

***Vaqif BAYRAMOV***
***XQ***

## Qeyri-neft-qaz sektorundan vergi daxilolmaları artıb



**Bu ilin yanvar-oktyabr aylarında Dövlət Vergi Xidmətinin xətti ilə dövlət büdcəsinə vergi daxilolmalarının həcmi artıb. İqtisadiyyat naziri Mikayıl Cabbarovun bildirdiyinə görə, ilin ötən 10 ayında vergilərdən dövlət büdcəsinə 14 milyard 593,5 milyon manat vəsait daxil olub ki, bu da 2022-ci ilin eyni dövrü ilə müqayisədə 4,2 faiz çoxdur.**

Nazir qeyd edib ki, bu müddətdə qeyri-neft-qaz sektorundan vergi daxilolmaları ötən ilin müvafiq dövrü ilə müqayisədə 19,2 faiz artaraq 8 milyard 387,4 milyon manat təşkil edib.

***XQ***




## Zəngilan meşəli şəhər olacaq

**Zəngilan şəhərinin Baş planı aidiyyəti dövlət orqanları ilə razılaşdırılaraq Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilib. Yarısını yaşıllıq təşkil edən şəhər meşəliyə bürünəcək.**

Baş planın konsepsiyasına əsasən, Zəngilan logistika, turizm və ticarət, bərpa olunan enerji, müasir innovasiyalar mərkəzi kimi inkişaf etdiriləcək. Şəhərin beynəlxalq əhəmiyyəti nəqliyyat dəhlizinin üzərində yerləşməsi onun strateji məntəqə rolunu gücləndirəcək, sürətli inkişafına töhfə verəcək. Zəngilanın yaxınlığında ən müasir dünya standartlarına uyğun inşa edilərək artıq istismara verilmiş Beynəlxalq Hava Limanı, inşası davam edən magistral dəmir və avtomobil yolları onu əhəmiyyətli regional logistik mərkəzə çevirəcək.

Eyni zamanda, şəhər gözəl iqlimi, mənzərəli landşaftı, yaşıl çayətrafı bulvarı və digər ictimai məkanları, habelə “ağıllı şəhər”, “ağıllı mobillik” və “yaşıl enerji” yanaşmaları, zövqlü memarlığı, rahat şəhər mühiti və müasir sosial infrastrukturu sayəsində yüksək həyat keyfiyyəti ilə seçiləcək.

***XQ***



# Sənaye zonalarında 71 yeni müəssisə yaradılıb

## *Həmin zavodlara 6,6 milyard manat investisiya yatırılıb, 11 mindən çox iş yeri açılıb*

**Azərbaycanın sənaye zonalarında bu gün 71 müəssisə fəaliyyət göstərir. Gələn il isə Ağdam Sənaye Parkında bir neçə müəssisənin, o cümlədən müxtəlif növ məhsullar istehsal edəcək “BAFCO Invest”, “Metkons” və “Mister Decor” məhdud məsuliyyətli cəmiyyətlərin açılışı nəzərdə tutulur.**

### Ekspert rəyi

**Samir HEYDƏROV, iqtisadçı-ekspert**



Sənaye park və məhəllələri xarici investisiyaların ölkəyə cəlbində və qeyri-neft sektorunun inkşafında mühüm rol oynayırlar. Onlar yeni texnologiyaların ölkəyə transfer olunmasında, bununla da rəqabətqabiliyyətli əmtəələr istehsal edilməsində daha çox fərqlənirlər. Eyni zamanda, yerli şirkətlər sənaye park və məhəllələrinin yaradılması ilə bağlı beynəlxalq təcrübədən bəhrələnməklə həmin texnologiyalar əsasında yeni milli istehsal müəssisələrinin açılmasına böyük maraq göstərirlər.

Onu da qeyd edim ki, belə müəssisələrdə buraxılan məhsullar keyfiyyətinə görə xüsusi diqqət çəkir. Bu səbəbdən də onların ixrac coğrafiyası getdikcə genişlənir. İndiyə qədər ölkəmizin sənaye park və məhəllələrində 11 milyard manatlıq məhsul istehsal edilməsi və bunun təqribən 32,4 faizinin ixrac olunması da qeyd edilən fikrin təsdiqidir. bildirib. Təksə cari ilin yanvar-sentyabr aylarında sənaye zonalarında fəaliyyət göstərən müəssisələr məhsul istehsalının dəyərini ötən ilin eyni dövrü ilə müqayisədə 7 faiz artıraraq 2,3 milyard manata çatdırıb. Bunun da 31,2 faizi ixrac olunub.

Yeri gəlmişkən, Qarabağ və Şərqi Zəngəzurda da sənaye park və məhəllələrinin yaradılması xüsusi diqqətdə saxlanılır. Belə müəssisələrdən biri hazırda Ağdamda yaradılır. Burada qurulan sənaye parkında hazırda 19 rezident, 6 qeyri-rezident fəaliyyət göstərir. İndiyədək 12 milyon manata yaxın investisiya qoyulan bu parkın ilk müəssisəsinin gələn il fəaliyyətə başlayacağı gözlənilir.

Parkın rezidentləri qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, mənfəət vergilərindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və 10 il müddətinə gömrük rüsumlarından azad olunurlar.

Həmçinin bu il yanvarın 1-dən Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən, işğaldan azad olunan ərazilərdə fəaliyyət göstərəcək sahibkarlara əlavə güzəştlər tətbiq edilir. Bura sosial sığorta haqlarının subsidiyalaşdırılması, düşməndən təmizlənən yaşayış sahələrində məskunlaşaraq işləyən mütəxəssislərə hər il 5 gün əlavə məzuniyyət verilməsi, aylıq vəzifə maaşına əlavələrin hesablanması, 600 manat birdəfəlik müavinət verilməsi, iş icazələrinin alınmasının sadələşdirilməsi kimi imtiyazlar daxildir. İşğaldan azad olunan ərazidə fəaliyyət göstərən sahibkarın istehsal prosesində istifadə edəcəyi bir sıra xammal və materialların idxalı da 10 il müddətinə ƏDV-dən azad olunur.

İqtisadi Zonaların İnkişafı Agentliyindən aldığımız məlumata görə, respublikamızda 7 sənaye parkı (Sumqayıt Kimya, Mingəçevir, Balaxanı, Qaradağ, Pirallahı, Ağdam, “Araz Vadisi İqtisadi Zonası” sənaye parkları, 5 sənaye məhəlləsi (Hacıqabul, Masallı, Neftçala, Sabirabad, Şərur) fəaliyyət göstərir. İndiyədək sənaye zonalarına 6,6 milyard manat investisiya yatırılıb və 11 mindən çox daimi iş yeri yaradılıb. Növbəti mərhələdə sənaye zonalarına mövcud layihələr üzrə 780 milyon manata yaxın investisiya qoyuluşu, 6 min 400-dən çox daimi iş yerinin yaradılması nəzərdə tutulur.

Sənaye zonalarında indiyədək, ümumilikdə, 11,1 milyard manatlıq məhsul istehsal edilib. Bunun 3,6 milyard manatlıq hissəsi ixrac olunub. Cari ilin 9 ayında isə sənaye zonalarında fəaliyyət göstərən müəssisələr tərəfindən 2,3 milyard manatlıq məhsul satılıb ki, bunun 31 faizdən çoxu, yəni 722 milyon manatdan artıq hissəsi ixracın payına düşüb.

Hesabat dövründə 2,3 milyard manatlıq məhsul istehsalı ilə sənaye zonalarının ölkə sənayesinin qeyri-neft sektorunda xüsusi çəkisi 17,9 faiz, qeyri-neft sənaye məhsullarının ixracında isə 22,9 faiz (722,3 milyon manat) olub. Bu, sənaye zonalarının qeyri-neft sektorunun inkişafında mühüm rol oynadığını göstərir. Ən əsası isə sənaye zonaları ölkənin idxaldan asılılığını aradan qaldırır (valyutanın ölkədən çıxmasının qarşısını alır), ixracı təşviq edir. Bu da, öz növbəsində, sənaye parklarından kənarda fəaliyyət göstərən müəssisələrə qarşı haqsız rəqabətin olmadığından xəbər verir.

İqtisadi Zonaların İnkişafı Agentliyinin məlumatında, həmçinin qeyd edilir ki, Prezident İlham Əliyevin iştirakı ilə bir müddət bundan əvvəl Sumqayıt Kimya Sənaye Parkında 3 müəssisənin açılışı ( keramik plitələrin, qablaşdırma məhsullarının, polimer qatqıların istehsalı müəssisələrinin) keçirilib. Bununla da sənaye parkında fəaliyyət göstərən müəssisələrin sayı 23-ə, ümumilikdə isə ölkəmizdə mövcud sənaye zonalarında tabe müəssisələrin sayı 71-ə çatdırılıb.

Mütəxəssislər bildirirlər ki, yeni müəssisələrin fəaliyyətə başlaması respublikada qeyri-neft sektorunun inkişafına təkan verəcək, ölkənin ixrac coğrafiyasını genişləndirəcək, iqtisadiyyatın diversifikasiyasını sürətləndirəcək, əhalinin məşğulluğunun artırılmasına mühüm töhfə verəcək.

Sumqayıt Kimya Sənaye Parkında yeni fəaliyyətə başlayan 3 müəssisə tərəfindən, ümumilikdə, 100 milyon manatdan artıq investisiya yatırılıb, 600-ə yaxın daimi iş yeri yaradılıb.

Prezident İlham Əliyevin Sumqayıta sonuncu səfəri çərçivəsində sənaye parkının tabeliyindəki təməli qoyulan 2 müəssisəyə 30 milyon manatdan artıq investisiyanın yatırılması, 300-dən çox isə daimi iş yerinin yaradılması nəzərdə tutulur. Bu müəssisələrin 2024–2025-ci illərdə fəaliyyətə başlaması planlaşdırılır.

Sumqayıt Kimya Sənaye Parkında fəaliyyət göstərən və yeni fəaliyyətə başlayan sənaye müəssisələri istehsalın şaxələndirilməsinə və əlaqələndirilməsinə şərait yaradır. Belə ki, “Novus Plastica” MMC tərəfindən istehsal prosesində istifadə ediləcək xammallardan biri polimer olacaq ki, bu da Sumqayıt Kimya Sənaye Parkının rezidenti “SOCAR Polymer” MMC tərəfindən ödəniləcək. O cümlədən “Azərbaycan Vanhong Ceramics Co.” MMC tərəfindən keramik plitələr istehsalı zamanı xammal kimi yeni təməli qoyulan “Kartaş Kimya” MMC tərəfindən istehsal ediləcək müxtəlif tikinti kimyəvilərdən istifadə olunacaq. Bu növ istehsal müəssisələrinin qurulması sənaye parklarında klasterləşmənin yaranmasını sürətləndirəcək.

Sonda bir məsələni də qeyd edək ki, respublikada fəaliyyət göstərən sənaye parkları və məhəllələrində sahibkarların biznes fəaliyyətini stimullaşdıran, onların vergi və gömrük güzəştləri əldə etmələri üçün əlverişli şərait yaradan və 2016-cı ildən tətbiq edilən investisiya təşviqi mexanizmi çərçivəsində 7 ildən artıq müddət ərzində 583 layihə təşviq olunub. Layihələrin icrası nəticəsində iqtisadiyyata 5,6 milyard manatdan artıq investisiya yatırılıb, 38,6 mindən çox iş yerinin yaradılması nəzərdə tutulub. İndiyədək dəyəri 1,8 milyard manatdan artıq olan texnika, texnoloji avadanlıq və qurğular güzəştli şərtlərlə ölkəyə idxal edilib və müasir istehsal sahələri qurulub.

Təşviq edilmiş layihələrin icrası nəticəsində respublikada yeni məhsullar istehsal edən müəssisələr yaradılıb. Prezident İlham Əliyevin 20 dekabr 2022-ci il tarixli müvafiq fərmanı ilə əvvəlki illərin təcrübəsi nəzərə alınmaqla investisiya təşviqi mexanizmi təkmilləşdirilib. Bu sənəd 2023-cü il yanvarın 1-dən 3 il müddətində sənaye məhəllələri, aqroparklar, turizm və rekreasiya zonaları, həmçinin müvafiq ərazilərdə həyata keçirilən layihələrə, eləcə də dövlət başçısı tərəfindən müəyyənləşdirilən istiqamətlər üzrə strateji təşəbbüslərə verilib.

Yeni meyarlara ekoloji baxımdan mühüm önəm daşıyan tullantıların təkrar emalı fəaliyyət sahəsi də əlavə olunub, eyni zamanda, turizm istiqamətli fəaliyyət sahələri genişləndirilib. Mexanizm çərçivəsində layihələr üzrə idxal olunan texnika, texnoloji avadanlıq və qurğuların əhatə dairəsinin dəqiqləşdirilməsi məqsədilə mal mövqelərinin siyahısı təsdiqlənib.

***Vaqif BAYRAMOV***
***XQ***




Avroliqa

# Bayram axşamında böyük futbol

**Əgər Azərbaycan futbolunda beynəlxalq meydanda ölkəmizi daha yaxşı təmsil edən komanda üçün "Bayrağın şərəfi" mükafatı təsis olunsaydı, son on ildə bu mükafatın ünvanı dəyişməzdi. Ağdamın "Qarabağ" komandasının avrokuboklarda keçdiyi qürurverici yol, xarici mütəxəssislərin də etiraf etdikləri kimi, onun ildən-ilə böyüməsinin və adının Avropada mükəmməl oyun nümayiş etdirən komandalar sırasında çəkilməsinin göstəricisidir.**



Ölkə çempionumuzun Almaniya Bundesliqasının lideri "Bayer" ilə UEFA Avropa Liqası turnirinin "H" qrupunda ikinci dövrə görüşünün 9 Noyabr Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününə təsadüf etməsi maraqlı, həm də tarixi məqamdır. Cədvələ inamla başçılıq edən almaniyalı lider ən yaxın izləyicisinin qonağıdır. İki həftə əvvəl Leverkuzen matçında meydan sahiblərinin xeyrinə böyük hesab (5:1) qeydə alınsa da, Bakıdakı görüşə ölkəmizdə maraq çox böyükdür. Hamı sabah axşam Tofiq Bəhramov adına Respublika Stadionunda yaddaqalan futbol tamaşasının şahidi olacağına ümid etməkdə haqlıdır. Almanların qələbələr seriyasını davam etdirmək iddiaları var, Azərbaycan futbolçularının da müqəddəs bayramımız Dövlət Bayrağı Günündə "Qarabağ"ın tarixində, bəlkə də, ən mühüm oyunda nəyə qadir olduqlarını var gücləri ilə göstərmək üçün əllərindən gələni edəcəklərini təsəvvür etmək çətin deyil.

Azərbaycan klub futbolunun şəriksiz liderinin ardıcıl on il avrokubok yarışlarının qrup mərhələsinə vəsiqə qazanması, burada da zəngin təcrübəli komandalarla rəqabətdə layiqli mübarizə aparması çox şey deməkdir. Onun Avropa və dünyanın ən yaxşı klublarının siyahısında getdikcə irəliləyib, daha uca pillələrə yüksəlməsi doğru yolda olduğunu təsdiq edir.

Düzdür, bu yolda bəzən uğursuzluq da baş verir. Ancaq futbolda bunsuz mümkün deyil. Başlıcası budur ki, irəlilədiyin yolda hərdən büdrəyəndə ruhdan düşməyib, yenidən məqsədə doğru inamla addımlamağa davam etməyi bacarasan. "Qarabağ" məhz belə mübariz kollektivdir.

Sabah qrupumuzda dördüncü turun digər görüşündə İsveçin "Hekken" klubu "Molde"ni (Norveç) qəbul edəcək. Ötən turda bu rəqiblərin də oyunu 5:1 hesabı ilə başa çatmışdı. Qələbəyə evdə çıxış edən norveçlilər sevinmişdilər. İndi isə "doğma divarlar" arasında oynamaq növbəsi İsveç təmsilçisinindir.

Azarkeşlərin səbrsizliklə gözlədiyi "Qarabağ"—"Bayer" görüşü ilə bağlı qeydlərimizi yekunlaşdırarkən xatırladaq ki, almanlar ikinci dövrəyə yüzfaizli nəticə ilə başlayırlar (9 xal), "Qarabağ"ın 6, "Molde"nin 3 xalı var, "Hekken" isə hər üç oyundan məğlub ayrılmışdır. Noyabrın 9-da saat 21.45-də başlanacaq görüşdə uğurlu nəticə Azərbaycan komandasına turnir cədvəlində indiki mövqeyini qorumağa imkan verər, həm də onu pley-off mərhələsinə bir qədər də yaxınlaşdırar. Bu bayram günlərində gözləntimiz də elə budur.

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

## "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı bərpa, tikinti və idarəetmə xidməti" Publik Hüquqi Şəxsi "Qubadlı rayonu, Mahruzlu kənd yaşayış məntəqəsində 2, 3 , 4 və 5 otaqlı fərdi yaşayış evlərinin tikintisi " işlərinin satın alınması üçün AÇIQ TENDER ELAN EDİR

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Səbail rayonu, Maqomayev küçəsi 56 nömrəli ünvanda yerləşən "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti"nin satınalma şöbəsindən əldə edə bilərlər.

Əlaqələndirici şəxs – Satınalmalar şöbəsinin baş məsləhətçisi – Zaur İbrahimov.

E-mail: zaur.ibrahimov@shzbti.gov.az

Tel: + 994512078998.

Tenderdə iştirak haqqı – 1500,00 ( bir min beş yüz manat) manatdır.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Təşkilat - "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" Publik Hüquqi Şəxs
VÖEN – 5200287501
BANK – "KAPİTAL BANK" ASC-nin 28 may filialı
Kod – 200123
VÖEN – 9900003611
M/h – AZ37NABZ01350100000000001944
H/h – AZ31AIIB380300D9447648156112
S.W.İ.F.T. – AIIBAZ2X

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- Tenderdə iştirak etmək üçün ərizə.
- İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi.
- Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 45 bank günü ərzində qüvvədə olmalıdır).
- Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).
- Tender iştirakçısının tam adı, nizamnaməsi (hüquqi şəxslər üçün) və qeydiyyatdan keçdiyi rekvizitləri.
- Malgöndərənin (podratçının) işin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə konkret subpodratçının adı göstərilməklə məlumatlar (əlavə №19).
- Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış. (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış. (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).
- İddiaçının satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (şəxsin səlahiyyətli olması barədə əmr təqdim edilməlidir);
- Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə arayış. (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).
- Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə arayış. (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).
- Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə arayış. (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).
- Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması və onun əsasında həyata keçirilməsinə icazə verilən işlərin siyahısı.
- Malgöndərənin (podratçının) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti (vergi orqanının rəsmi blankında və ya elektron sənədin notarial qaydada təsdiqlənmiş surəti təqdim edilməlidir).
- Kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları.
- Baş podratçı kimi son 3 il (2019-cu il yanvarın 1-dən 2022-ci il dekabrın 31-dək) ərzində ümumi məbləği 30 (otuz) milyon manatdən az olmayan, müraciət edənin hissəsi isə ən azı 15 (on beş) milyon olan (müraciət edən müqaviləni birgə müəssisənin üzvü kimi icra etmişdirsə) və oxşar işi əhatə edən (oxşarlıq – layihə və texniki spesifikasiyalarda təsvir edilən fiziki ölçüyə, mürəkkəbliyə, metodlara, texnologiyaya və digər xüsusiyyətlərə əsaslanmalıdır) ən azı 3 (üç) sifarişi qənaətbəxş şəkildə icra etməsi haqqında məlumat və istismara qəbul və icazə aktları təqdim edilməlidir.
- Son üç (2019-cu il yanvarın 1-dən 2022-ci il dekabrın 31-dək) ərzində tikinti-quraşdırma işləri üzrə ən azı 30 (otuz) milyon manat dövriyyə tələb olunur, həmçinin TMV-nin 1.6-cı bəndində tələb olunan digər tələblər. Qeyd – tenderdə iştirak üçün iki və ya daha artıq tərəfdaş şirkətdən ibarət birgə müəssisə yaratdıqda, TMV-nin 1-ci və 2-ci bəndlərində tələb olunan sənədlər hər bir şirkət üçün ayrılıqda təqdim edilməlidir.

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 15 dekabr 2023-cü il saat 16.00-a, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 25 dekabr 2023-cü il saat 16.00-a qədər Bakı şəhəri, Səbail rayonu, Maqomayev küçəsi 56 nömrəli ünvanda yerləşən "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti"nin satınalma şöbəsinə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Tender iştirakçılarının təklifləri Bakı şəhəri, Səbail rayonu, Maqomayev küçəsi 56 nömrəli ünvanda yerləşən "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətində 26 dekabr 2023-cü il saat 16.00-da açılacaqdır.

Tender iştirakçılarının səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı bərpa, tikinti və idarəetmə xidməti" Publik Hüquqi Şəxsi "Qubadlı rayonu, Zilanlı kənd yaşayış məntəqəsində 2, 3 , 4 və 5 otaqlı fərdi yaşayış evlərinin tikintisi " işlərinin satın alınması üçün AÇIQ TENDER ELAN EDİR

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Səbail rayonu, Maqomayev küçəsi 56 nömrəli ünvanda yerləşən "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti"nin satınalma şöbəsindən əldə edə bilərlər.

Əlaqələndirici şəxs – Satınalmalar şöbəsinin baş məsləhətçisi – Zaur İbrahimov.

E-mail: zaur.ibrahimov@shzbti.gov.az

Tel: + 994512078998.

Tenderdə iştirak haqqı – 1500,00 ( bir min beş yüz manat) manatdır.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Təşkilat - "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" Publik Hüquqi Şəxs
VÖEN – 5200287501
BANK – "KAPİTAL BANK" ASC-nin 28 may filialı
Kod – 200123
VÖEN – 9900003611
M/h – AZ37NABZ01350100000000001944
H/h – AZ31AIIB380300D9447648156112
S.W.İ.F.T. – AIIBAZ2X

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- Tenderdə iştirak etmək üçün ərizə.
- İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi.
- Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 45 bank günü ərzində qüvvədə olmalıdır).
- Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).
- Tender iştirakçısının tam adı, nizamnaməsi (hüquqi şəxslər üçün) və qeydiyyatdan keçdiyi rekvizitləri.
- Malgöndərənin (podratçının) işin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə konkret subpodratçının adı göstərilməklə məlumatlar (əlavə №19).
- Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış. (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış. (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).
- İddiaçının satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (şəxsin səlahiyyətli olması barədə əmr təqdim edilməlidir);
- Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə arayış. (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).
- Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə arayış. (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).
- Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə arayış. (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir).
- Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması və onun əsasında həyata keçirilməsinə icazə verilən işlərin siyahısı.
- Malgöndərənin (podratçının) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti (vergi orqanının rəsmi blankında və ya elektron sənədin notarial qaydada təsdiqlənmiş surəti təqdim edilməlidir).
- Kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları.
- Baş podratçı kimi son 3 il (2019-cu il yanvarın 1-dən 2022-ci il dekabrın 31-dək) ərzində ümumi məbləği 30 (otuz) milyon manatdən az olmayan, müraciət edənin hissəsi isə ən azı 15 (on beş) milyon olan (müraciət edən müqaviləni birgə müəssisənin üzvü kimi icra etmişdirsə) və oxşar işi əhatə edən (oxşarlıq – layihə və texniki spesifikasiyalarda təsvir edilən fiziki ölçüyə, mürəkkəbliyə, metodlara, texnologiyaya və digər xüsusiyyətlərə əsaslanmalıdır) ən azı 3 (üç) sifarişi qənaətbəxş şəkildə icra etməsi haqqında məlumat və istismara qəbul və icazə aktları təqdim edilməlidir.
- Son üç (2019-cu il yanvarın 1-dən 2022-ci il dekabrın 31-dək) ərzində tikinti-quraşdırma işləri üzrə ən azı 30 (otuz) milyon manat dövriyyə tələb olunur, həmçinin TMV-nin 1.6-cı bəndində tələb olunan digər tələblər. Qeyd – tenderdə iştirak üçün iki və ya daha artıq tərəfdaş şirkətdən ibarət birgə müəssisə yaratdıqda, TMV-nin 1-ci və 2-ci bəndlərində tələb olunan sənədlər hər bir şirkət üçün ayrılıqda təqdim edilməlidir.

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 15 dekabr 2023-cü il saat 16.00-a, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 25 dekabr 2023-cü il saat 16.00-a qədər Bakı şəhəri, Səbail rayonu, Maqomayev küçəsi 56 nömrəli ünvanda yerləşən "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti"nin satınalma şöbəsinə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Tender iştirakçılarının təklifləri Bakı şəhəri, Səbail rayonu, Maqomayev küçəsi 56 nömrəli ünvanda yerləşən "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətində 26 dekabr 2023-cü il saat 16.00-da açılacaqdır.

Tender iştirakçılarının səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

***Tender komissiyası***




# "Zəfərə şahidlik edən bayrağım"



**Dünən Azərbaycan Hərb Tarixi Muzeyində Vətən müharibəsində erməni millətçilərinə qarşı savaşda tarixi qələbənin qazanılmasının üçüncü ildönümünə həsr olunmuş "Zəfərə şahidlik edən bayrağım" adlı dəyirmi masa keçirilib.**

Dəyirmi masada Müdafiə Nazirliyinin hərbi hissələrinin, idarə və müəssisələrinin, veteran təşkilatlarının, ictimai birliklərin, təhsil müəssisələrinin nümayəndələri, I Qarabağ və Vətən müharibəsi qaziləri iştirak ediblər.



Məclisdə muzeyin rəisi, polkovnik Əzizağa Qənizadənin, baş elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Vahid İsmayılovun məruzələri və digər çıxışlar dinlənilib.

Qeyd edilib ki, Erməni işğalçılarına qarşı Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun, xalqımızın zəfəri ilə başa çatdı. Haqq savaşımız Azərbaycan tarixinə qızıl hərflərlə əbədi yazıldı. Bu qələbəni Ali Baş Komandanın qətiyyəti, siyasi iradəsi, müzəffər ordumuzun şücaəti, xalqımızın birliyi hesabına qazandıq. Bu, milli hərb tariximizdə Azərbaycanın ən böyük zəfəridir. Azərbaycan son əsrlərdə ilk dəfə tarixi torpaqlarını qaytarmağa nail oldu.

Toplantıda mövzu ətrafında müzakirələr aparılıb, tarixi Zəfərə həsr olunmuş sənədli film nümayiş etdirilib. Dəyirmi masa bədii hissə ilə davam edib.

***Leyla QURBANOVA***
***XQ***




## "Oğuz – Nəqliyyat" ASC səhmdarlarının nəzərinə!

25 dekabr 2023-cü il saat 14.00-da "Oğuz – Nəqliyyat" ASC səhmdarlarının növbədənkənar iclası keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

1. "Oğuz – Nəqliyyat" ASC-nin ləğv edilməsi.

Ünvan – Oğuz şəhəri, H.Əliyev küçəsi 1. Oğuz Olimpiya İdman Kompleksi.

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

*Tabeliyindəki idarələrə ofis avadanlıqlarının satın alınması məqsədilə*

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il noyabrın 20-si saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu– (012) 404-37-00, daxili: 1132.

Ünvan– Bakı, Mikayıl Useynov küçəsi 2.

## BİLDİRİŞ

"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin Tikilməkdə Olan Meliorasiya və İrriqasiya Obyektlərinin Birləşmiş Müdiriyyəti tərəfindən "Ağcabədi rayonunun Yeni Qaradolaq, Qaradolaq, Avşar və digər kəndlərinin əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması"-nın satın alınması məqsədilə keçirilən təkliflər sorğusunda iddiaçılar öz təkliflərini əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun hazırlamalı, təkliflər sorğusunda iştirak üçün sənədləri qapalı, möhürlənib imzalanmış ayrı-ayrı ikiqat zərflərdə 24 noyabr 2023-cü il saat 17.00-dək Bakı şəhəri, Yasamal rayonu, Moskva prospekti 69a nömrəli ünvana təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 27 noyabr 2023-cü il saat 15.00-da açılacaqdır.

***TENDER KOMİSSİYASI***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

*E-təlim veb-platformasının hazırlanması və ona illik texniki xidmətin göstərilməsinin satın alınması məqsədilə*

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il noyabrın 17-si saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu – (012) 404-37-00, daxili – 1132.

Ünvan – Bakı, Mikayıl Useynov küçəsi 2.




# Gəncəli alimlərin Zəfər konfransı

**Tədbir iştirakçıları əvvəlcə Zəfər Günü münasibətilə hazırlanmış sərgiyə baxmışlar. Daha sonra bölmənin böyük konfrans zalında keçirilən tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçən Şəhidlərin xatirəsinin anılması ilə başlamışdır.**



AMEA Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev tədbiri giriş sözü ilə açaraq, iştirakçıları və qonaqları salamlamış, millətimiz üçün çox qürurlu və əziz bir tarixi an olan Zəfər Gününə həsr olunmuş konfransı vacib elmi toplantı kimi xarakterizə etmişdir. O, Zəfər Gününü müzəffər Ali Baş Komandan İlham Əliyevin qüdrətli dövlət və ordu quruculuğu strategiyasının təntənəsi kimi dəyərləndirərək vurğulamışdır ki, məhz cənab Prezidentimizin rəhbərliyi altında, millətimizin həmrəyliyi və Azərbaycan Əsgərinin misilsiz igidliyi sayəsində Vətən torpaqlarımızın bütövlüyü tam bərqərar olub.

Konfransda Elm və Təhsil Nazirliyinin Bioresurslar İnstitutunun direktoru İmran Qasımov "Azərbaycan tarixinə şəhidlərin qanı ilə yazılmış Zəfər Günü", AMEA Gəncə Bölməsinin Nizami Gəncəvi Mərkəzinin direktoru Əlimuxtar Muxtarov "İlahi və dünyəvi ədalətin təntənəsi — Qarabağ zəfəri", AMEA Gəncə Bölməsinin Diyarşünaslıq İnstitutunun böyük elmi işçisi Mətanət Əliyeva "Şuşa zəfəri tarixi qələbəmizin qürur səhifəsidir", AMEA Gəncə Bölməsinin Elmi katibi Elnur Həsənov "Müzəffər Ali Baş Komandanın qələbəsi gənclər üçün örnəkdir",Elm və Təhsil Nazirliyinin Aqrar Problemlər İnstitutunun direktoru Sədaqət Adıgözəlova "Qarabağ zəfərindən Zəngəzura gedən yol", AMEA Gəncə Bölməsinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Zakir Muradov "Azərbaycanın qələbəsinin beynəlxalq geosiyasi təhlükəsizliyin təminatı proseslərində rolu", AMEA Gəncə Bölməsi Elmi kitabxanasının müdiri Vüsalə Hüseynova "Qarabağ zəfərinin müasir elmi ədəbiyyatlarda əks olunması" mövzuları üzrə məruzələrlə çıxış ediblər.

Toplantıda, həmçinin AMEA Gəncə Bölməsi Həmkarlar təşkilatının sədri Nailə Hacıyeva çıxış edərək bölmə rəhbərliyinin qərarı ilə burada çalışan, torpaqlarımızın bütövlüyü naminə birinci və ikinci Qarabağ müharibələrində döyüşmüş əməkdaşlara Zəfər Günü münasibətilə pul mükafatlarının ayrılması barədə məlumat vermişdir.

Gəncə Şəhər İcra Hakimiyyətinin şöbə müdiri Yadigar Bədəlov Zəfər Gününə həsr edilən bu tədbirin yüksək səviyyədə keçirildiyini qeyd edərək akademik Fuad Əliyevin rəhbərliyi altında AMEA Gəncə Bölməsinin şəhərin ictimai həyatında da daim fəal mövqe tutduğunu bildirmişdir.

***Hamlet QASIMOV,***
***XQ –nin bölgə müxbiri***

# FHN-in qurumları və regional mərkəzlərində silsilə tədbirlər

**Fövqəladə Hallar Nazirliyinin qurumlarında və regional mərkəzlərində 8 Noyabr – Zəfər Günü və 9 Noyabr – Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü münasibətilə tədbirlər keçirilib.**



Tədbirlərdə 44 günlük Vətən müharibəsində ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə qazanılmış tarixi Zəfərin əhəmiyyətindən danışılıb, rəşadətli Azərbaycan Ordusunun misilsiz qəhrəmanlığından söz açılıb. Bildirilib ki, Vətən torpaqlarının bütövlüyü uğrunda qəhrəmancasına mübarizə aparan igid əsgər və zabitlərimizin misilsiz sücaəti sayəsində düşmən ordusu darmadağın edilib, 30 ilə yaxın müddətdə işğal altında qalan torpaqlarımız azad edilib və ölkəmizin ərazi bütövlüyü bərpa olunub. Diqqətə çatdırılıb ki, əldə olunmuş tarixi Zəfər yenilməz Azərbaycan Ordusunun qüdrətinin bariz göstəricisi, Prezident–Xalq sarsılmaz birliyinin böyük təcəssümüdür.

Təbirlərdə bu ilin sentyabr ayının 19-dan başlayaraq Qarabağda həyata keçirilən, cəmi 23 saat davam edən lokal xarakterli antiterror tədbirlərinin əhəmiyyətindən söz açılıb və bildirilib ki, bu əməliyyat nəticəsində respublikamızın suverenliyi tam bərpa olunub. Qeyd olunub ki, həm 44 günlük Vətən müharibəsinin yekununda qazanılan tarixi Zəfər, həm antiterror tədbirləri nəticəsində əldə olunan Qələbə xalqımıza misilsiz qürur hissi yaşadıb.

***XQ***

# Balakəndə bayram təntənələri



**Dağlar diyarı Balakəndəki Bayraq Muzeyində 9 Noyabr Dövlət Bayrağı Gününə həsr olunan tədbirdən öncə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu öndər Heydər Əliyevin və respublikamızın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**

Tədbiri açan Balakən Rayon İcra Hakimiyyətinin başçısı İslam Rzayev bildirib ki, Prezident İlham Əliyevin 17 noyabr 2009-cu il tarixli sərəncamı ilə təsis edilmiş Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü müqəddəs bayrağımıza, tarixi keçmişimizə və mənəvi-siyasi dəyərlərimizə dövlət səviyyəsində olan diqqət və ehtiramın göstəricisidir. 1918-ci ilin 9 noyabrında təsis edilmiş üçrəngli dövlət bayrağımız 70 ildən sonra 17 noyabr 1990-cı ildə Ulu öndər Heydər Əliyevin təklifi və Naxçıvan Ali Məclisinin qərarı ilə Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi yenidən qəbul olunub.

Rayon rəhbəri vurğulayıb ki, 44 günlük Vətən Müharibəsində müzəffər Ordumuz tərəfindən işğaldan azad olunmuş şəhərlərimizdə üçrəngli bayrağımızın dalğalanması zəfərə gedən yolumuzu daha da işıqlandırırdı. Zirvə yollarını bir boy da ucaldan Dövlət Bayrağımız ölkəmizin və ordumuzun qüdrətini bir daha göstərir, hər bir vətəndaşı qürurlandırır.

***

Qarşıdan gələn Konstitusiya Günü ərəfəsində isə Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar olaraq rayon icra hakimiyyətində "Hüquqi dövlət quruculuğunda Heydər Əliyev irsi" mövzusunda dəyirmi masa keçirilib.

Tədbirdə çıxış edən rayon icra hakimiyyətinin başçısı İslam Rzayev Azərbaycan Respublikasının Konstitusiya layihəsinin hazırlanmasının müstəqil dövlətçiliyimizin qurucusu, Ümummilli lider Heydər Əliyevin əsəri olduğunu bildirib. Rayon rəhbəri 1995-ci il iyunun 5-də Ulu öndər Heydər Əliyevin Sədrliyi ilə Konstitusiya Komissiyasının ilk iclasından başlayaraq, 12 noyabr referendumunadək Ümummilli liderin Azərbaycanın Əsas Qanununun hazırlanmasına, onun bütün prinsipial müddəalarının geniş ictimaiyyət tərəfindən müzakirəsinə şəxsən rəhbərlik etdiyini qeyd edib. Ümummilli lider Heydər Əliyevin bu sənədin təkcə dövrün tarixi və siyasi reallıqlarının deyil, bütövlükdə, xalqın milli-mənəvi dəyərlərinin süzgəcindən keçərək qəbul olunmasına çalışdığını və buna da nail olduğunu nəzərə çatdırıb .

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# İKİNCİ BİLDİRİŞ –

## 27 noyabr tarixdən etibarən LPO "Muğanbank" ASC də qorunan əmanətlər üzrə kompensasiyalarin ödənişlərinə başlanılacaqdır

Bakı Apellyasiya Məhkəməsinin İnzibati Kollegiyasının 2-3(103)-54/2023 nömrəli 24 oktyabr 2023-cü il tarixli qərarı ilə "Muğanbank" ASC müflis elan edilmiş və Əmanətlərin Sığortalanması Fondu adıçəkilən Bankın ləğvedicisi təyin edilmişdir. Həmçinin "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq "Muğanbank" ASC-də sığorta hadisəsi günü 24 oktyabr 2023-cü il müəyyən edilmişdir.

Məlumat üçün bildiririk ki, kompensasiyaların ödənilməsi 27 noyabr 2023-cü il tarixdən başlayaraq həyata keçiriləcəkdir. "Əmanətlərin sığoratalanması haqqında" Azərbaycan Respublikası Qanunun 28.3-cü maddəsinə əsasən Əmanətlərin Sığortalanması Fondu əmanətçilərin ərizələrini kompensasiya ödənişi haqqında bildirişin ilk dəfə dərc edildiyi gündən başlayaraq bir il ərzində qəbul edir. Kompensasiyaların ödənilməsi üçün sənəd qəbulunun yeri barədə əlavə məlumat veriləcəkdir.

Kompensasiyaların ödənilməsi prosesi haqqında ətraflı məlumatı Əmanətlərin Sığortalanması Fondunun saytından əldə edə bilərsiniz.

www.adif.gov.az

# ÜÇÜNCÜ BİLDİRİŞ –

## Əmanətlərin Sığortalanması Fondu "Muğanbank" ASC-nin ləğvedicisi təyin edildi

Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 18 oktyabr 2023-cü il tarixli Qərarı ilə məcmu kapitalının miqdarının banklar üçün müəyyən edilmiş minimum miqdarından az olduğuna, məcmu kapitalının adekvatlıq əmsalının 3 faizdən az olmasına, cari fəaliyyətini etibarlı və prudensial qaydada həyata keçirmədiyinə, habelə bankın daxili idarəetmə və nəzarət prosedurları adekvat olmadığına görə "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 16.1.6-cı, 16.1.7-ci, 16.1.9-cu, 16.1.18-ci, 57-ci və 61.1-ci maddələrinə əsasən "Muğanbank" ASC-nin lisenziyası 19 oktyabr 2023-cü il tarixindən etibarən ləğv edilmiş, banka müvəqqəti inzibatçı təyin edilmiş və bankın müflisləşmə yolu ilə ləğv edilməsi barədə məhkəməyə müraciət olunmuşdur.

AZƏRBAYCAN ƏMANƏTLƏRİN SIĞORTALANMASI FONDU

Bakı Apellyasiya Məhkəməsinin 24 oktyabr 2023-cü il tarixli 2-3(103)-54/2023 saylı qərarı ilə "Muğanbank" ASC müflis elan edilmiş və iflas proseduruna başlanmışdır.

Bildiririk ki, Bakı Apellyasiya Məhkəməsinin sözügedən qərarına əsasən, Əmanətlərin Sığortalanması Fondu "Muğanbank" ASC-nin ləğvedicisi təyin edilmişdir.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 245 (30361) 8 noyabr 2023-cü il, çərşənbə

İdman xəbərləri

# Ən güclü boksçular müəyyənləşib

**Gənc boksçular arasında Azərbaycan birinciliyi başa çatıb.**



Boks Mərkəzində təşkil olunan yarışda 59 komandadan 227 boksçu qüvvəsini sınayıb. Yekun nəticədə Bilalhəbəşi Nəzərov, Zidan Hümbətov, Ömər Aslanlı, Məhəmmədli Aşurəliyev, Məhəmmədəli Qasımzadə, İbrahim Zeynalov, Hüseyn Hacıyev, Ayxan Əliyev, Mircəlal Mirağayev, Hüseyn Hüseynli, Ruslan Qəhrəmanov, Kənan Nəcəfov və İlkin Məmmədli öz çəki dərəcələrində qalib adını qazanıblar.

"Neftçi" İdman Klubu komanda hesabında (36 xal) birinci pillədə qərarlaşıb. İkinci yeri Z-1 İdman Klubu (27 xal) tutub. Üçüncü nəticəni isə "Təhsil" Respublika İdman Mərkəzi (26 xal) göstərib.

Birincilikdə Məhəmmədəli Aşurəliyev ən yaxşı boksçu adına layiq görülüb, Asif Məmmədov (Gəncə) ən yaxşı hakim seçilib.

# Avarçəkmə üzrə gümüş medal

**İtaliyanın Turin şəhərində təşkil olunan ənənəvi "Silver Skiff" beynəlxalq reqatasında akademik avarçəkmə üzrə Azərbaycan idmançısı Diana Dımçenko medal qazanıb.**



Avarçəkənlərin 11 kilometr məsafə qət etdikləri 1 mərhələdən ibarət olan reqatada bir nəfərlik akademik avarçəkmə qayığında çıxış edən Diana Dımçenko məsafəni 44 dəqiqə 54 saniyəyə başa vurmaqla finiş xəttinə ikinci çatıb. Bununla da idmançımız gümüş medala sahib olub.

Qeyd edək ki, 32-ci dəfə təşkil olunan yarışda 30-a yaxın ölkədən müxtəlif yaş kateqoriyaları üzrə 700-dən artıq idmançı iştirak edib.

# AFFA klubları cərimələyib

**"Sabah", "Turan Tovuz", "Qəbələ" və "Neftçi" klubları AFFA tərəfindən cərimələnib.**




Belə ki, "Sabah"ın futbolçusu Emmanuel Apeh XII turda "Zirə"yə 0:1 hesabı ilə uduzduqları matçda ikinci sarı vərəqəni alaraq meydandan qovulduğu üçün bir oyunluq cəza alıb. Bununla yanaşı, hücumçuya görə klub 500 manat ödəməli olacaq.

"Turan Tovuz" isə "Səbail"ə 1:2 hesabı ilə uduzduqları qarşılaşmada beş oyunçusu sarı vərəqə aldığı üçün 700 manat cərimələnib. Həmin görüşdə bölgə təmsilçisinin fanatları baş hakimi təhqir etdiklərinə görə, kluba 500 manat cərimə kəsilib.

"Neftçi" və "Qəbələ" isə 700 manat ziyana düşüblər. Qəbələdə keçirilən matçda hər iki komandanın 4 futbolçusu sarı vərəqə ilə cəzalandırılıb.

***Leyla SABİRQIZI***
***XQ***

# OXUCULARIN NƏZƏRİNƏ!

## "Xalq qəzeti"

## *2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*

**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.




1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

**Hörmətli abunəçilər!**
***Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.***

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

Sağlamlıq

# Otaq sərin – yuxu şirin

***Sürixdəki İsveçrə Ali Texniki Məktəbinin (ETH Zurich) alimləri yuxunu sağlamlaşdıran və ümumi əhvalı yaxşılaşdıran optimal hava şəraitini müəyyən ediblər. Alimlərin apardığı təcrübə yataq otağında havanın tərkibi ilə yuxunun keyfiyyəti arasında birbaşa əlaqəni üzə çıxarıb.***



Alimlər yaşı 27-dən 64-ə qədər olan 35 nəfərin iştirakı ilə kompleks testlər həyata keçiriblər. Onlar seçim zamanı hər hansı yuxu pozuntusunun olmaması və mütəmadi yuxu dərmanı qəbul edib-etməməsi kimi amilləri yoxlayıblar. Dörd həftə davam edən təcrübənin gedişində tədqiqatçılar yataq otağındakı şəraitin müxtəlif aspektlərini və iştirakçıların yuxu rejimini izləyiblər. Onlar otaqda karbon qazının (CO2) həcmi, nisbi rütubət, bərk zərrəciklərin (PM) səviyyəsi kimi parametrlər barədə məlumatları toplayıblar. Bu məlumatlar havanın keyfiyyəti və hər bir yataq otağındakı şərait barədə təsəvvür yaradıb.

Mütəxəssislər bu qənaətə gəliblər ki, sağlam və yaxşı yuxu üçün yataq otağındakı karbon qazının optimal həcmi 1 kubmetr havaya maksimum 1000 vahid təşkil etməldir.

***Sevda***
***XQ***

Danışan fotolar



Müəllif Elşən AĞALARDIR

# Hadi – başıbəlalı şair

### "Şeyxin şəhərdə nə işi?"

Məhəmməd Hadi çox məğrur insan olub. O, hələ tələbə olanda mollalığa hazırlaşdığı halda, mövhumata qarşı ciddi çıxışlar edirdi. Bir gün mübahisə vaxtı bəziləri şəhərin, bəziləri isə kəndin şərafətli olduğunu söyləyir. Bir nəfər deyir:

– Kənd şərafətlidir, çünki şeyxlərin hamısı kənddən çıxır.

O zaman, həqiqətən, şeyxlərin, çox vaxt kəndlərdən çıxdığını, təriqətçiliyin, əsasən, kəndlərdə yayıldığını bilən M.Hadi buna işarə edərək, ona ikibaşlı cavab verir:

– Düz deyirsən, şeyx dediyin kəs kəndlərdən çıxır, onun şəhərlərdə nə işi var?

### "Qadınlar bizi anlamaz"

Şeirlərində qadın azadlığını həmişə müdafiə edən M.Hadi ömür boyu evlənməyə etinasızlıq göstərmişdir. Şair ilk gəncliyində qohumlardan birinin qızını sevmiş, qızı başqasına verdiklərinə görə, o çox sarsılmışdır.

İlk eşqi onun qəlbində sağalmaz iz buraxdığından o, ailə qurmur. Dostları arasında evlənməkdən söz düşəndə şair deyirmiş:

– Allah bunların bəlalarını versin.



Bu qadınlarda bizi anlayacaq baş, duya biləcək ürəkmi var?

### "Bədbəxtdən nə gözləyirsən?"

Məhəmməd Hadinin yaxın dostlarından biri də A.Şaiq imiş. O, dostu Hadinin içkiyə aludə olduğunu söyləyib, onu dostcasına tənqid etdikdə, şair çox məyus olur və mütəəssir halda deyir:

– Eh, Şaiq, həyatı başdan-başa faciələrlə dolu olan bir bədbəxtdən nə gözləyirsən?

Sonra o, əlləri ilə üzünü qapayıb hönkür-hönkür ağlayır.

***Z.HÜSEYNLİ***
***XQ***

*✓ 1999-cu il aprelin 26-da Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən Elxan Hüseynqulu oğlu Məmmədliyə verilmiş filologiya elmləri namizədi alimlik dərəcəsi diplomu itdiyi üçün etibarsız sayılır.*

Hava

# Gündüz yağmursuz keçəcək, dəyişən külək əsəcək



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən noyabrın 8-də Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə arabir yağış yağacağı, səhər tədricən kəsiləcəyi, gündüz əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Şimal-qərb küləyi əsəcək, gündüz mülayim cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 13-16° , gündüz 17-22° isti olacaq. Atmosfer təzyiqi 766 mm civə sütunundan 769 mm civə sütununa yüksələcək, nisbi rütubət 60-70 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, şimşək çaxacağı, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Səhər tədricən kəsiləcək, gündüz əsasən yağmursuz keçəcək. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 10-14°, gündüz 19-24°, dağlarda gecə 1-6°i, gündüz 8-13° isti olacaq.

***Q. QASIMOV***
***XQ***

# Rostropoviçlərin evində "Şanlı zəfər"

**8 Noyabr – Zəfər Günü münasibətilə Leopold və Mstislav Rostropoviçlərin ev-muzeyində "Şanlı zəfər" adlı tədbir keçirilib.**



Muzeydən bildiriblər ki, əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Sonra Q.Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin şagirdləri konsert proqramı ilə çıxış ediblər.

Tədbir Respublika Uşaq Gənclər İnkişaf Mərkəzinin "Dram və bədii qiraət" dərnəyinin üzvləri, Rəhimə Orucova adına 109 nömrəli tam orta məktəbin şagirdlərinin ifasında "Şanlı zəfər" kompozisiyasının təqdimatı ilə davam edib.

44 günlük Vətən müharibəsinin şanlı tarixinə nəzər salınıb, günün önəm və anlamına həsr olunmuş videoçarx nümayiş olunub.

Tədbirdə qonaq qismində 150, 189-190 nömrəli məktəbin müəllim və şagird kollektivi iştirak edib.

***Ayan NƏCƏF,***
***tələbə-jurnalist***

# ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektorluğu və professor-müəllim heyəti siyasi idarəetmə fakültəsinin dekanı, dosent Murtəza Həsənova bacısı

**GÜLQAYID XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4790
SİFARİŞ 2845
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır 00:00